# BAKI AVRASİYA UNİVERSİTETİ
## Elmi-nəzəri jurnal


# SİVİLİZASİYA

# ЦИВИЛИЗАЦИЯ

# CIVILIZATION


"Sivilizasiya" jurnalı Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısında Tarix; Siyasi elmlər; Fəlsəfə və Sosiologiya; Filologiya elmləri; Pedaqoqika sahəsi üzrə elm sahələrinə daxil edilib.

**Directory of Research Journals Indexing (DRJI) ilə indekslənmişdir.**
**Jurnal ildə 4 dəfə şənr edilir.**

**Cild 10 №3 2021 (48)**
**Vol. 10 №3 2021(48)**
**Том 10 №3 2021 (48)**

**BAKI – 2021**

**Təsisçi**
**Bakı Avrasiya Universiteti**

**Baş redaktor**
**F.e.d., prof. Hüseynli Nazim Ziyad oğlu**

**Baş redaktorun müavini**
**S.e.d., prof. İbrahimova Gülzar İsaxan qızı**

**Məsul katib**
**Fil.ü.f.d., dos. Şıxıyeva Səadət Məmməd qızı**

**REDAKSİYA HEYƏTİ**

**Tarix və siyasi elmlər üzrə:**

Prof.Dr. Attar Aygün (Türkiyə)
S.e.d., prof. Ryabova Yelena Lvovna (Rusiya)
T.e.d., prof. Nikonov Aleksandr Vasilyeviç (Rusiya)
T.e.d. Natia Mirianaşvili (Gürcüstan)
AMEA-nın həqiqi üzvü, t.e.d., prof. Bünyadov Teymur Əmiraslan oğlu
T.e.d., prof. Cəfərov Əsədulla Qüdrət oğlu
T.e.d., prof. İsgəndərov Anar Camal oğlu
T.e.d., prof. Qasımlı Musa Cəfər oğlu
T.e.d., prof. Şükürov Kərim Kərəm oğlu
T.e.f.d., dos. Mehdiyev Aqşin Şəfaət oğlu
S.e.d., prof. Məmmədov Hikmət Baba oğlu
B/m. Qasımov Səyavuş Kamran oğlu
S.e.d., prof. Nəsirli Elman Xudam oğlu (şöbə redaktoru)

**Fəlsəfə və sosiologiya elmləri üzrə:**

Prof. Dr. Suat Günsel (KKTC)
Prof.Dr. Məmmədov Nizami Mustafa oğlu (Rusiya)
Doç. Dr. Abdıldayev Kurmanbek (Qırğızıstan)
F.e.d., prof. Orucov Zahid Məlik oğlu (Rusiya)
AMEA-nın müxbir üzvü, prof. Əliyev Bəxtiyar Həmzə oğlu
F.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlu
F.e.d., prof. Məmmədov Əziz Bəşir oğlu
F.e.d., prof. Talışlı Siyavuş Murtuza oğlu
F.e.f.d., dos. Məmmədov Hüseyn Qaraxan oğlu
F.e.f.d., dos.Qaraməmmədli Yasin Alı oğlu
F.e.f.d. Rəhimov Mütəllim Qara oğlu (şöbə redaktoru)

**Filologiya elmləri üzrə:**

Prof. Dr. Bozkurt İsmayıl (Türkiyə)
Prof. Dr. Hikmət Koraş (Türkiyə)
AMEA-nın müxbir üzvü, fil.e.d., prof. Cəfərov Nizami Qulu oğlu
Fil.e.d., prof. Qasımov Cəlal Əbil oğlu
Fil.e.d.,prof. Cəlilov Firudin Ağası oğlu
Fil.e.d.,prof. Qasımov İkram Ziyad oğlu
Fil.e.d. prof. Veysəlli Fəxrəddin Yadigar oğlu Fil.e.d., dos. Rzayev Seyfəddin Gülverdi oğlu
Fil.ü.f.d, prof. Məmmədov Novruz İsmayıl oğlu Fil.ü.f.d.,dos. Quliyev Əsgər Qədir oğlu
Fil.ü.f.d.,dos. Gündoğdu Səriyyə Gülağa qızı
Fil.ü.f.d.,dos. Məmmədova Elmira Kekeç Fikrət qızı
Fil.ü.f.d.,dos. Hüseynova Nigar Nazim qızı
Fil.ü.f.d.,dos. Rzayeva Sevda Ramiz qızı
Fil.ü.f.d.,dos. Cəlil Fərəh Cabbar qızı
B/m. Musayev Nəsrəddin Musa oğlu
Fil.e.f.d., prof. Tahirzadə Ədalət Şərif oğlu (şöbə redaktoru)

**Pedaqoqika sahəsi üzrə:**

P.e.d., prof. Hüseynzadə Rüfət Lətif oğlu
P.ü.f.d., dos. Səmədov Oqtay Əlipaşa oğlu
Ps.ü.f.d., dos.Cavadov Rövşən Əli oğlu

**© Bakı Avrasiya Universitetinin nəşri, 2021**

## İ Ç İ N D Ə K İ L Ə R

### *FƏLSƏFƏ VƏ SOSİOLOGİYA*


**Vüsalə GÜLMALIYEVA**
*Postmünaqişə mərhələsində Cənubi Qafqazda regional əməkdaşlığın siyasi-etik aspekti* ........................................ 6

### *TARİX VƏ SİYASİ ELMLƏR*

**Elnur KELBİZADEH**
*Iran's Role in Ensuring Armenia's Energy Security*………………................. 16

**Liliya MİRZƏZADƏ**
*İnquşetiya Respublikası Rusiya Federasiyasının siyasi münasibətlər sistemində* 27

**Aysel ALLAHVERDİYEVA**
*Azərbaycan Respublikasında QHT-lərin yaranması və inkişafı* .................... 35

**Ceyhun ƏHMƏDLİ**
*Rusiyanın Ukraynaya qarşı hibrid müharibə strategiyası* ............................. 43

**Şəfəq ƏHMƏDOVA**
*Dağlıq Qarabağ münaqişəsinin ilk mərhələsində informasiyanın formalaşması və yayılması xüsusiyyətləri* .............................................. 54

**Ülviyyə HÜSEYNOVA**
*Ermənistan-Azərbaycan münaqişəsinin qaynar fazasının (1989-94-cü illər) Böyük Britaniya mətbuatında işıqlandırılması* ............................................. 61

**Vidadi UMUDLU**
*Türkiyə tarixçiləri ermənilərin Şimali Azərbaycan torpaqlarına kütləvi köçü barədə (1828-1829-cu illər)* ........................................................ 69

**Zəfər ABDULLAYEV**
*Vətəndaş cəmiyyəti ideyasının inkişafına dair* ............................................. 76

**Elshan MAJIDOV**
*Analysis of the İssue of Attracting Foreign Mercenaries to the Karabakh Conflict Through the Prism of the Solow-Swan Model* .................................. 88

*FİLOLOGİYA*

**Arif ƏSƏDOV**
*Yeni ictimai çağırışlar və orta məktəblərdə ədəbiyyatın tədrisi məsələləri* ... 95

**Günəş XUDAYAROVA**
*Sovet dövrü poeziyasında şair azadlığı poetik yaradıcılıq müstəvisində* ....... 102

**Pərvin KƏRİMOVA**
*Dil və ünsiyyət* ........................................................................................ 111

**Sevinc NAMƏTOVA**
*Cəmliyin formal identifikasiyası və onun semantik şərhi* ............................ 117

**Нурлана МУСТАФАЕВА**
*Проблемы периодизации азербайджанской литературы в турецком литературоведении (на основе произведений Мехмета Фуата Кёпрюлю)* 124

**Bizim müəlliflər**........................................................................................ 132

**Düzəlişlər**.................................................................................................. 134

**Yazı qaydaları**........................................................................................... 135

**Правила написания**................................................................................... 137

**Rules of writing**......................................................................................... 139

**Yazı kuralları**............................................................................................. 141

**F Ə L S Ə F Ə V Ə S O S İ O L O G İ Y A**

**UOT 177**

# POSTMÜNAQİŞƏ MƏRHƏLƏSİNDƏ CƏNUBİ QAFQAZDA REGİONAL ƏMƏKDAŞLIĞIN SİYASİ-ETİK ASPEKTİ

**Vüsalə GÜLMALIYEVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 18 may 2021; çapa qəbul edilmişdir: 5 iyul 2021; online-da çap edilmişdir:30 sentyabr 2021.*

*Received: 18 th May, 2021; accepted: 5 th Jule, 2021; published online: 30 th September, 2021.*

**Açar sözlər:** *münaqişə, müharibə, sülh, əməkdaşlıq, siyasi etika*

## Giriş

Bir çox alim və siyasi analitiklərin fikrincə, XXI əsr qeyri-stabil, konfliktologiya əsridir. Bunu istər makro səviyyədə – bölgələrdə güc nisbətindəki böyük dəyişikliklərdə, iqtisadi və siyasi gücün ölkələr arasında müxtəlif şəkildə bölüşdürülməsində, siyasi və mədəni heterojenlikdə, bölgələrarası iqtisadi qarşılıqlı asılılığın artmasında, millətçilik, geniş ərazi mübahisələrində və istərsə də, mikro səviyyədə cəmiyyətlərin sosial həyatının müxtəlif sahələrində baş verən mürəkkəb ziddiyyətlər, münaqişələr fonunda görmək mümkündür. Biz artıq ziddiyyətləri, münaqişələri real həyatın bir hissəsi kimi qəbul edirik. Hətta bir çox alimlər münaqişələrin baş verməsini təbii və cəmiyyətin inkişafına da səbəb ola biləcək hal kimi, digər tərəfdən hətta faydalılığını da qeyd edirlər [5, s. 48]. Digər qrup alimlər isə münaqişəni neqativ bir hal kimi dəyərləndirirlər [9, s. 11]. Əlbəttə, biz birmənalı olaraq, hər hansı bir münaqişəni mənfi qiymətləndiririk. Çünki bəşər-insan olaraq biz hamımız bu və ya digər dərəcədə mikro səviyyədə baş verən gündəlik mübahisələrdən, münaqişələrdən tutmuş millətlərarası, ərazi, ictimai-siyasi qarşıdurmalara qədər olan ziddiyyətlərdən, münaqişələrdən kifayət qədər əziyyət çəkmişik və çəkirik. Buna görə də, münaqişə ümumiyyətlə cəmiyyətdəki ictimai rəy tərəfindən arzuolunmaz bir fenomen kimi qiymətləndirilir. Lakin burada bizim qiymət verib-verməməyimizdən asılı olmayaraq, yaşadığımız reallıqlar var. Belə ki, insan dünyaya göz açdığı bir gündən münaqişə ona həmdəmdir. Rusiya elmində siyasi konfliktologiya sahəsinə aid ilk əsərin müəllifi olan Dmitriy Feldman obrazlı şəkildə qeyd edirdi ki, münaqişədən qaçmaq olar, yəni, münaqişəsiz yaşamaq olar. Bu, o halda mümkündür ki, Robinzon Kruzo kimi insan ayağı dəyməyən bir adaya gedəsən [7, s. 25]. D.Feldman deyirdi ki, bu da ancaq cümə gününə qədər davam edər. Çünki əsərdən də tanış olduğu kimi, cümə günü orda başqa bir insan peyda olur. İki insan bir yerdə varsa, orada mütləq münaqişə olacaqdır. D.Feldman bununla qeyd etmək istəyir ki, münaqişəsiz cəmiyyət haqqında düşünmək əbəsdir və baş vermiş münaqişələrin niyə, nə üçün baş verdiyinə vaxt sərf etməkdənsə, artıq onun həll vasitələri, tənzimlənməsinin optimal yollarının tapılması, tərəfdaşlar arasında anlaşma və bu tərəfdaşlıq vasitələrində nizama, harmoniyaya nail olmaq üçün etik qaydalara riayət edilməsinə əsas diqqəti çəkmək lazımdır. Burada problemin mərkəzi sualı münaqişənin baş verməməsi yox, münaqişələrdə sülhün, dialoqun, razılaşmanın necə əldə olunmasıdır.

---

* *dissertant, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
e-mail: esma_r86@mail.ru

Elmi ədəbiyyatda münaqişələrin həlli yolu kimi sülh, konsensus, kompromis, danışıqlar, tərəfdaşlıq, dialoq, əməkdaşlıq, münasibət və s. vasitələri göstərilir. Əlbəttə, sülh bəşəriyyətin harmoniyasıdır. Bütün dünyada sülh ən başlıca, əsas bəşəri sərvətdir. Xalqların sülh uğrunda mübarizəsi tərəqqinin və sivilizasiyanın sürətlənməsi və taleyi baxımından böyük əhəmiyyətə malikdir. Sülh mədəniyyətin humanist sərvətlərinin yaradılması üçün, müharibə isə onların viran qoyulması üçün zəruri şərtdir [2, s. 164]. Sülh haqqında düşüncələr hələ qədimdən mədəni yaradıcılığın fəal formalaşdırıcı bünövrəsi kimi güclü mənəvi qüvvə olmuşdur. Yer üzündə böyük sülh, əmin-amanlıq, dialoq fəlsəfəsi və dialoq mədəniyyətinin formalaşmasından kənarda sivilizasiyanın gələcəyi dərkedilməzdir [4, s. 69]. Qeyd etmək lazımdır ki, müasir dünyada sülh harmonik olaraq cəmiyyətlərin ilk növbədə gücü, qlobal dünyadakı dayanıqlı vəziyyətləri, iqtisadi inkişaf səviyyələri, regiondakı nüfuzu və əhəmiyyəti, dünyaya inteqrasiya səviyyəsindən asılı olsa da, fəlsəfi anlamda bütün müasir cəmiyyətlərin öz fitrətlərində də sülh elementləri vardır. Ümumiyyətlə, istənilən tarixi dönəmdə cəmiyyətlərin dayanıqlı olmasını – proqressiv inkişafını şərtləndirən amillərdən biri, məhz mahiyyəti etibarı ilə sabitlik və stabillik əlaməti olan sülh fenomeni olmuşdur. Cəmiyyətlərin inkişafında sülh konsepsiyasının rolu haqqında tədqiqatlar aparan G.Kemp də, doğru olaraq qeyd edir ki, istənilən cəmiyyətdə bu və ya digər dərəcədə olmaq şərti ilə, müəyyən səviyyədə sülh və sülhün elementlərini aşkar etmək olur. Amma bu fakt, dünyada sülhün olmadığı cəmiyyətlərin də mövcud olması anlamına gəlməməlidir [14, s. 5]. Yəni müasir dünyanın əsas hərəkətverici qüvvəsi birmənalı olaraq iqtisadiyyatdır. İqtisadiyyatın inkişafı üçün isə, sabitlik əsas şərtlərdən biridir. Bu mənada ümumilikdə, müasir dünyanın tərəzisində, sülh konfliktləri getdikcə üstələməkdədir. Düşünürük ki, həll edilməsi son dərəcə mürəkkəb olan konfliktlərə, məsələn, Cənubi Qafqaz regionunda uzun illər davam edən Dağlıq Qarabağ məsələsinin həllinə də bu kontekstdən baxmaq lazımdır. Hətta elmi ədəbiyyatda da pasifizm termini işlədilir ki, bu da müharibə əleyhinə olmaq, sülhə sadiq davranış nümayiş etdirmək deməkdir. Yəni burada da əsas qayə sülhə çağırış etmək və onun təbliğidir. Qeyd etmək lazımdır ki, müasir cəmiyyətlərin ənənəvi cəmiyyətlərdən, daha mürəkkəb-sinkretik sistemlərə çevrilməsi ilə əlaqədar olaraq, neqativ və pozitiv sülh konsepsiyaları da, müasir dünyada populyarlıq qazanmaqdadır. Neqativ və pozitiv sülh konsepsiyalarının inkişafında misilsiz xidmətləri olan şəxslərdən ən başlıcası, məşhur Norveç sosioloqu, sülh və konfliktlər nəzəriyyəsinin tərəfdarı, İohan Vinsent Qaltunqdur [11, s. 9]. Neqativ sülh əgər müharibənin əleyhinə olmağı, yaxud qeyri-zorakı davranmağı tələb edirsə, pozitiv sülh isə, sülhü təkcə müharibə və zorakılığın olmaması deyil, ədalətli, dinc və harmonik münasibətlər sistemi kimi mənalandırır.

**Cənubi Qafqaz regionu və Azərbaycan**

Bütövlükdə bəşəriyyətin yaratdığı dünya tarixən müxtəlif ideyaların və ideoloji sistemlərin daima bir-biri ilə mübarizələr apardığı gerçəkliklərdən başqa bir şey deyildir. Belə ki, beynəlxalq aləmin mövqeyini müəyyənləşdirən güc mərkəzlərinin öz maraqlarına uyğun olaraq bəzən sülhün, dialoqun, arxa plana keçirtmək cəhdlərini görürük.

Cənubi Qafqaz regionu da tarix boyunca yerləşdiyi ərazinin geosiyasi mövqeyi, Avropa, Asiya və Yaxın Şərqin qovuşma nöqtəsində mövcudluğu, mühüm enerji və kommunikasiya xətlərini birləşdirən yollara sahibliyi baxımından daima diqqətləri üzərinə toplamış və burada böyük güclərin öz istəklərinin təmin edilməsi baxımından xarici qüvvələrin maraq obyektinə çevrilmişdir. Xüsusən, Cənubi Qafqazın son yüzillik tarixinə nəzər salsaq, Rusiya, İran, Osmanlı imperiyası və digər iri dövlətlərin siyasi və mədəni izlərini öz üzərində daşıdığına şahid olarıq. Bu izlər Cənubi Qafqazın siyasi, mədəni, tarixi və ümumiyyətlə sonrakı regional inkişaf dinamikasına müsbət və mənfi təsirlər də göstərmişdir. Bəzən bu təsirlərdən irəli gələrək müəyyən fəsadlar da qaçılmaz olmuşdur.

Bu cəhətdən, Sovet Rusiyasının yaxın əsrlərdə regiona həlledici rola malik təsirlərini-təzyiqlərini misal göstərmək olar. Qeyd edək ki, bu və bu qəbildən olan digər məsələlərə Qərb tədqiqatçıları da xüsusi diqqət yetirir. Məsələn, M.V.Uşan yazır ki, kommunistlər qarşıya qoyulan məqsədlərə çatmaq üçün güc tətbiq etməyə hazır siyasi sistemləri ilə, gündəlik həyatın bütün sahələrinə sərt şəkildə nəzarət edirdilər [15. s. 45]. Bu və bu kimi digər məcburi və amiranə amillər də, öz növbəsində, fəlsəfənin də əsasını təşkil edən milli mənəvi dəyərlər sisteminə olduqca mənfi təsirlərini göstərmişdir. Fikrimizcə, mənəvi bazası zəif olan Sovetlər Birliyinin dağılmasına da, bu prizmadan baxmaq lazımdır. Eləcə də, düşünürük ki, Rusiyasının günümüzdə Cənubi Qafqaz regionunda nüfuzunu getdikcə itirməsi də, məhz elə vaxtı ilə bu bölgənin ənənəvi köklərə bağlı mənəvi dəyərlər sisteminə vurduğu ağır zərbələr ilə sıx şəkildə bağlıdır.

Digər tərəfdən yuxarıda qeyd olunan ölkələr arasında Azərbaycan öz geosiyasi çəkisi ilə, xüsusilə digərlərindən fərqlənir. İstər qonşu Gürcüstanla bərabər Xəzər və Qara Dəniz arasındakı mühüm enerji layihələrinin daşıyıcısı, istərsə də Rusiya və İranla birlikdə Şimal-cənub dəhlizinin, həmçinin bir sıra hərbi-siyasi blokların (NATO, KTMT) təmas xəttində yerləşməsi onun necə vacib bir rola malik olduğunun bariz göstəricisidir. M.Kamrava qeyd edir ki, 2000-ci illərdən başlayaraq, Azərbaycan bir tərəfdən Qərb arasındakı orta xətt boyunca mövqe tutan, digər tərəfdən, xüsusi ilə Avropa Birliyi və Türkiyə ilə təmsil olunan, eləcə də Rusiya və İranla ağıllı xarici siyasət nümayiş etdirir. Bu siyasəti daha balanslı ehtiyatlı praqmatizm xarici siyasəti kimi də dəyərləndirmək olar [13, s. 19].

Sovet İttifaqı dağıldıqdan sonra regionda müstəqil dövlətlərin formalaşması fonunda geosiyasi reallıq da əhəmiyyətli dərəcədə dəyişdi. Belə ki, təhlükəsizlik amili ilə bağlı hər bir dövlət müəyyən xəttə istinad etməyə başladı. Gürcüstan birmənalı olaraq NATO Təhlükəsizlik sisteminə, Azərbaycan isə həm NATO ilə əlaqələrini möhkəmləndirmək, həm də bölgədə nüfuzunu saxlayan Rusiya ilə tarazlı siyasət yeritmək istiqamətində addımlarını atmışdır. Qeyd etmək lazımdır ki, Rusiya, daha doğrusu bu ölkənin ziyalıları da, qeyd olunan tarazlı siyasətin əleyhinə deyil. Məsələn, Sankt-Peterburq Dövlət Universitetinin beynəlxalq münasibətlər üzrə araşdırmalar aparan əməkdaşı K.Y.Meşeryakov yazır ki, Rusiyanın Azərbaycan ilə münasibətlərdə öz hədəflərinə çatma metodlarına gəlincə, Rusiyanın Bakıya hər hansı bir şəkildə təzyiq göstərməyin yolverilməzliyini aydın şəkildə başa düşməsi lazımdır. Bu kimi addımlar mütləq şəkildə əks nəticə verəcək və dərhal ölkələrimiz arasındakı qarşılıqlı fəaliyyət miqyasının azalmasına səbəb olacaqdır. Əksinə, Moskva öz fəaliyyətlərinin ənənəvi olaraq praqmatizm və tərəfdaşları ilə güzəştə getmək istəyi üzərində quraraq, Azərbaycan hakimiyyət orqanlarının daxili və xarici siyasət sahəsindəki müxtəlif təşəbbüslərini daha fəal dəstəkləməlidir [6, s. 231].

Cənubi Qafqaz ölkələrinin dünyaya açılması üçün enerji, nəqliyyat və siyasi layihələrdə Azərbaycan və Gürcüstan imkanlar yaratsa da, regionun digər dövləti olan Ermənistan isə əksinə, Azərbaycan torpaqlarını işğala məruz qoyması, soydaşlarımızın öz doğma yurdlarından didərgin salınması, bir milyondan çox vətəndaşın məcburi köçkünə çevrilməsi, işğal olunmuş ərazilərimizdə separatçı rejimin qurulması, eyni zamanda Gürcüstan və Türkiyəyə qarşı ərazi iddiaları ilə çıxış etməsi, Böyük Ermənistan xülyası və bu səbəbdən özünü təcrid etməsi ilə bölgədə sülh və əməkdaşlıq, təhlükəsizlik amilini açılmaz bir düyünə çevirmişdir. V.Qurbanov yazır ki, erməni ideologiyasındakı düşmən konsepsiyası, Böyük Ermənistana çatma yolunda əsas amil kimi məhz anti-türk baxışlarına əsaslanır [12, s. 23]. Bu kimi əsassız konsepsiyalar isə, ilk öncə Cənubi Qafqaz regionundakı sülhə böyük zərbə vurur. Konfliktləri isə əksinə, süni şəkildə qidalandırır. Eləcə də, müasir dünyanın inkişafında əsas katalizator rolu oynayan iqtisadiyyata da mənfi təsir göstərir. Qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycan ilə siyasi cəhətdən əməkdaşlıqdan boyun qaçırması, birbaşa bu ölkənin öz iqtisadiyyatına da ciddi şəkildə

zərbə vurur. Bu və bu kimi əsassız iddiaları Ermənistanın Cənubi Qafqaz regionunun iqtisadi inteqrasiyasına əngəllər törədir. Bu əngəllər isə, ümumiyyətlə Cənubi Qafqazda işlək iqtisadi modellərin qurulmasına da mane olur. Bu məsələlərə əksər Qərb tədqiqatçıları da xüsusi olaraq diqqət yetirir. Məsələn regional konfliktlərin iqtisadi əlaqələr və biznes sahələrinə neqativ münasibətlərini tədqiq edən D.Svitmen yazır ki, siyasi iş birliyinin olmaması, Azərbaycan və Ermənistanın müəssisələri arasında sərhədyanı əməkdaşlığı mümkünsüz edir. Şirkətlərin ticarətdə iştirak etməsindən əvvəl onlar arasında ticarət üçün siyasi fürsətlərin yaradılması çox vacibdir [16, s. 30].

BMT-nin qəbul etdiyi 4 qətnamənin həyata keçirilməməsi, Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə kömək etmək məqsədilə 1994-cü ildə yaradılmış ATƏT-in Minsk qrupunun münaqişənin həlli yolunda heç bir ciddi addım atmaması, danışıqlar prosesinin uzadılması və münaqişənin dondurulmasına yönəlmiş fəaliyyət sərgiləməsi suveren hüquqlarımızın kobud şəkildə pozulması və müəyyən maraqların olmasını göstərmək lazımdır. Azərbaycan prezidenti İlham Əliyev dəfələrlə mötəbər kürsülərdən çıxış edərək Azərbaycanın haqq səsini dünyaya çatdırmış, torpaqlarımızın güzəşt mövzusu olmayacağı, eyni zamanda münaqişənin dinc yolla həll edilməsinə tərəfdar olduğunu dilə gətirməsi əxlaqlı siyasətin tərəfdarı olduğunun göstəricisidir. Dünya ölkələrinin də hazırda etiraf etdikləri həqiqətlərdən biri bundan ibarətdir ki, sülh və əməkdaşlıq qarşılıqlı yanaşma prinsipləri müstəvisində dünya harmoniyaya, sabitliyə nail ola bilər. Azərbaycan xalqı da daima qonşularına qarşı öz humanist münasibəti ilə sülh və dostluğu sevən mövqe tutmağı ilə fərqlənmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 13 aprel 2021-ci il tarixində ADA Universitetində keçirilən Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq adlı beynəlxalq konfransda bununla bağlı demişdir: *Biz Azərbaycanda yaşayan bütün millətlərin birliyinin şahidi olduq. Bu da bizim ən böyük sərvətlərimizdən biridir. Bir çox hallarda multikulturalizm və mədəni müxtəliflik mövzusunda beynəlxalq tədbirlər zamanı mən həmişə qeyd edirdim ki, Azərbaycanın ən böyük sərvətlərindən biri multikultural və multikonfessiyalı cəmiyyətin olmasıdır. Azərbaycanda müxtəlif etnik qruplardan ibarət xalqımızın Vətən sevgisi, vahid dil və dövlətçilik naminə güclü konsolidasiyası baş verdi. Mən bundan fərəhləndim və bu gün də fəxr edirəm ki, biz belə vətəndaşlar tərbiyə etmişik* [17].

Təcavüzə məruz qalan tərəf olmasına, işğal olunmuş ərazilərindən 1 milyona qədər əhali öz torpağında qaçqın vəziyyətinə düşməsinə baxmayaraq Azərbaycanın mövqeyi daima təqdirəlayiq olmuşdur [1, s. 164]. Sülh naminə Tərəfdaşlıq Proqramına qoşulan dövlətimiz münaqişənin dinc vasitələrlə beynəlxalq norma və prinsiplərə dayanaraq, sülh yolu ilə həllinə tərəfdar olduğunu vurğulayaraq bu istiqamətdə addımlar atsa da, təcavüzkar Ermənistan hakimiyyəti tamamilə əks mövqe nümayiş etdirmişdir.

1994-cü ildən atəşkəs rejimi elan olunsa da düşmən tərəf buna əməl etməmiş, dəfələrlə təxribata əl atmışdır. Həmçinin, işğal olunmuş ərazilərimizdə yaradılmış qondarma Dağlıq Qarabağ Respublikası, Ermənistan daxil olmaqla heç bir ölkə tərəfindən tanınmamışdır. Heydər Əliyev hakimiyyətə gəlişi ilə müvəqqəti atəşkəs rejiminin razılaşdırılmasının, problemin dinc vasitələrlə səmərəli həllinə nail olması üçün silahlı qarşıdurmaların dayandırılmasının vacibliyini müdrikliklə dərk etmişdir. H.Əliyevin bu siyasəti prezident İ.Əliyev tərəfindən layiqli şəkildə davam etdirilərək öz hədəflərinə çatmışdır. Azərbaycan bütün istiqamətlərdə özünün potensialını artırmaqla, danışıqlar masası arxasında öz maraqlarını təmin edəcək bir razılığa gəlməyə çalışırdı. İ.Əliyev beynəlxalq hüquq normalarına sadiqlik nümayiş etdirir, həmçinin, mövcud vəziyyəti doğru şəkildə dəyərləndirməklə, sülh və danışıqlar vasitəsilə nəticələr əldə olunması istiqamətində səylər göstərirdi. Danışıqlar çərçivəsində bir çox irəli sürülmüş təkliflər zamanı işğal olunmuş 7 rayonun Azərbaycana qaytarılması fikri söylənilirdi [3, s. 184]. Azərbaycan rəhbərliyinə bunu qəbul etdirmək mümkün olmadı. Ermənistan hakimiyyətinin qeyri-

adekvat addımları və bəyanatları baş verə biləcək hadisələr üçün bir növ zəmin hazırlayırdı. Bunların ən bariz nümunələrindən biri 2016-cı ildə baş vermiş aprel döyüşləri olmuşdur. Düşmən genişmiqyaslı hərbi təxribat hazırlamış, lakin bu təxribatın qarşısı güclü ordumuz tərəfindən vaxtında alınmış, eyni zamanda əks-hücum əməliyyatları zamanı bir çox vacib yüksəkliklər və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi düşməndən azad edilmişdir. Ermənistanda baş verən siyasi proseslər mövcud vəziyyəti düzgün qiymətləndirməyən baş nazir N.Paşinyan hakimiyyəti ələ keçirməsi ziddiyyətlərin daha da dərinləşməsinə səbəbiyyət verdi. O, ilk addım olaraq Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün irəli sürülmüş Madrid prinsiplərin dən imtina etdi. Həmçinin yeni ərazilər ələ keçirmək və status kvonu daimi olaraq saxlamaq məqsədi güdən tutarsız hərəkətlər və qıcıqlandırıcı fikirlər Azərbaycan siyasi rəhbərliyinin, eləcə də xalqın kəskin etirazına səbəb olurdu. Yola saldığımız ilin iyulunda isə Tovuz rayonu istiqamətində hücum etməyə çalışan düşmən hücumunun qarşısı ordumuz tərəfindən alınmışdır. Bu döyüşlər zamanı ön xətdə olan Azərbaycan ordusunun generalı Polad Həşimovun şəhid olması xalqın səbrinin son damlasını da daşdırdı. 14 iyul 2020-ci ildə baş verən bu hadisə zamanı xalq orduya dəstək mitinqi keçirdi, xalqın illər ərzində içinə həbs etdiyi daxili harayı, milli birliyi, döyüş ruhu özünün ən yüksək həddinə çatdı. 2020-ci il sentyabrın 27-də Ermənistanın yeni hücum cəhdi ilə başlanan və Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük müharibə geosiyasi mənzərənin və bölgədəki münasibətlər sisteminin yeni bir mərhələyə qədəm qoymasına səbəb oldu. Azərbaycan Respublikası bu problemi beynəlxalq hüquq və ədalət prinsiplərinə uyğun olaraq, həm də ümumilikdə regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsi istiqamətində fəaliyyət göstərərək həll etdi. Bu tarixi zəfər Azərbaycanın ədalətli qalibiyyəti idi. Onun əldə olunması bütün daxili qüvvələrin birliyi, milli vəhdətin hesabına, ölkə başçısının Xalq və Orduya güvəni, xalqın isə, dövlət başçısını və Ordunu müdafiə etməsi, onun ətrafında sıx birləşməsi sayəsində mümkün oldu. Müharibə gedişatında daima öz siyasi etikasına sadiq olan Azərbaycan Respublikasının prezidenti İ.Əliyev müxtəlif xarici telekanallara və media nümayəndələrinə verdiyi müsahibələr zamanı deyirdi: Biz Qarabağ ərazisində yaşayan ermənilərə öz vətəndaşlarımız kimi baxırıq və onların təhlükəsiz yaşayışı üçün bütün imkanları yaratmağa hazırıq. Ermənistanın havadarlarına və onların qərəzli yanaşmalarına, ünvanladıqları suallara tutarlı cavablar vermiş, xarici təzyiqlərə qarşı siyasi iradə nümayiş etdirmişdir. Daima qanunsuz yollara əl atan, mülki insanları hədəf almaqdan çəkinməyən erməni xisləti bu müharibə ərəfəsində də özünü açıq şəkildə büruzə verdi. Gəncə, Bərdə kimi döyüş bölgəsindən uzaqda yerləşən şəhərlər atəşə tutulmuş, qadın və uşaqlarda daxil olmaqla onlarla insan şəhid olmuşdur.

Vətən müharibəsi adlandırılan 44 günlük müharibə insanların zehnində və həyat fəlsəfəsində köklü dəyişikliklərə səbəb oldu. Ordu və bayraq sevgisi, qalibiyyət ruhu düşüncələrə və qəlblərə həmişəlik həkk olundu. Qələbənin əldə olunmasında savaş və siyasi meydanda göstərilən əzm, Ordu və prezident, xalq dəstəyinin rolu xüsusi vurğulanmalıdır. Dövlət başçısı uzun illər zəfərə susamış xalqın milli iradəsinin, güc və enerjisinin qələbəyə yönəldilməsinə nail oldu. Ermənistanın öz ordusunun gücü, erməni lobbisi haqqında yaratdığı mif tamamən havaya sovruldu. Mənfur düşmən döyüş meydanında hərətəfli məğlubiyyətlə üz-üzə qalmağa məcbur oldu. İşğal etdikləri tarixi Azərbaycan torpaqlarında toponimləri dəyişən, abidələrimizi, tarixi və mədəni irsimizi, məscidlərimizi vandalizmə məruz qoyan düşmənin xain niyyətinin arxasında kirli planlar dayanırdı. Təsadüfi deyil ki, Azərbaycanın çox etnik və multikultural xüsusiyyətləri, Qarabağ bölgəsində və ona bitişik bölgələrdə, o cümlədən məscidlər, kilsələr, monastırlar və ibadətgahlar da daxil olmaqla, bütün dini irsi əks etdirən əsərlərin 1992-ci ilə qədər qorunmasına imkan yaratdı. Qarabağ ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən işğal

edildikdən sonra, Ermənistanın bölgənin mədəni kimliyini qəsdən ləğv etməyə yönələn siyasəti nəticəsində 63 məscid tamamilə, 4-ü isə, qismən dağıdıldı [8, s. 108].

**Azərbaycan Cənubi Qafqazda sülh və əməkdaşlıq təminatçısı kimi**

Region vahidliyi olan və ona daxil olan elementlərinin sıx bağlılığı olan müəyyən bir ərazidir. Belə ki, əgər Cənubi Qafqaza bir sistem kimi yanaşsaq sistemin davamlı və dayanıqlı inkişafı üçün onu təşkil edən elementlərin bir-birilə sıx bağlılığı olmalıdır. Sıx bağlılıq isə əməkdaşlıq şəraitində mümkündür. Belə ki, əməkdaşlıq dedikdə qarşılıqlı sürətdə faydalanmaq, təklif və məhdudiyyətləri könüllü qəbul etməyi nəzərdə tutulur. Əməkdaşlıq milli dövlətlər tərəfindən ortaq gözləntilərə və maraqların üst-üstə düşməsinə səbəb olan ümumi problemlərin və vəzifələrin mövcudluğunun ən baza səviyyəsində olmasını tələb edir. Beləliklə, əməkdaşlıq tərəflərin ümumi məqsədə nail olmaq üçün həyata keçirdikləri könüllü aktdır. Əməkdaşlıq isə öz növbəsində inteqrasiya anlayışını meydana çıxarır. İnteqrasiya – müasir dünyada ölkələrin təsərrüfatlarının obyektiv birləşmə prosesidir. İnteqrasiya olunmuş cəmiyyətdə inteqrasiya iştirakçıları arasındakı maraqlar və dəyərlər birliyinin artması görünməlidir. Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin, tərəfdaşlıq münasibətlərinin daha geniş tətbiq edilməsi, inkişafın bərqərar olunması istiqamətində atılan addımları məhz inteqrasiya və əməkdaşlığa yönəlmiş proseslər kimi qiymətləndirmək olar. Belə ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya, Ermənistan arasında imzalanan üçtərəfli bəyanatla 30 ilə yaxın davam edən münaqişə başa çatdı. Bəyanatdan sonra baş verən hadisələrin gedişatı göstərir ki, Azərbaycan tərəfi anlaşmanın yerinə yetirilməsi üçün bütün səylərini ortaya qoyur. Bunu əməkdaşlıq prinsiplərinə sadiq olan davranışları ilə nümayiş etdirir. Belə ki, Ermənistan tərəfi Kəlbəcər ərazisindən erməni silahlı qüvvələrinin çıxarılması üçün əlavə olaraq 10 gün vaxt istədikdə, rəsmi Bakı onların bu istəyinə müsbət cavab vermişdir. Lakin bunun müqabilində qarşı tərəf qeyri-adekvat addımlara yol vermiş, ağacları qırmış, ekoloji terrora əl atmışdır. Azərbaycanın xoşməramlı addımlarından digəri isə, bəyanatın 8-ci maddəsində nəzərdə tutulduğu kimi, əsir və girovların geri qaytarılması zamanı sayca daha çox girovun və cəsədlərin geri verilməsi olmuşdur. Məsələ bununla da məhdudlaşmamışdır. Müqayisəli təhlil aparsaq görərik ki, yaranmış yeni sərhəd demorkasiyasına əsasən Azərbaycan əks tərəfin vətəndaşlarının Gorus-Qafan yolundan istifadə etməsinə heç bir maneə yaratmadığı halda, digər tərəf bu yolun Azərbaycana aid olan hissəsində yol nişanlarını dağıtmaq kimi təxribatçı hərəkətlərə əl atmışlar.

Təbii ki, bu cür addımlar mövcud vəziyyəti daha da gərginləşdirmək və düşmənçiliyi dərinləşdirməkdən başqa, sülhün bərqərar olmasına əngəl yaradır. Digər bir tərəfdən, Azərbaycan Rusiyalı sülhməramlılara nəzarət elədikləri ərazilərdə olan erməni əhaliyə humanitar yardım göstərmək icazəsi verib. Qış fəslinin çətinliklərini nəzərə alaraq bəzi məhsullar dəmir yolu vasitəsilə Bərdə şəhərinə, oradan da avtomobil yolu ilə Qarabağa çatdırılmışdır. Halbuki prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycan tərəfi bunu etməyə heç bir şəkildə borclu deyil. Təəssüf ki, Ermənistan tərəfindən hələ də bu həssas vəziyyəti pozmaqda maraqlı olan irredentist qüvvələr vardır. Bu hadisələr, şübhəsiz ki, Cənubi Qafqazda sülh və təhlükəsizlik amilinin yaranmasına maneə törədir. Yaxşı nəticələr isə yalnız qarşı tərəfin Azərbaycanın suveren haqlarına hörmət etməsi yolu ilə mümkün ola bilər.

2021-ci il yanvarın 11-də Azərbaycan, Rusiya və Ermənistan dövlət başçılarının Moskvada növbəti üçtərəfli bəyanatı imzalandı. Bununla regionda dinc həyatın və iqtisadi inkişafın təmin olunması istiqamətində mühüm bir addım atıldı. Moskva bəyanatının ən vacib nəticələrindən biri Mehri dəhlizinin açılması hesab edilməlidir ki, məhz bu vəsilə ilə qardaş ölkə Türkiyəyə Naxçıvan vasitəsilə birbaşa dəmiryolu xətti təmin olunması nəzərdə tutulmuşdur. Həmçinin Azərbaycan-İran dəmiryolu və avtomobil yollarının

birləşdirilməsi, Araz çayı üzərində hidroqovşaqların yaradılması və nəzərdə tutulan digər mühüm layihələr qarşılıqlı olaraq tərəflərin iqtisadi maraqlarına xidmət edir. Nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Ermənistan, Rusiya, Türkiyə, İran və digər region ölkələrinin mənafeyinə uyğundur. Ümumi şəkildə dəyərləndirsək, istər 10 noyabr bəyanatı, istər 11 yanvar Moskva bəyanatı əslində Cənubi Qafqazda yeni münasibətlərin, regional əməkdaşlığın, regional inteqrasiyanın formalaşmasına doğru atılmış önəmli addımlardır. Eyni zamanda Rusiya və Türkiyənin müştərək olaraq yaratdığı Monitorinq Mərkəzi bölgədə təhlükəsiz və daha ədalətli münasibətlər sisteminin qurulmasına dair inam hissi yaradır. Mərkəz yanvarın 30-da 2021-ci il işğaldan azad edilmiş Ağdam şəhərində yaradılmışdır. Siyasi cəhətdən düzgün tənzim edilən bu kimi əməkdaşlıqlar isə, Cənubi Qafqaz regionu, eləcə də Azərbaycanın gələcək inkişafı üçün olduqca vacibdir. Türkiyənin Cənubi Qafqaz regionunda fəaliyyətinin artması birmənalı olaraq Azərbaycanın mənafeyinə uyğundur. A.Ergün yazır ki, bu proseslər həm də Türkiyənin adı gedən bölgədəki rolunu gücləndirmək və təhlükəsizlik sahəsində daha çox görünən oyunçu olmaq qabiliyyətinin də bir növ sınağdan keçirilməsidir. Gələcəkdə də Cənubi Qafqazdakı güc tarazlığı böyük ölçüdə Rusiya ilə Türkiyə arasındakı münasibətlərin xarakteri ilə müəyyən ediləcəkdir [10, s. 130]. Fikrimizcə, uzun illər Rusiyanın arxa qapısı olan Cənubi Qafqazda Türkiyə amilinin meydana çıxması, regional əməkdaşlığın, bu əməkdaşlıqdan törəyəcək siyasi-etik aspektlərin daha uğurlu inkişafına öz müsbət təsirini göstərəcəkdir.

Müharibədən sonra ötən ilin dekabr ayında baş tutan Zəfər paradından sonra Türkiyənin dövlət başçısı R.T.Ərdoğan və Azərbaycan prezidenti İ.Əliyev 6 region ölkənin birgə iştirak edəcəyi çoxtərəfli əməkdaşlıq platformasının yaradıla biləcəyi haqqında təkliflərini irəli sürmüşlər.

Həyata keçirilən bu müsbət hadisələr fonunda-bütün kommunikasiyaların açılması, yeni əməkdaşlıq platformalarının yaradılması region ölkələrinin hər birinin xoş niyyətindən və qarşıya qoyulmuş öhdəliklərə sadiq olmasından əhəmiyyətli dərəcədə asılıdır. Ermənistan, digər Qafqaz ölkələri kimi yeni əməkdaşlıq əlaqələrinə açıq olmalı, düşmənçilikdən və qonşularına olan ərazi iddialarından uzaq durmalı, öz tarixinin qaranlıq səhifələrini bağlamaqla irredentist fikirlərdən kənarlaşmağa hazır olmalıdır.

Müharibədən sonra siyasi çaxnaşma və qarşıdurmalar, iqtisadi fəlakət və hərbi avantüranın yaratdığı məğlubiyyətlə üz-üzə qalan Ermənistan və erməni xalqı üçün imzalan bəyanatlar baxımından yeni imkanlar yaranıb. Bu imkanları doğru dəyərləndirib-dəyərləndirməyəcəyi isə onun öz əllərindədir. 1992-ci ildə baş verən Xocalı faciəsi, torpaq itkisi, köçkün həyatı, verdiyi qurbanlar səbəbi ilə Azərbaycanın yaraları hələ sağalmayıb. Bütün bunlara baxmayaraq, öz öhdəsinə düşəni yerinə yetirməyə, sülhün təmin edilməsi üçün lazımi çətin addımları atmağa hazır olduğunu göstərir. Hətta İ.Əliyev təkcə sülh deyil, davamlı sülh və gələcək barışıq, vətəndaş cəmiyyətləri arasında dialoq çağırışları, gələcək iqtisadi əməkdaşlıq kimi ifadələrin işlətməsi ilə nə dərəcədə siyasi etikaya malik olmasını göstərir.

Hal-hazırda istər siyasi rəhbərliyin tutarsızlığı, istərsə də bəzi qüvvələrin şovinist əhval-ruhiyyəsi, qisasçılıq prinsipləri ilə çıxış etmələri Ermənistan üçün bu əməkdaşlıq əlaqələrinə hansı formada yanaşılacağı haqqında fikir söyləməyin bir qədər zaman işi olduğunu göstərir.

## Nəticə

Ümumi nəticəyə gələrək qeyd etməliyik ki, postmünaqişə mərhələsində ən böyük siyasi-etika ədalət konsepsiyasının, sosial harmoniyanın və dinc yanaşı yaşayışın mümkünlüyünün vurğulanmasıdır. Yəni ədalət münaqişənin bütün tərəfləri üçün məqbul olan ümumi dəyərlərin və ümumi etik normaların bərqərar edilməsinə əsaslanır. Əgər Cənubi

Qafqaz regionunda inkişaf, sülh, əmin-amanlıq, əməkdaşlıq istənilirsə burada artıq Ermənistan öz məkrli niyyətindən əl çəkməli və bu regionun ayrılmaz bir elementi olduğunu başa düşməlidir. Çünki Ermənistanın daima bu siyasi davranışları nəticəsində Azərbaycanla arasında münasibətləri heç vaxt ümidverici olmayıb və olmamağı da təbiidir. Ermənistanın Azərbaycana yersiz torpaq niyyətləri Azərbaycan Ermənistana qarşı iqtisadi embarqo qoymuş, rəsmi olaraq Ermənistanla Azərbaycan arasında ticarətdə qarşılıqlı əlaqəsi olmamışdır.

Cənubi Qafqazda digər dövlətlərin maraqlarının toqquşması bölgənin əhəmiyyətini artırmaqla yanaşı, siyasi proseslərin bir qədər gərginləşməsinə təsir göstərir. ABŞ, Fransa kimi bölgədə müəyyən söz sahibi olan ölkələr artıq Azərbaycanın yaratdığı yeni geosiyasi vəziyyət, Türkiyə və Rusiyanın birgə hərəkət etmələri nəticəsində proseslərdən kənar qalmışlar. Mövcud reallıq onu sübut edir ki, Qafqazda sülhün bərqərar olması o qədər də əlçatmaz bir arzu kimi qəbul edilməli deyil. Cənubi Qafqazdakı postsovet ölkələrinin, eləcə də siyasi çəkisi artmaqda davam edən Türkiyə və müharibədən qələbə ilə çıxmış Azərbaycanın, həmçinin yeni nizama ayaq uydurmağa çalışan İran hökumətinin bu arzunu gerçəkliyə çevirmələri indi əvvəlkindən daha real və mümkün görünür. Sülh və əməkdaşlıq istiqamətində birgə hərəkət etmək, köhnə yaraları sağaltmaq üçün əldə olan fürsəti düzgün dəyərləndirməyin ən doğru vaxtı hazırkı zaman ola bilər.

## ƏDƏBİYYAT


1. Əsədov E. Qloballaşma şəraitində müharibə və sülh problemi, Bakı: Elm, 2014, 220 s.
2. Rüstəmova A. Müasir dünya və Azərbaycan reallıqları fəlsəfi təhlil, Bakı: AfpoliqrAF, 2017, 234 s.
3. Tağıyev Ə., Seyidov M. Siyasət nəzəriyyəsi, Bakı: Elm və təhsil, 2012, 225 s.
4. Zeynalov Ş. Dialoq mədəniyyəti və müasirlik, Bakı: Avropa, 2020, 329 s.
5. Анцупов А. Я., Шипилов А. И. Конфликтология. М.: Эксмо, 2011, 512 с
6. Мещеряков К.Е. Внешняя политика России на Южном Кавказе: Проблемы и тенденции развития, пути модернизации с целью повышения эффективности. Санкт-Петербург: Скифия-принт, 2012, 242 s.
7. Фельдман Д. М. Политология конфликта. М.: Стратегия, 1998, 287 с.
8. Alyarli J. and Abbasova A. Assessing Damage Caused by Illegal Activities of Armenia to Azerbaijan in the Liberated (Formerly Occupied) Territories / Caucasus strategic perspectives Vol.1, No.2, Winter 2020 / Armenia and Azerbaijan: Between Failed Peace and War, s. 93-115.
9. Boulding K. Conflict and Defens. A General Theory. New York. 1961, 421 pp.
10. ErgunA. Turkey’s Presence, Involvement and Engagement in the Armenia-Azerbaijan Conflict: A Reflection on Azerbaijani–Turkish Relations / Caucasus strategic perspectives Vol.1, No.2, Winter 2020 / Armenia and Azerbaijan: Between Failed Peace and War, s. 123-130.
11. Davies-Vengoechea X. Positive Concept of Peace / Keeping the Peace. Conflict Resolution and Peaceful Societies Around the World / Edited by Graham Kemp and Douglas P.Fry.New York: Routledge, 2005, s. 9-15.
12. Gurbanov V. The role of ideology in mass atrocities: The case of the conflict between Armenia and Azerbaijan / Caucasus strategic perspectives Vol.1, No.2, Winter 2020 / Armenia and Azerbaijan: Between Failed Peace and War, s. 11-34.
13. Kamrava M. The great game in West Asia / The Great Game in West Asia. Mehran Kamrava (ed.) Oxford: Oxford University Press, 2016, s. 1-28.
14. Kemp G. The Concept of Peaceful Societies / Keeping the Peace. Conflict Resolution and Peaceful Societies Around the World / Edited by Graham Kemp and Douglas P.Fry. New York: Routledge, 2005, s. 1-8.

15. Uschan Michael V. The South Caucasus: Then and Now. San Diego: Reference Point Press, Inc, 2015, 80 s.
16. Sweetman Derek. Conflict Resolution and Peacebuilding Contributions from the private sector to address violent conflict.Abingdon: Routledge, 2009, 151 s.
17. https://president.az/news/events, 13 aprel, 2021

***Summary***

***Vusala Gulmalieva***

***Political and Ethical Aspects of Regional Cooperation in the South Caucasus in the Post-Conflict Phase***

The article shows that conflicts are inevitable in public life. Thus, it is widely accepted that conflicts are an integral part of any society. Therefore, at this stage, the idea is not to create a conflict-free society, but to eliminate the conflicts that inevitably arise in society. The article shows that in addition to the causes of conflicts and contradictions, it is more expedient to develop mechanisms for their resolution, optimal, alternative options. It is also noted that the economic and geographical position of the South Caucasus region, its natural conditions and rich resources have always attracted the interest of foreign forces, and attempts have been made to create certain conflicts here. The article discusses the Karabakh conflict, one of the most important conflicts for the development of the region. The occupation of Azerbaijani territories by Armenians with their fictitious claims means robbery, occupation of the territory of a neighboring state, violation of international law. As a result of military operations, a large area, 20 percent of Azerbaijan's territory, is occupied by the Armenian armed forces, thousands of people are killed, hundreds are taken hostage and more than 1 million people become refugees. We note the continuous and intense efforts of President Ilham Aliyev to resolve this conflict, which began with the signing of a ceasefire agreement on May 12, 1994 by our national leader Heydar Aliyev. Occupying Armenia's violation of the peace process, frequent provocations on the line of contact and firing on civilians exhausted the patience of the Azerbaijani people and as a result of the counter-offensive launched by the Azerbaijani Army on September 27, 2020 against the occupying Armenian armed forces. The historical victory of the ancestral lands, which were liberated after about 30 years, is widely commented on. It is emphasized that the way to achieve peace, development and prosperity in the South Caucasus region is possible only in the conditions of integration, cooperation and peace between the states located in this area. It is shown that the settlement of the Karabakh conflict plays a key role in guaranteeing stability in the South Caucasus.

**Key words:** *conflict, war, peace, cooperation, political ethics*

***Резюме***

***Вусала Гульмалиева***

***Политические и этические аспекты регионального сотрудничества на Южном Кавказе в постконфликтный период***

В статье показано, что конфликты в общественной жизни неизбежны. Таким образом, широко признано, что конфликты являются неотъемлемой частью любого общества. Поэтому на данном этапе идея заключается не в создании бесконфликтного общества, а в устранении конфликтов, которые неизбежно возникают в обществе. В статье показано, что помимо причин конфликтов и противоречий целесообразнее разрабатывать механизмы их разрешения, оптимальные, альтернативные варианты. Отмечается также, что экономико-географическое положение региона Южного Кавказа, его природные условия и богатые ресурсы всегда привлекали интерес иностранных сил, и здесь делались попытки создать определенные конфликты. В статье рассматривается карабахский конфликт, один из важнейших конфликтов для развития региона. Оккупация азербайджанских территорий армянами с их фиктивными претензиями означает грабеж, оккупацию территории соседнего государства, нарушение международного права. В результате боевых действий большая территория, 20 процентов территории Азербайджана, оккупирована вооруженными силами Армении, тысячи людей убиты, сотни взяты в заложники, более 1 миллиона человек становятся беженцами. Мы отмечаем постоянные и активные усилия президента Ильхама Алиева по урегулированию этого конфликта, которые начались с подписания 12 мая 1994 года соглашения о

прекращении огня нашим общенациональным лидером Гейдаром Алиевым. Нарушение оккупацией Арменией мирного процесса, частые провокации на линии соприкосновения и стрельба по мирному населению истощили терпение азербайджанского народа и в результате контрнаступления, начатого 27 сентября 2020 года азербайджанской армией против оккупирующей армянской вооруженной Широко комментируется историческая победа вотчин, которые были освобождены примерно через 30 лет. Подчеркивается, что путь к достижению мира, развития и процветания в регионе Южного Кавказа возможен только в условиях интеграции, сотрудничества и мира между государствами, расположенными в этом регионе. Показано, что урегулирование карабахского конфликта играет ключевую роль в обеспечении стабильности на Южном Кавказе.

**Ключевые слова:** *конфликт, война, мир, сотрудничество, политическаяэтика*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Məmmədov Əziz Bəşir oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

## TARİX VƏ SİYASİ ELMLƏR

## UOT: 327

# IRAN'S ROLE IN ENSURING ARMENIA'S ENERGY SECURITY

**Elnur KELBİZADEH***

*Məqalə redaksiyaya daxil olmuşdur: 29 may 2021; çapa qəbul edilmişdir: 19 iyul 2021; online-da çap edilmişdir:30 sentyabr 2021.*

*Received: 29 th May, 2021; accepted: 19 th Jule, 2021; published online: 30 th September , 2021.*

**Keywords:** *Armenia, Iran, Caucasus policy, energy, security, cooperation*

## Introduction

In modern times, the energy security of countries is considered not only economic but also one of the key elements of political, military, and social security. It is known that in the world's energy geopolitics, countries are divided into two groups: energy-rich and energy-deficient countries (14, p. 14-31). If such a classification is accepted as the basis, it is possible to include Armenia in the list of countries suffering from the shortage of traditionally non-renewable energy resources, and Iran in the list of countries with the richest of these resources. This is the main feature of energy diplomacy between the two countries. Approaching rich hydrocarbon resources in the context of resource nationalism[1] (17, p. 5) Iran seeks to change the rules of the energy game as it sees fit in the interests of the nation-state and to use energy opportunities to achieve foreign policy goals in the Caucasus. Armenia is trying to use the power factor (the conception of electric energy) in energy diplomacy to compensate for this advantage of Iran. This is not a great tool of influence against Iran. However, geopolitical processes and factors determine the cooperation between the two countries in the field of energy security. The most important areas of cooperation between the two countries in the field of energy security include the export of Iranian hydrocarbon resources to Armenia, as well as transit transportation of energy resources_through this country, joint production, and exchange of electricity. Energy security is one of the most important and effective issues of the national security of Armenia as a whole.

Excluding the country's hydropower and nuclear power plants, Armenia is deprived of its main energy resources – oil and gas. This point makes energy security a priority. The passage of fuel pipelines from Russia to Armenia through dangerous and ethnic separatist regions of Georgia is increasing Iran's importance in this area, making it an important alternative to the security of Armenia's energy supply (8, p. 100)

It should be noted that Iran has three scenarios for gas exports to Europe: The first of them is the Iran-Turkey-Europe route. This route has not been possible for a long time due to the possibility of Turkish-US allied relations. On the other hand, Iran's view of Turkey as a regional rival discourages the Islamic Republic from supporting projects that

* *Associated Professor, The İnstitute of Caucasus Studies of ANAS.*
e-mail: kelbizadeh@gmail.com

[1] Resource nationalism is the tendency of people and governments to assert control over natural resources located on their territory. As a result, resource nationalism conflicts with the interests of multinational corporations. (Source: Wikipedia.org)/

will serve to strengthen Turkey and make it an important hub for energy lines. The second route is Iran-Iraq-Syria-Lebanon-Europe. This direction passes through quite dangerous areas. Iraq, Syria, and Lebanon are unstable countries where terrorist groups are widespread. One of the goals of the idea of creating a Shiite crescent in Iran's Middle East policy is to create a security zone for the export of hydrocarbon resources. The third route is Iran - Armenia - Georgia - Europe.

Taking all this into account, it is possible to identify four areas of Iran-Armenia cooperation in the field of hydrocarbon resources and energy security after 1991:

- ✓ Cooperation in the field of liquefied gas sales from the Islamic Republic of Iran to Armenia in the period before the construction of natural gas pipelines;
- ✓ Attempts to export Iranian natural gas to Armenia and European countries via the Armenia-Georgia-Black Sea route;
- ✓ Electricity exchange and transit;
- ✓ Organization of joint use of hydropower resources of border waters (Aras River).

## I. Purchase and Sale of Natural Gas and Cooperation in the Field of Transit: Opportunities and Threats

Back in 1992, Armenia and Iran signed an agreement on the construction of a natural gas pipeline. However, due to serious economic and financial difficulties during this period, both sides needed foreign financial support. Although the $ 120 million natural gas pipeline was expected to be completed in 1995, there were some technical and financial problems. The construction work could not be completed on time. The pipeline, with a capacity of 1 billion m3 of natural gas per year, was expected to be 141 km long. 100 km of it would pass through Iran and 41 km through Armenia (2, p.158).

Another agreement on the construction of the Iran-Armenia gas pipeline was signed in 1995. Two years later, the two countries signed an agreement for transport Iranian gas. According to the agreement, 1 million cubic meters of gas will be delivered to Armenia annually for 15 years. However, due to the lack of sufficient financial credit, the project could not be fully implemented at that time (1, p. 208). This project has remained on paper for the first ten years after Armenia's independence.

XXI əsrin ilk illərində yenə də, rus mənbələrinə görə, İnquşetiyada zorakılıq hallarının sayı azaldı [11], [14], eyni zamanda qonşu Çeçenistandakı üsyanın İnquşetiyaya da keçdiyi qeyd edilirdi. Üstəlik, üsyan iştirakçıları iki əsas qrupa parçalandı: millətçilər və cihadçılar. İki düşərgə arasında fərq bundadır ki, millətçilər Rusiyanı düşmən kimi görürlər və məqsədləri, özlərinin dediklərinə görə, İçkeriya Çeçen Respublikasının (İÇR) yaradılmasıdır. Cihadçılar isə bütün qeyri-müsəlman kafirlərə qarşı, özü də təkcə Çeçenistanda yox, başqa yerlərdə də döyüşürlər. İslamçıların son məqsədi Qafqaz əmirliyi yaratmaqdır.

İki qrupun rəsmi parçalanması 2007-ci ildə, İÇR-in keçmiş separatçı prezidenti, hazırda isə Şimali Qafqazdakı islamçı qiyamın lideri Doku Umarovun bəyanatından sonra baş verib. O bəyan etdi ki, Çeçenistanın müstəqilliyi artıq onun əsas məqsədi deyil və o,

özünü Qafqaz əmirliyinin əmiri olduğunu bəyan edir. Qafqazda ən populyar cihadçı, internet saytı olan Kavkaz Sentrin redaktoru Movladi Uduqov isə deyib ki, çeçenlər qlobal xilafətin bərqərar olması uğrunda vuruşmalıdırlar.

Birinci çeçen müharibəsini (1994-96) başlayan və de-facto müstəqilliyə nail olan və rusca Içkeriysı adlanan millətçilər hazırda Avropada, ABŞ-da və Kanadada özlərinə yurd salıblar. Onlar öz fəaliyyətlərini əsas etibarilə İnternet vasitəsilə davam etdirirlər.

Millətçilərin öz aralarında da böyük parçalanmalar mövcuddur. Ən böyük mühacir düşərgəsinə Londonda özünə məskən salan dünya lideri Əhmed Zakayev başçılıq edir. Bu qrup millətçilər düşərgəsinin içində ən mükəmməl təşkilatlanmadır. Cihadçıları çıxmaq şərtilə bütün çeçen qrupları və fraksiyaları ilə birlik yaratmağa çalışan həmvətənlərlə ünsiyyəti qurmaq üçün müxtəlif konfransları və başqa tədbirləri təşkil edir.

Başqa bir millətçi düşərgəsi islam yönümlüdür və ona keçmiş separatçı millət vəkili Jalaudi Saralyapov rəhbərlik edir. Onlar Çeçenistan Konstitusiyasının şəriət qanunları üzərində qurulmasını istəyir və cihadçıların yalnız Çeçenistan sərhədləri içində mübarizəsini dəstəkləyirlər. Onlar Umarova açıq dəstək nümayiş etdirməsələr də, təhlükə və çətinliklərə baxmayaraq Çeçenistanda qalıb döyüşü davam etdirənləri yüksək qiymətləndirir və təqdir edirlər, bununla belə onları cihadçı yox, mücahid adlandırırlar. İki mühacir qruplaşma arasında ayrılma 2009-cu ildə, Zakayevin moskvapərəst çeçen lideri Ramzan Kadırovla telefon söhbətindən və Çeçenistan parlamentinin spikeri Dukuvaxa Abduraxmanovla görüşündən sonra baş verib. Saralyapovun düşərgəsi Çeçenistanda Rusiyanın oyuncaq hökuməti ilə əlaqələrinə görə Zakayevi satqın adlandırıb.

Cihadçıların peyda olunması bütün çeçen üsyançı hərəkatını köklü şəkildə dəyişdirib. İddia edilir ki, 1990-cı illərin əvvəllərindən islamçı və cihadçı qruplar İçkeriya Çeçen Respublikasına müdaxilə etməyə başlayıblar.

Onların bu ərazidə mövcudluğu, özünü xüsusən də 1999-cu ildə başlamış və Rusiyanın bu regionda nəzarəti geniş miqyasda əlinə alması ilə başa çatmış ikinci çeçen müharibəsində aydın şəkildə hiss olunub. Zakayevin dünyəvi qruplaşması inanır ki, Xilafət adlı əməliyyat Çeçen dövlətçiliyinin təsisatlarını ləğv etmək məqsədilə Rusiyanın xüsusi xidmətləri tərəfindən planlaşdırılıb.

Umarovun harada olması, hətta sağ qalıb-qalmamasının bilinməməsinə gəlincə isə, Zakayev 2013-cü ilin iyununda bildirmişdi ki, o islamçı liderinin ölümünə inanmır və onun ölümü barəsində şayiələr Rusiya Federal Təhlükəsizlik Xidmətinin yaxşı planlaşdırdığı fənd olduğunu vurğulayır.

Çeçenistanda nə qədər cihadçının qalması aydın deyil, lakin Kadırov bəyan edib ki, çeçen dağlarında silahlılar artıq yoxdur və yalnız İnquşetiya ilə həmdsərhəd ərazilərdə bir ovuc şeytan qalıb [16].

70-dən çox ölkədə insan hüquqları pozuntularını izləyən, araşdıran və sənədləşdirən qeyri-hökumət təşkilatı Human Rights Watch-a görə, 2008-ci ildə Rusiya Federasiyasının İnquşetiya Respublikası korrupsiya və bir sıra yüksək səviyyəli cinayətlər (hökumət təhlükəsizlik qüvvələri tərəfindən mülki şəxslərin qaçırılması və öldürülməsi də daxil olmaqla) səbəbindən qeyri-sabit vəziyyəti yaşamağa başladı. Həm də hökumət əleyhinə etirazlar, əsgər və zabitlərə hücumlar da baş verirdi [4]. Dünya birliyi Rusiyadan hərbi müdaxilələrin həddən artıq artımın və Şimali Qafqazda, o cümlədən İnquşetiyada insan haqları vəziyyətinin pisləşməsinin şahidi oldu [13] [8].

Qadınlara gəldikdə isə, onların nə səsvermə, nə də ki başqa hüquqları olmamalıdır. İnquşetiyanın paytaxtı Maqas meriyası İctimai yerlərdə inquş etiket qaydalarını nəşr etdi. Gənclər bu kitabçaları Maqasdakı insanların sıx olduğu yerlərdə paylayır. Sentyabrın 1-dən məktəblilərə göndərilməsi planlaşdırılır.

Rus, inquş və ingilis dillərində yazılmış qaydalar turistlərə və şəhər sakinlərinə ictimai yerlərin ənənələrini izah edir. Maqas bələdiyyə başçısı Beslan Tsechoev, ən vacib

qaydaların tezis şəklində yazıldığını söylədi: Hər qaydanın dərin bir mənası var.

Kitabçada deyilir ki, ətrafdakı dəyərlər sürətlə dəyişir və buna görə meriya ənənəvi inquş dəyərlərinin təbliği ilə bağlı tövsiyələr verib. İnquş gənclərinə and içməməyi, fit çalmamağı, siqaret çəkməməyi, izdihamlı yerlərdə gülməməyi tövsiyə olunur. Kitabın müəllifləri yazır ki, siz, ailəniz və xalqınız davranışınıza görə dəyərlisiniz.

Ayaq üstə yemək və içmək də tövsiyə edilmir. Paltar haqqında da qaydalar var. Cənab inquş evdən ayaqyalın çıxmır. Kişi və ya qadının sıx paltar geyməsi nəzakətli sayılmır. Çılpaq gəzmək qınaqdır və geyimə ciddi yanaşılır. Qaydalara görə insan özündən yaşca böyük olana hörmətlə yanaşmalıdır.

İnquşlar üçün qaydalar fərqlidir. Qadın namuslu bir qadın olaraq öz yerini bilməlidir. Hər yaşda bir qadın istənilən yaşda kişiyə güzəşt etməlidir. Utancaqlıq, nəzakət, sakit ton, yad adamlardan uzaqlıq qadını gözəlləşdirir. Qaydalarda deyilir ki, qadın qışqıra və ya acıqlana bilməz.

Bu qaydalarla yanaşı bir fotoşəkil də təqdim edildi. İki kişi bir skamyada oturub və onların qarşısında iki uzun paltarlı və başını aşağı salan iki qadın durur.

Qaydalara görə, inquş kişiləri qohumlarını itirmiş və həmyerlisi olan hər hansı bir qadına qayğı göstərməlidirlər.

Maqas bələdiyyə başçısı, bu qaydaların hazırlanmasında inquş tarixçiləri və ağsaqqalları ilə məsləhətləşdiklərini söylədi. O, qadınlara dair tövsiyələrdə ayrı-seçkilik elementinin olmadığını vurğuladı: Bir qadın ayağa qalxır və yaşından asılı olmayaraq gənclərə də hörmət göstərir. Hətta yaşlı bir qadın da ayağa qalxıb bir yeniyetməyə hörmət göstərə bilər. Gənc qızlar bunu görür və kişilərə hörmət bəsləyərək böyüyürlər.

İnsan hüquqları təşkilatları illərdir ki, Şimali Qafqazda qadın hüquqlarının pozulduğunu iddia edirlər. Yerli hökumət bu tənqidi rədd edərək yerli adətlərin Qərb dəyərlərinə uyğun olmadığını vurğulayır [17].

Memorial hüquq təşkilatı uzun müddət Sovet dövründə baş verən cinayətləri və hazırda insan hüquqlarının pozulması hadisələrini sənədləşdirmək fəaliyyəti ilə məşğul olub. 2015-ci ildə təşkilat ABŞ-ın Demokratiya üçün Milli Fonda və Avropa Komissiyasından maliyyə vəsaiti almaqda ittiham edilərək, xarici agent adlandırılmağa başladı.

Biz məhkəmədə özümüzü müdafiə etmək üçün xeyli vaxt sərf etməli olduq. Çünki, hökumətin sıx nəzarəti altında ən xırda səhv belə dövlətin bizə cərimə vermək və ya həbs etməsi üçün bəhanə ola bilərdi - deyə, Memorial təşkilatının direktoru Kiril Koroyetev bildirib.

Şimali Qafqaz Rusiyada məmur özbaşınalığının və avtoritar idarəetmə mexanizmlərinin ən kəskin tətbiqi ilə seçilməkdədir. Dördüncüsü, Şimali Qafqaz təhlükəsizlik probleminin ən kəskin şəkildə mövcud olduğu, mərkəzi və yerli inzibati və təhlükəsizlik strukturlarına qarşı faktiki müharibənin aparıldığı ən qaynar nöqtəsidir. Bölgədən verilən xəbərlərin əsas hissəsini terror aksiyaları, sui-qəsdlər, adam qaçırmalar və Rusiya təhlükəsizlik orqanlarının bu hallara qarşı mübarizə tədbirlərinə dair məlumatları təşkil etməkdədir.

Moskvadakı insan hüquqları üzrə Memorial təşkilatı bəyan etdi ki, Şimali Qafqazda, İnquşetiyada beş fəal qonşu Çeçenistan ilə razılaşma sərhədinə qarşı mart ayında icazəsiz mitinqlərdə iştirak etdiyinə görə həbs edilmişdir.

1 İyul Xatirə Bəyanatında deyilir ki, əslində yüzlərlə etirazçının toqquşmasının qarşısını almaq üçün əllərindən gələni edən Əhməd Baraxoyev, Musa Malsagov, İsmayıl Nalgiev, Malsag Ujaxov və Barax Chemurziev qanunsuz olaraq zorakı tədbirlərin təşkilində ittiham olunurlar.

2018-ci ilin sentyabrında İnquşetiyanın o vaxtkı rəhbəri Yunus-Bek Yevkurov və Çeçenistan lideri Ramzan Kadırov gizli danışıqlardan sonra sərhəd müqaviləsi imzaladılar. İnquşetiyadakı fəallar hesab edirlər ki, ərazi Çeçenistana qanunsuz olaraq verildiyi üçün

pakt qüvvədən düşüb.

İnquşetiyadakı anlaşmaya qarşı bir neçə kütləvi etiraz aksiyası polis tərəfindən vəhşicəsinə dağıdıldı və onlarla insan tutuldu, sonra cərimə və ya həbs edildi.

Memorial təşkilatı Rusiya hökumətini beş İnquş fəalını dərhal azad etməyə və təqiblərə başlayanları məsuliyyətə cəlb etməyə çağırdı [18].

Separatçılığın yayılması mövcud siyasi vəziyyəti daha da ağırlaşdırmaqda davam edir. Federal və regional məmurlar birlikdə yaşamağın faydaları və əziyyətlərini dərk etməlidirlər. Bu suallara cavab axtarışı Şimali Qafqazın hüdudlarından kənara çıxır və Rusiyanın vətəndaş və siyasi identikliyinin fəal şəkildə formalaşması ilə əlaqələndirilməlidir. Qafqaz probleminin həlli əslində, həm daxili, həm də xarici siyasətdə Rusiya dövlətçiliyinin qurulmasının gələcək layihəsinin müəyyənləşdirilməsi ilə eynidir.

Nəzəri olaraq, institusional tarazlıqlar olmadan zəifləyən sistem korrupsiyanın və yoxsulluğun əsas səbəblərindən biridir. Bunun təsdiqini Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində İnquşetiya Respublikasının Rusiyada ən kasıb əhalisi olan bölgə olaraq qeyd edildiyində görürük. Rusiya Federasiyasının əmək və əhalinin sosial müdafiəsi naziri M.Topilin yoxsulluq problemi ilə bağlı suala cavab verərək demişdir: Yaşayış səviyyəsindən aşağı gəlirləri olan kifayət qədər çox insan İnquşetiya və Tuva kimi bölgələrdə yaşayır, bunlar ölkənin ən çətin iki bölgəsidir [12].

Korrupsiya qurumların rəsmi fəaliyyətini pozur və cəmiyyətin müxtəlif qrupları arasında iqtisadi bərabərsizliyi artırır və nəticədə siyasi qeyri-sabitliyə səbəb olur. Korrupsiya hüquqi və mənəvi normalara zidd olan yersiz faydalar verən anti-sosial davranışdır. Böyüməkdə olan korrupsiya və siyasi qeyri-sabitlik İnquşetiyada hökumətin gəlirlərinə, istehsalına, əmanətlərinə, investisiya qoyuluşlarına, artımına və gəlir bölgüsünə mənfi təsir göstərir. Bu baxımdan, dövlət xidmətlərindən yalnız korrupsiya strategiyaları vasitəsilə istifadə etmək mümkündürsə, bu, zəif idarəetmənin təzahürüdür.

Yoxsulluq və siyasi iğtişaşlar Şimali Qafqaz bölgəsindəki vəziyyətin ağırlaşmasına səbəb olur. İnquşetiya hökuməti 2018-ci ildə qonşu Çeçenistanla qeyri-populyar torpaq mübadiləsini təsdiqlədiyi üçün İnquşetiya hətta narahat Şimali Qafqazın standartlarına görə qeyri-sabitliyi ilə seçilməyə başladı. Çeçenistanla sövdələşmədən sonra geniş narazılıqlar İnquşetiyanın paytaxtı Maqasda aylarla davam edən küçə etirazlarına çevrildi və 2019-cu ilin iyununda inquş lideri Yunus-Bek Yevkoruv istefa verdi [2]. O, istefa qərarını hərc-mərclik və hər kəsin öz maraqları ilə respublikanın maraqları arasında seçim etməsi hüququ ilə izah etdi.

Bir çox yerli sakinlər deyirlər ki, torpaq sazişi korrupsiya və yoxsulluqla əlaqəli problemlər ilə birlikdə İnquşetiya hökumətini o qədər qeyri-populyar etdi ki, əhalinin əksəriyyəti hər şeydə regional rəhbərliyə etibar etməkdən imtina edir. Hökumətlə xalq arasında etimad tamamilə iflasa uğradı. Rusiyada hökumətə bu qədər etibarsızlıq hər yerdə mövcuddur. Ancaq burada, İnquşetiyada, xüsusilə yüksəkdir.

ÜDM-in həcminə görə Rusiyanın 83 bölgəsindən 79-cu yer tutan İnquşetiyada iqtisadiyyatı və işsizlik nisbəti rəsmi olaraq 26%-dir. Praktikada İnquşetiyada heç kimin maliyyə ehtiyacları yoxdur [4]. İnquşetiyadakı etiraz aksiyaları vətəndaşların fikirlərini nəzərə almadan yerli avtoritar liderlərin bütləşdirilməsinə əsaslanan Qafqazın mülayimləşdirilməsi siyasətinin uğursuzluğunu nümayiş etdirdi. Çeçenistan və İnquşetiya respublikaları arasındakı siyasi qarşıdurma son tarixdə ən uzun sürən xalq etirazlarına səbəb oldu.

Rusiya Federasiyasının subyektləri arasında bir çox digər ərazi mübahisələri, bölgələr və federal mərkəz arasında müxtəlif məsələlərdə – təhsil siyasətindən vergiyə qədər olan mübahisələr var. Bölgələr bu sahədə bir prezident görsələr və daha çox muxtariyyət tələb etməyə başlayacaqlarsa, Federasiyada daha çox belə qarşıdurmaların yaranacağını gözləmək olar.

Şimali Qafqaz üzrə İsrail politoloqu və eksperti A.Şmuleviçin fikrincə, Kreml Mos-

kvanın imperiya siyasətinə ümumi müxalifətdə birləşməsinin qarşısını almaq üçün müxtəlif Qafqaz xalqlarını bir-birinə qarşı qoyur [7].

**Nəticə**

Yuxarıda deyilənləri ümumiləşdirərək qeyd etmək lazımdır ki, qlobal informasiya cəmiyyəti dövründə, öz mənfəətlərini əldə etmək üçün xalqları bir-birinə qarşı qoyan antihumanist strategiyanın əsl səbəblərini gizlətmək getdikcə çətinləşir. Rusiya Federasiyasının hazırkı prezidentinin administrasiyası artıq daxili və xarici defolt vəziyyətindədir. Avropa dövlətlərinin rəhbərləri tərəfindən Rusiyaya verilən sanksiyalar hakim elitaya yox, ilk növbədə hər zaman öz vətənləri uğrunda canlarını verməyə hazır olan sadə insanlara toxunur.

## ƏDƏBİYYAT


1. Aruuke Uran kyzy. Chechnya-Ingushetia territorial tensions benefit Putin (https://www.trtworld. com/opinion/ 20 November, 2018)
2. Глава Ингушетии Евкуров подал в отставку/24 июня 2019 (https://iz.ru/)
3. Halbach U. Islam in the North Caucasus (https://journals. openedition.org/assr/18403?lang=en/ Juillet-septembre 2001)
4. Ingushetia's cycle of violence. BBC. October 3, 2009. Retrieved January 7, 2011 (http://news.bbc.co. uk/2/hi/programmes/from_ our_ own_ correspondent/8287143.stm)
5. Лайт Ф. Бедность и политические беспорядки усугубляют плохую ситуацию в крошечном северокавказском регионе. Poverty and political unrest are making a bad situation worse in the tiny North Caucasian region ( https://www.themoscowtimes. com /2020 /04/22/ coronavirus-hits-hard-in-russias-volatile-republic-of-ingushetia-a70067/ April 23, 2020)
6. Основные законы диалектики (http:// filosofedu. ru / index.php/)
7. Парламентская газета. Республика Ингушетия/pnp.ru/ (https:// www.pnp.ru/regions/respublika-ingushetiya/5/2014/12/30)
8. People & Power – Ingushetia: A second Chechnya on YouTube – October 28, 2009, Al Jazeera English [dead link]
9. Purposes and Principles of the United Nations/ United Nations Security Council/ (https://www.un.org/securitycouncil/)
10. Shtepa V. Ingushetia Demonstrates Failure of Putin’s Policies in North Caucasus/ (https://jamestown.org// 2018/10/23)
11. Sokirianskaia E. Russia’s North Caucasus Insurgency Widens as ISIS’ Foothold Grows. (https://www. World politics review. com/articles/ 18466/)
12. Топилин назвал жителей Ингушетии самыми бедными в России/ (https://kavkaz.mk.ru /economics/)
13. Urgent Need for Vigorous Monitoring in the North Caucasus. Human Rights Watch/ Reuters, 2008/04/15 (archive link)
14. Walker, Shaun (April 4, 2017). Why suspicion over St Petersburg metro attack is likely to fall on Islamist groups. Retrieved October 3/ 2017 (https://www.theguardian.com/world/2017/04/03)
15. Цыбульская М.В. Конфликтология. М.: МГУЭСиИ, 2007, 150 с.
16. Çeçenistan üsyançıları: Kim kimdir?/ (https://www.bbc.com/azeri/ region/2014/01/140125_chechen_fighters_profile/25.01.2014)
17. İnquşetiyada qaydalar: 'Qadın yerini bilməlidir'/ (https://www.azadliq.org/a/ 30137847. html/30.08.2019)
18. Russian Rights NGO Declares Five Jailed Ingush Activists 'Political Prisoners'/ (https://www.rferl.org/a/russian-rights-ngo-declares-five-jailed-ingush-activists-political-prisoners-/30032720.html/2/07/2019)

***Summary***

***Lilia Mirzazadeh***

***Republic of Ingushetia in the System Relations of the Russian Federation***


The article presents the subject of the Russian Federation - the Republic of Ingushetia in the system of relations with the federal government. The situation in the republic is characterized by chronic poverty and instability, causing corruption, crime and anti-government protests. Russian politicians associate the political and socio-economic situation in Ingushetia with the Islamic rebellion in the North Caucasus. However, the degree of revolt in this area was exaggerated by Russian propaganda and the Western media in order to level their own incompetence than by the belligerence of the local population. The Ingush people were deported to Kazakhstan in Soviet times, and after returning to their homeland, they faced a number of economic and socio-political problems. The Ingush are experiencing a lot of social tension due to changes in the socio-economic and political situation in their region. From the point of view of relevance, the author's research The Republic of Ingushetia in the system of political relations of the Russian Federation is of great importance. The history and fate of the Republic of Ingushetia is very painful, starting with the Caucasian war under the auspices and influence of the Russian government, the forcible annexation of the territory by Russia, the deportation of the people by Stalin to Kazakhstan, the pain of return and, as a result, poverty, deprivation, human rights violations and territorial restrictions. Russia itself is, albeit a crooked, but a true mirror that more clearly reflects all these painful moments and the balance of power in our time. Therefore, the research topic in this article is not only relevant, but also quite acute.


**Keywords:** *poverty, instability, concept of conflict, contradiction, double standarts, system weakness*

***Резюме***

***Лилия Мирзазаде***

***Республика Ингушетия в системе отношений Российской Федерации***


В статье представлен субъект Российской Федерации – Республика Ингушетия в системе отношений с федеральной властью. Ситуация в республике отличается хронической бедностью и нестабильностью, порождающие коррупцию, преступления и антиправительственные выступления. Российские политики связывают политические и социально-экономические проблемы в Ингушетии с исламским мятежом на Северном Кавказе. Однако степень восстания в этом регионе была преувеличена российской пропагандой и западными средствами массовой информации с целью нивелирования собственной некомпетентности, чем воинственностью местного населения. Ингушский народ был депортирован в советское время в Казахстан, а после возвращения на родину столкнулся с рядом экономических и социально-политических проблем. Ингуши испытывают много социальной напряженности из-за изменений социально-экономической и политической ситуации в своем регионе. С точки зрения актуальности авторское исследование «Республика Ингушетия в системе политических отношений Российской Федерации» имеет большое значение. История и судьба Республики Ингушетия – очень болезненная, начиная с Кавказской войны под эгидой и влиянием российского правительства, насильственной аннексии территории Россией, депортации народа Сталиным в Казахстан, боли возвращения и, как следствие, бедности, лишений, нарушения прав человека и территориальные ограничения. Сама Россия является хоть и кривым, но истинным зеркалом, которое более четко отражает все эти болезненные моменты и соотношение сил в наше время. Поэтому тема исследования в этой статье не только актуальна, но и стоит достаточно остро.


**Ключевые слова:** *Ингушетия, бедность, нестабильность, концепция конфликта, противоречие, двойные стандарты, слабость системы управления*

Şöbə redaktoru s.e.d., prof. Nəsirli Elman Xudam oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT: 32**

# AZƏRBAYCAN RESPUBLİKASINDA QHT-LƏRİN YARANMASI VƏ İNKİŞAFI

**Aysel ALLAHVERDİYEVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 11 iyun 2021; çapa qəbul edilmişdir: 29 iyul 2021; online-da çap edilmişdir:30 sentyabr 2021.*
*Received: 11 th June, 2021; accepted: 29 th Jule, 2021; published online: 30 th September , 2021.*

**Açar sözlər:** *vətəndaş cəmiyyəti, hüquqi dövlət, III sektor, QHT-lər, MQF, AQİM*

## Giriş

Demokratik dövlət quruluşunun əsas şərtlərindən birini ictimai fəaliyyət sferalarında vətəndaşların fəaliyyətini təmin edən inkişaf etmiş vətəndaş cəmiyyəti və vətəndaş cəmiyyəti institutlarının formalaşması təşkil edir. Müasir dövrdə güclü vətəndaş cəmiyyəti sosial və hüquqi dövlət quruculuğuna əsaslanan davamlı demokratik inkişaf yolunu seçən dövlətlərin sosial-iqtisadi siyasətinin əsas komponentidir.

Yerli demokratiyanın inkişafı, əhalinin rifahının yaxşılaşdırılması və ictimai xidmətlərin yüksək səviyyədə təşkili proseslərində Qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyəti institutu olaraq böyük rol oynayır. QHT-lər dövlət qurumlarının iştirakı olmadan, ayrı-ayrı şəxslər və ya qeyri-kommersiya təşkilatları tərəfindən yaradılan və nizamnamə əsasında fəaliyyət göstərən təşkilatlardır.

Vətəndaş cəmiyyətinin inkişafının əsas atributlarından biri olmaqla QHT-lər hüquqi dövlət quruculuğunun inkişafında, cəmiyyətdə sülh və təhlükəsizliyin qorunaraq sabitliyin saxlanılmasında, həmçinin insanların hüquq və azadlıqlarının təmin olunmasında aparıcı rol oynamaqla cəmiyyətin inkişafına öz töhfələrini verirlər. Onlar cəmiyyətdə vətəndaş fəallığının artmasına yardım edir, dövlət və yerli hakimiyyət orqanlarında qərarların qəbul olunması prosesinə qeyri-siyasi vasitələrlə təsir edirlər (5, s. 19).

Dövlət və üçüncü sektor arasında qarşılıqlı əməkdaşlıq, QHT-lərə dövlət dəstəyi və s. vətəndaş cəmiyyətinin dinamik inkişafını təmin etməklə yanaşı, eyni zamanda müasir cəmiyyətdə ictimai münasibətlərin yeni mərhələyə qədəm qoymasını labüd edir.

Dövlət və QHT-lər arasında əməkdaşlığın artması, eyni zamanda ictimai həyatın müxtəlif sahələrinə dair problemlərin həllində QHT-lərin tərəfdaş qurum kimi çıxış etməsi ictimai marağın artmasına və bu sahədə qanunvericilik bazasının formalaşmasına təkan vermişdir. İndi QHT-lər yalnız bir ölkə daxilində deyil, dünya miqyasında cərəyan edən ictimai-siyasi proseslərə təsir imkanı qazanmış, mühüm geosiyasi faktorlardan birinə çevrilmişlər (2, s. 5).

## 1. Azərbaycanda ilk QHT-lərin yaranması və fəaliyyəti

Müasir dövrdə vətəndaş cəmiyyətinin formalaşmasında və cəmiyyətin ictimai-sosial həyatında mühüm rol oynayan QHT-lərin Azərbaycanda yaranması və inkişafı uzun tarixi inkişaf yolu keçmişdir. Ölkəmizdə milli QHT sisteminin formalaşması XIX əsrin sonları XX əsrin əvvəllərinə təsadüf edir. Bu dövrdə Azərbaycanın çar Rusiyasının əsarəti altında olmasına baxmayaraq, məhz belə bir dövrdə ictimai sektorun formalaşması, ilk

* *doktorant, Bakı Dövlət Universiteti*
e-mail: allahverdiyeva_aysel88@mail.ru

QHT-lərin yaranması tarixi əhəmiyyət daşıyır.

Sözügedən dövrdə yaranmış ilk QHT-lər dövlətdən asılı olmayaraq sosial və ictimai həyatın müxtəlif sahələrində, əsasən maarifçilik və xeyriyyəçilik istiqamətində fəaliyyət göstərərək təşəkkül tapmış və müasir QHT-lərin formalaşması üçün zəmin rolunu oynamışlar.

Dövrün görkəmli ziyalıları xüsusilə Həsən bəy Zərdabi, M.F.Axundov milli şüurun, elm və təhsilin inkişafı, xalqın maariflənməsi və təşkilatlanması yolunda səylə mübarizə aparır, cəmiyyətin müxtəlif sahələrində meydana gələn sosial-ictimai problemlərin həllində fəal iştirak edirdilər.

1872-ci ildə böyük mütəfəkkir, ictimai fikir tarixində xüsusi rolu olan H.Zərdabinin fəallığı ilə Azərbaycanda ilk xeyriyyə təşkilatının əsası qoyuldu. Cəmiyyəti-xeyriyyə adlanan xeyriyyə cəmiyyəti bütövlükdə Şərqdə yaranan ilk xeyriyyə təşkilatı idi. Cəmiyyətin nizamnaməsində əsas məqsədin yetim və kimsəsiz uşaqları təhsilə cəlb etmək məqsədi açıqlanırdı. Cəmiyyətin fəal iştirakçıları kimi N.Vəzirov və Ə.Goraninin də xidmətləri əvəzsizdir. Təhsil almaq istəyən fəqirlərə maliyyə dəstəyi göstərən təşkilatın fəaliyyəti təəssüf ki, uzunmüddətli olmamış, cəmiyyətin ehtiyacları ödənilmədiyi üçün vəsait çatışmazlığı səbəbindən 1873-cü ildə fəaliyyəti dayandırılmışdır. H.Zərdabi sonralar Həyat qəzetində nəşr etdirdiyi məqaləsində müsəlman toplumunun bu vacib sahəyə diqqət yetirmədiyindən, biganə və laqeyd yanaşdığından təəssüflə şikayətlənmişdi (3, s. 4).

H.Zərdabi tərəfindən yaradılan ilk təşkilatın qısa müddətli olmasına baxmayaraq, məhz bu xeyriyyə təşkilatının fəaliyyəti nəticəsində mərkəzdə və bölgələrdə bir sıra ictimai təsisatlar yaranaraq inkişaf etməyə başladı.

XIX əsrin sonları XX əsrin əvvəllərində kapitalist münasibətlərin hökm sürməsi və Şimali Azərbaycanda baş verən ictimai-iqtisadi hadisələr yeni cəmiyyətlərin təşəkkül tapmasına zəmin yaratdı. 1872-ci ildə neft sənayesində iltizam sisteminin ləğvi bir tərəfdən sahibkarlar təbəqəsinin formalaşmasına, digər tərəfdən isə müxtəlif cəmiyyətlərin təsis olunmasına təkan verdi. Qeyd etmək lazımdır ki, sözügedən dövrdə yaranan cəmiyyətlər xeyriyyəçilik istiqamətində inkişaf edirdi. H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Muxtarov və digər sahibkarlar xalqın maariflənməsinə, onların ictimai tələbatlarının ödənilməsinə yönəlmiş xeyriyyə işləri ilə məşğul olur, ictimai-iaşə obyektlərinin tikintisinə diqqət yetirirdilər.

1905-ci ildə Bakıda Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti yaradıldı. Təsisçisi mesenat H.Z.Tağıyev olan bu cəmiyyət əsasən varlılardan və ziyalılardan təşkil olunmuşdur. Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Həsən bəy Zərdabi, Mirzə Əsədullayev və başqaları cəmiyyətin fəal üzvləri idilər. Bu cəmiyyətin fəaliyyətinə xeyriyyə ilə yanaşı, mədəni və təhsil müəssisələri də daxil idi. Bu məqsədlə məktəblərin və tələbələrin dərsliklə təmin edilməsinə, həmçinin ən kasıb şagirdlərin məktəbə daxil olmasına, orta təhsil müəssisələrində təhsillərini tamamlamalarına köməklik göstərirdi (3, s. 16). Birinci Dünya müharibəsi illərində cəmiyyət müharibədə zərər çəkmiş ailələrə öz köməyini əsirgəmir, qaçqınları ərzaqla və paltarla təmin edirdi.

Azərbaycan xalqının mənəvi dünyagörüşünün formalaşmasında 1906-cı ildə ziyalılar tərəfindən yaradılan Nəşri-maarif cəmiyyətinin böyük rolu olmuşdur. Əsas şüarı elm və təhsilin inkişafı olan bu cəmiyyət milli-mədəni tərəqqinin inkişafına təkan vermişdir. Cəmiyyətin əsas məqsədi savadsızlığın aradan qaldırılması, xalqın elmə, təhsilə yiyələnməsi, cəhalətlə mübarizəsi idi. H.Z.Tağıyev, M.Muxtarov, Ə.Ağayev, M.Nağıyev və başqaları cəmiyyətin fəalları idilər.

XX əsrin əvvəllərində Bakıda təşkil olunan cəmiyyətlər sırasında Nicat və Səfa mədəni-maarif cəmiyyətləri mühüm rol oynayırdılar.

1906-cı ildə Nicat cəmiyyəti təşkil olundu. Cəmiyyətin əksər üzvlərini ziyalılar təşkil edirdi. Üzeyir Hacıbəyov, Məhəmməd Əmin Rəsulzadə, Cahangir Zeynalov, Hüseyn

Ərəblinski və digər ziyalılar cəmiyyətin fəaliyyətində böyük rol oynayırdılar. Cəmiyyət müsəlman xalqının maariflənməsi, savadsızlığın aradan qaldırılmasına çalışırdı. Yoxsul uşaqları təhsilə cəlb etmək üçün Bakıda və kəndlərdə kitabxanalar və qiraətxanalar açaraq azərbaycanlıları maarifləndirmək üçün səylə çalışırdılar.

Nicat cəmiyyətinin Azərbaycan teatrının, həmçinin milli musiqi mədəniyyətinin inkişafında da xidmətləri böyük olmuşdur. Cəmiyyət üzvləri gənc aktyor truppaları təşkil edir, əsərlərin tərcümə olunaraq tamaşaya qoyulmasını təmin edirdilər.

1910-cu ildə Səfa mədəni-maarif cəmiyyəti təşkil edildi. Cəmiyyət üzvləri maarifpərvər ziyalılar idi və onlar xalqın maariflənməsinə, mədəni inkişafına çalışırdılar. Səfa milli teatrın inkişafı ilə daha çox maraqlanırdı. Özünün xüsusi teatr truppası var idi. Dövrün görkəmli aktyorları, tanınmış yazıçı və dramaturqlar bu truppa ətrafında toplaşmışdılar. Səməd Mənsur, Dadaş Bünyadzadə, Məhəmməd Əmin Rəsulzadə, Hüseyn Ərəblinski, Cahangir Zeynalov və başqaları cəmiyyətin fəaliyyətində yaxından iştirak edirdi (3, s. 42).

Xeyriyyə cəmiyyətləri təkcə Bakıda deyil, eyni zamanda Gəncədə Gəncə Aktyorlar Cəmiyyəti, Gəncə Müsəlman Dram Cəmiyyəti, Naxçıvanda Müsəlman İncəsənət və Dram Cəmiyyəti, Şuşada Musiqişünas Cəmiyyəti və Müğənnilər Cəmiyyəti, Şəkidə Nuxa Şəhər Müsəlmanları arasında Təhsilin yayılması üzrə Cəmiyyət, Salyan Maarifçilik Cəmiyyəti və digər şəhərlərdə də təşkil olunurdu.

Beləliklə, XIX əsrin sonu XX əsrin əvvəllərində Bakıda və başqa şəhərlərdə təşkil olunmuş cəmiyyətlərin fəaliyyəti gələcəkdə Azərbaycanda müasir QHT-lərin yaranması üçün tarixi zəmin rolunu oynadı.

### 2. Azərbaycanda müasir QHT-lərin yaranması və inkişafı

Azərbaycanda müasir QHT-lərin yaranması 80-ci illərin sonlarına təsadüf edir. Bu dövrdə iki təşkilat Qarabağa Xalq Yardım Komitəsi və Qaçqınlar Cəmiyyəti yaradıldı. Əsas məqsəd müharibədə zərər çəkmiş vətəndaşlara yardım etmək idi. Təşkilat qaçqın və məcburi köçkünlərin sosial problemləri ilə maraqlanır, maliyyə dəstəyi göstərirdi.

1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı yeni mərhələyə qədəm qoydu. Müharibənin yaratdığı çoxsaylı problemlər, soydaşlarımızın öz yurd-yuvalarından didərgin düşməsi, işsizlər ordusunun yaranması, ölkədə ictimai-siyasi vəziyyətin gərginləşməsi müxtəlif sahələr üzrə QHT-lərin yaradılmasını labüd edirdi. 1992-ci ildə Azərbaycanın BMT-yə üzv qəbul olunması, üzərinə bir sıra beynəlxalq öhdəliklər götürməsi, xartiya və müqavilələrə qoşulması QHT təşəbbüslərinin artmasına şərait yaratdı. Qarşılıqlı faydalı əməkdaşlıq, beynəlxalq təcrübənin bölüşdürülməsi, informasiya və təcrübə mübadiləsi, birgə layihələrin həyata keçirilməsi Azərbaycanda III sektorun beynəlxalq standartlara uyğun formalaşmasında mühüm rol oynamışdır.

Müasir və beynəlxalq standartlara uyğun ictimai təsisatların yaradılmasında məhz 1995-ci il 12 noyabr tarixli Azərbaycan Respublikası konstitusiyasının qəbulu tarixi əhəmiyyət daşıyır. Konstitusiya xalqı hakimiyyətin yeganə mənbəyi elan edərək, insan və vətəndaşların öz müqəddaratını müstəqil şəkildə həll etmək hüququnu təsbit edirdi.

Konstitusiyanın 58-ci maddəsində vətəndaşların birləşmək hüququ təsbit olunur və bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilirdi. Beləliklə yeni konstitusiya cəmiyyət həyatının bütün sahələrində əsaslı dəyişikliklərə yol açaraq, güclü hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyəti mexanizminin inkişafına və QHT hərəkatının kütləviləşməsinə təkan verdi.

1995-ci ildən sonrakı dövrü Azərbaycanda QHT sektorunun kütləviləşməyə başlanması dövrü kimi də izah etmək mümkündür. Milli, regional QHT-lər yaranmağa başladı, QHT koalisiyaları, konfederasiyaları formalaşdı. Bunların arasında Əlincə xeyriyyə

cəmiyyətini, Azərbaycan Qaçqınlar cəmiyyətini, Gənclər Təşkilatlarının Milli Şurasını, Uşaq Hüquqları üzrə QHT Alyansını, Milli QHT Forumunu və başqalarını misal çəkə bilərik (3, s. 201).

Müstəqilliyimizin ilk illərində QHT-lərin fəaliyyəti, əsasən, Dağlıq Qarabağ həqiqətlərinin, müharibədə zərər çəkmiş həmvətənlərimizin problemlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində inkişaf edirdi. Azərbaycan QHT-ləri yerli və beynəlxalq konfranslarda Qarabağ həqiqətlərini əks etdirən layihələr hazırlayır, qaçqın və məcburi köçkünlərin sosial problemlərini əks etdirən məruzələrlə çıxış edirdilər. QHT-lərin inkişafının sonrakı mərhələsi əsasən onların müxtəlif sahələr üzrə ixtisaslaşması ilə xarakterizə olunur. Cəmiyyət həyatının müxtəlif problemlərini öz fəaliyyətləri üçün prioritet istiqamət hesab edən ictimai təsisatlar yaranmağa başladı.

Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunda mühüm amil kimi diqqəti cəlb edən qüvvələrdən biri də qadın hərəkatıdır. Azərbaycan Konstitusiyasının təsbit etdiyi bütün demokratik hüquq və azadlıqlardan geniş istifadə edən qadınlar demokratik dövlət quruculuğuna öz dəyərli töhfələrini verirlər.

1994-cü ildə Azərbaycanda Qadın və İnkişaf Mərkəzi təsis edildi. Təşkilat öz ətrafında yüzlərlə qadını birləşdirirdi. Təşkilatın əsas məqsədi vətəndaş cəmiyyəti quruculuğunda qadınların rolunu artırmaq, müxtəlif fəaliyyət sahələrində onların bilavasitə iştirakını təmin etmək, qadın, uşaq, gənclər, qaçqın və məcburi köçkünlərin hüquq və azadlıqlarının müdafiəsi, sosial problemlərinin həlli idi.

AQİM öz ətrafında onlarla təşkilatı birləşdirərək onlarla sıx əməkdaşlıq şəklində fəaliyyət göstərmişdir. Təşkilat təkcə mərkəzdə deyil, eyni zamanda bölgələrdə vətəndaşların sosial problemlərini əks etdirən tədqiqatlar aparmış, təlimlər keçmiş, layihələr həyata keçirmişdir. AQİM mərkəzdə, eləcə də bölgələrdə əhalinin müxtəlif yaş kateqoriyalarının sosial problemlərini əks etdirən sağlam həyat tərzi, qadın zorakılığı, əhalinin miqrasiyası, yoxsulluğun aradan qaldırılması və s. mövzularla bağlı layihələr həyata keçirmişdir.

Birliyin təşəbbüsü ilə 2000-ci ildə Azərbaycanda Uşaq və Gənclər Sülh Şəbəkəsi, 2001-ci ildə onun nəzdində Liderlik Məktəbi təsis edildi. AQİM 2001-ci ildə Uşaq Hüquqlarının Müdafiəsi üzrə Qeyri-Hökumət Təşkilatları Alyansının yaradılmasına nail olub. Əsas məqsəd uşaq və gənclərin maarifləndirilməsi, uşaqların öz hüquq və azadlıqlarını öyrənməsi, onların təhsilə cəlb edilməsi, onlara qarşı zorakılığın və istismarın qarşısının alınması, fəaliyyət prosesində uşaq və gənclərin iştirakının təmin edilməsi, bu sahədə beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərilməsi idi. Bu məqsədlər çərçivəsində müxtəlif tədbirlər keçirilib və uşaqlar Amerikada, İsveçrədə, Fransada, Danimarkada, Hollandiyada, Türkiyədə və başqa ölkələrdə beynəlxalq tədbirlərdə, konfranslarda, sərgilərdə, BMT-nin Baş Assambleyasının iclaslarında iştirak ediblər (3, s. 25).

### 3. QHT-lərin inkişafında dövlətin rolu

Dövlət tərəfindən ictimai sektorun inkişafına ilk sanballı töhfə 1997-ci ildə edildi. Həmin il BMT-nin İnkişaf Proqramı ilə Azərbaycan hökuməti arasında Azərbaycan qeyri-hökumət təşkilatlarının institusional inkişafı və vətəndaş cəmiyyəti quruculuğuna kömək adlı birgə layihənin həyata keçirilməsi haqqında saziş imzalandı. Layihənin icrası üçün yaradılmış QHT-lərin Resurs və Təlim Mərkəzi 1998-ci ilin iyun ayından etibarən ictimai sektorun inkişafı istiqamətində ciddi işlər görməyə başladı. QRTM-in qarşısında duran əsas vəzifələrdən biri ayrı-ayrılıqda və pərakəndə fəaliyyət göstərən QHT-ləri bir araya gətirmək, onların fəaliyyətini əlaqələndirə bilən çevik mexanizm yaratmaq idi (3, s.17). Birgə layihənin reallaşdırılması QHT-lərin fəaliyyətində sistemli və institusional inkişafa zəmin yaradaraq, onların təşkilatlanmasına şərait yaratdı.

Layihə həmçinin QHT-lərlə bağlı qanunvericiliyin formalaşmasına da öz töhfəsini verdi. Belə ki, 1998-ci ildə Qrant haqqında qanunun qəbul edilməsi ictimai sektorun inkişafını təmin etməklə yanaşı, QHT-lərə maliyyə dəstəyinin göstərilməsində hüquqi baza rolunu oynadı. 2000-ci ildə isə qeyri-hökumət təşkilatları termini qanunvericiliyə daxil edildi və Qeyri-hökumət təşkilatları haqqında qanun qəbul olundu.

QHT hərəkatının paytaxtdan regionlara doğru genişlənməsində regional resurs-təlim mərkəzlərinin müstəsna rolu olmuşdur. Resurs-təlim mərkəzlərinin yaradılması regionlarda demokratik təsisatların inkişafına, QHT hərəkatının sürətlənməsinə, QHT-lərin fəaliyyətinin əlaqələndirilməsinə şərait yaratdı. 2001-ci ildən etibarən MQF-in Şirvan, Quba, Şəmkir və Mingəçevir resurs mərkəzləri fəaliyyətə başladı (3, s. 203).

Beynəlxalq təşkilatların təcrübəsindən yararlanmaq, QHT-lərlə hökumət təşkilatları arasında informasiya mübadiləsinin təmin edilməsi, QHT-lərin fəaliyyətlərinin əlaqələndirilməsi onların vahid bir platforma ətrafında birləşməsini zəruri edirdi. 1999-cu ildə iyunun 11-də Bakı şəhərində QHT-lərin milli platforması olan Milli QHT Forumu təsis edildi. Forum öz ətrafında 100-ə yaxın təşkilatı birləşdirirdi. MQF yarandığı dövrdən etibarən ictimai təşkilatların inkişafında yeni inkişaf mərhələsi başlandı. Yeni təşkilatların formalaşması, onların dövlət qeydiyyatından keçməsi, beynəlxalq konfranslarda QHT-lərin təmsil olunması, donor və maliyyə problemlərinin həlli istiqamətində MQF-nin xidmətləri əvəzsizdir.

2002-ci ildə Milli QHT Forumu Media, qaçqın və köçkünlərlə işləyən QHT-lərə yardım, Narkomaniya ilə bağlı məruzənin hazırlanmasında QHT-lərin rolu, QHT-lərin dövlət qeydiyyatına alınmasının hazırkı vəziyyəti, Azərbaycanın inkişafında neft amili mövzularında dəyirmi masalar və seminar-müzakirələr təşkil etməklə QHT sektorunu bu proseslərə cəlb etmiş və onların ictimai fəallığını artırmışdır (1, s. 11, 12). Milli QHT Forumunun təsis edilməsi təkcə Bakıda deyil, eyni zamanda regionlarda ictimai təşkilatların inkişafına, ümumilikdə isə vətəndaş cəmiyyəti quruculuğuna müsbət təsir göstərdi.

Bu dövrdə QHT-lərin inkişafı istiqamətində əsas problemlərdən biri maliyyə problemi idi. QHT-lər qrant almır, könüllülük prinsipi əsasında fəaliyyət göstərirdilər. Vəsait çatışmazlığı ölkə daxilində fəaliyyət göstərən QHT-lərin layihə və proqramların təşkilini məhdudlaşdırır, ictimai təsisatların inkişafına mane olurdu. QHT-Donor münasibətlərinin zəif təşkilində daxili donorların azlığı da öz təsirini göstərirdi.

2007-ci ildə ölkə QHT-lərinin tarixində çox mühüm bir tarixi hadisə ilə yadda qaldı. Belə ki, Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası haqqında Azərbaycan Respublikasının Prezidenti 27 iyul 2007-ci il tarixli sərəncam imzaladı. Bu sərəncam ölkə QHT-lərinin inkişafında yeni mərhələnin əsasını qoyan əhəmiyyətli və tarixi bir sənəddir (1, s.15). Konsepsiyada QHT-lərə dövlət dəstəyinin prioritet istiqamətləri, icra mexanizmi, əsas prinsipləri, maliyyə dəstəyinin əsas vasitələri və s. nəzərdə tutulurdu. Konsepsiyada nəzərdə tutulan müddəaların icrasının zəruriliyi 2008-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Şurasının yaradılmasına əsas verdi. Şuranı ilk milli donor institutu da adlandırmaq olar. Bununla da ölkədə fəaliyyət göstərən vətəndaş cəmiyyətlərinin xarici donorlardan asılılığı məhdudlaşdırıldı (4, s.38). Bu mərhələ vətəndaş cəmiyyətinin inkişafında ciddi keyfiyyət dəyişikliyinə əsaslanaraq aşağıdakıları özündə ehtiva edirdi:

❖ Hakimiyyət və vətəndaş cəmiyyəti münasibətlərində mövcud olan qeyri-müəyyənlik birdəfəlik aradan qalxdı. Azərbaycan dövləti III sektor adlandırılan vətəndaş cəmiyyətinin inkişafının ölkənin inkişafı üçün vacib şərt olmasını ortaya qoydu;

❖ Vətəndaş cəmiyyəti ilə hakimiyyət arasında partnyorluq münasibətləri hüquqi müstəviyə keçdi;

❖ İlk milli ixtisaslaşmış donor təsisatı formalaşdı və bu proses sonradan digər ixtisaslaşmış donor təsisatlarının yaranmasına təkan verdi (3, s. 245);

Şuranın səmərəli fəaliyyəti Azərbaycanda QHT-hökumət münasibətlərinin tənzimlənməsinə, qarşılıqlı inam və etimadın yaranmasına, QHT-Donor münasibətlərinin təkmilləşməsinə, QHT-lərin dövlət qurumları ilə tərəfdaş qismində əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə, bu sahədə şəffaflığın təmin olunmasına təkan verdi. Şuranın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanda fəaliyyət göstərən QHT-lərin proqram və layihələrini maliyyələşdirmək idi. Şuranın səmərəli fəaliyyəti nəticəsində 2009-cu ildə ictimai təsisatların inkişafında mühüm rol oynayan digər qurum Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu təsis edildi.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması bütün QHT sektorunun, o cümlədən Milli QHT Forumunun fəaliyyətinin məntiqi yekunu kimi qiymətləndirmək olar (1, s. 6).

**Nəticə**

Müasir dövrdə davamlı demokratik inkişaf yolunu seçən ölkələrin inkişafını şərtləndirən əsas amil güclü vətəndaş cəmiyyətinin formalaşmasıdır. Vətəndaş cəmiyyətinin əsas elementi kimi isə QHT-lər bu prosesdə başlıca rola malikdirlər. İctimai birliklərin əsas səciyyəvi xüsusiyyəti onların ictimai maraqlara xidmət etməsi və cəmiyyətin sosial tələbatına əsasən formalaşmasıdır.

Azərbaycanda ilk ictimai birliklərin formalaşması XIX əsrin sonu XX əsrin əvvəllərinə təsadüf etsə də, respublikamızda III sektorun əsaslı inkişafı məhz dövlət müstəqilliyinin ikinci dəfə əldə edilməsi ilə bağlıdır. Xüsusilə 1995-ci il konstitusiyasının qəbulu, ictimai birliklərlə bağlı müddəaların qanunvericilikdə öz əksini tapması QHT-lərin inkişafı üçün münbit şərait yaratdı.

QHT-lərin cəmiyyəti narahat edən problemlərin həllində dövlətlə qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərməsi bu sahədə sabit və effektiv mexanizmin yaradılmasına, yeni münasibətlər modelinin formalaşmasına və nəticədə ölkədə vətəndaş cəmiyyətinin möhkəmlənməsinə xidmət edir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu: vətəndaş cəmiyyət quruculuğunda 10 il. Bakı: Avrasiya Press, 2008, 444 s.
2. Azərbaycan QHT sektoru dövlət müstəqilliyinin 20 ilində. Məqalələr və müsahibələr toplusu.. Bakı: Avrasiya Press, 2011, 344 s.
3. Azərbaycanın ilk Qeyri-Hökumət Təşkilatları. Bakı: Elm və təhsil, 2013, 93 s.
4. Hüseynov R. Hüquqi dövlət və vətəndaş cəmiyyəti. Bakı: Elm və təhsil, 2017, 136 s.
5. Vətəndaş Cəmiyyəti Təşkilatları: Ümumi İnkişafda Onların Rolu. Bakı: Demokratiyanı Öyrənmə İctimai Birliyi, 2011, 48 s.



***Резюме***

***Айсель Аллахвердиева***

***Создание и развитие НПО в Азербайджанской Республике***

Основным фактором, определяющим развитие верховенства закона, является наличие сильного гражданского общества. Необходимость устранения проблем социального характера, возникающих в различных сферах жизни общества, диктует необходимость деятельности государства и вспомогательных структур. Как ключевой сегмент гражданского общества, НПО действуют по принципу сотрудничества и партнерства с государственными органами в решении социальных проблем, стоящих перед обществом.

В статье рассматривается процесс становления и развития общественных объединений в Азербайджане. В конце XIX-начале XX века общества, сформировавшиеся в центре и в регионах, развивались в основном в направлении благотворительности и просвещения. Основной целью общественных объединений, объединяющих выдающихся интеллектуалов того времени, было просвещение людей, вовлечение их в науку и образование, устранение социальных проблем и борьба с невежеством. Наряду с благотворительными обществами в статье анализируются культурно-просветительские общества, роль обществ в формировании культурного мировоззрения азербайджанского народа.

В статье также представлен анализ современных НПО. Анализируется деятельность общественных объединений, образованных в Азербайджане после обретения независимости и играющих важную роль в построении современного гражданского общества.

В статье положительно оценивается роль государства в развитии госсектора. Анализируется забота и внимание государства к развитию НПО. Деятельность Национального форума НПО особенно важна в работе по организации НПО, ликвидации розничной торговли, регулированию отношений НПО-донор. Объединив вокруг себя сотни организаций, НПО ликвидировала розничную торговлю в этой сфере и расширила развитие государственного сектора от центра до регионов.

В статье особое внимание уделяется анализу деятельности Совета государственной поддержки НПО. Роль Совета в регулировании отношений между НПО и донорами и преодолении финансовых проблем в этой сфере высоко ценится.

В статье также анализируется роль женщин в формировании НПО. Рассматривается организация женщин не только в Баку, но и в регионах, их участие в местных и международных конференциях по проблемам женщин, детей и молодежи.

Развитие НПО в Азербайджане дало толчок развитию законодательства и формированию правовой базы в этой сфере. В результате в законодательство были включены положения, регулирующие деятельность общественных объединений, и была создана правовая база для деятельности НПО.

**Ключевые слова:** *гражданское общество, НПО, государственный сектор, отношения между НПО и донорами*

***Summary***

**Aysel Allakhverdiyeva**

***Establishment and Development of NGOs in the Republic of Azerbaijan***

The main factor determining the development of the rule of law is the existence of a strong civil society. The need to eliminate the problems of a social nature that arise in various spheres of society, necessitates the activities of the state and auxiliary agencies. As a key segment of civil society, NGOs operate on the principle of cooperation and partnership with government agencies in solving social problems facing society.

The article considers the process of formation and development of public associations in Azerbaijan. At the end of the 19th century and the beginning of the 20th century, the societies formed in the center and regions developed mainly in the direction of charity and enlightenment. The main purpose of the public associations uniting the prominent intellectuals of the time was to educate the people, to involve them in science and education, to eliminate social problems, to fight against ignorance. Along with charitable societies, the article analyzes cultural and educational societies, the role of societies in the formation of the cultural worldview of the Azerbaijani people.

The article also covers the analysis of modern NGOs. The activities of public associations formed in Azerbaijan after independence and playing an important role in building a modern civil society are analyzed.

The article positively assesses the role of the state in the development of the public sector. The care and attention paid by the state to the development of NGOs is analyzed. The activity of the National NGO Forum is especially important in the work on the organization of NGOs, the elimination of retail, the regulation of NGO-donor relations.

By uniting hundreds of organizations around it, the NGO has eliminated retail in this area and expanded the development of the public sector from the center to the regions.

The article pays special attention to the analysis of the activities of the Council of State Support to NGOs. The role of the Council in regulating NGO-Donor relations and overcoming financial problems in this area is highly appreciated.

The article also analyzes the role of women in the formation of NGOs. The organization of women not only in Baku, but also in the regions, their participation in local and international conferences on women, children and youth is being considered.

The development of NGOs in Azerbaijan has given impetus to the development of legislation and the formation of a legal framework in this area. As a result, the provisions regulating the activities of public associations were included in the legislation and the legal basis for the activities of NGOs was established.

**Keywords:** *civil society, NGOs, public sector, NGO-Donor relations*

Redaksiya heyətinin üzvü s.e.ü.f.d. Səyavuş Kamran oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT – 327.5**

# RUSİYANIN UKRAYNAYA QARŞI HİBRİD MÜHARİBƏ STRATEGİYASI

**Ceyhun ƏHMƏDLİ***

*Məqalə redaksiyaya daxil olmuşdur: 11 iyun 2021; çapa qəbul edilmişdir: 29 iyul 2021; online-da çap edilmişdir:30 sentyabr 2021.*

*Received: 11 th June, 2021; accepted: 29 th Jule, 2021; published online: 30 th September , 2021.*

**Açar sözlər:** *Rusiya, hibrid müharibə, hibrid təhdidlər, Ukrayna*

## Giriş

Ukrayna hökumətinin 2013-cü ildə Avropa İttifaqı ilə saziş layihəsinin müzakirəsini təxirə salmasına görə xalqın ayaqlanması şəraitində Prezident Viktor Yanukoviçin hakimiyyətdən devrilməsi və ardınca Qərbyönümlü qüvvələrin iqtidara gəlməsi son nəticədə Rusiya Federasiyasının Ukrayna ilə bağlı siyasətinin kardinal şəkildə dəyişməsinə gətirib çıxardı. Ukraynanın NATO və Avropa İttifaqı ilə yaxınlaşmasını strateji maraqlarına zidd hesab edən Moskva genişmiqyaslı hibrid müharibə strategiyası tətbiq edərək nəyin bahasına olursa-olsun, bu prosesi əngəlləməyi qarşısına məqsəd qoydu. Xüsusən, Krımın NATO təsir zonasına çevrilməsini həyati maraqları üçün başlıca təhdid kimi qiymətləndirən Rusiya bu ərazinin bir güllə belə atmadan ilhaqını gerçəkləşdirdi. İstər Krımın ilhaqı prosesi, istərsə də həmin hadisədən sonra Rusiyanın Ukraynaya yönəlik addımları beynəlxalq akademik dairələr tərəfindən real hibrid müharibə nümunələri kimi xarakterizə edilir.

## Separatizmin dəstəklənməsi və yaşıl adamlar

Hibrid müharibə nəzəriyyəsinə əsasən, üçüncü tərəfin münaqişəyə dolayı yolla qoşulması və ya prosesə hansısa formada müdaxilə etməsi hibrid müharibə strategiyasının əsas səciyyəvi xüsusiyyətlərindən biridir. Üçüncü tərəflərin əsas funksiyası isə münaqişəyə cəlb olunan dövlət və ya qeyri-dövlət iştirakçılarından birinə silah, döyüş texnikası, pul, hərbi təlim, kəşfiyyat, əsgər və ya muzdlularla bir növ, sponsorluq etməkdir. Şərqi Ukraynadakı müharibə bu cür qarşıdurmanın vacib bir nümunəsi kimi diqqəti cəlb edir. Rusiya dövləti separatçıları işğal etdikləri əraziləri nəzarətlərində saxlamaları üçün bütün lazımi dəstəklə təmin etdi. Nəinki silah-sursat və digər maddi resurslarla təminat həyata keçirildi, hətta Rusiyadan Şərqi Ukraynaya separatçılarla birgə döyüşmək məqsədilə könüllülərdən ibarət xüsusi qruplar göndərildi. Burada sosial şəbəkələrdə aparılan təbliğatın da böyük rolu oldu. Belə ki, sosial media üzərindən aparılan təbliğatın nəticəsində Rusiya Federasiyasından yüzlərlə mülki insan sərhədi keçərək buradakı rusiyapərəst nümayişçilərə qoşuldu [34]. Rusiyalı könüllülərin Ukraynaya keçərək nümayişçilərə qoşulmasının Rusiya kəşfiyyatı tərəfindən koordinasiya edildiyi irəli sürülmüşdür. Kiyev yönətiminin Rusiyanı QRU vasitəsilə etirazçıları təşviq etmək və onlara dəstək olmaqda günahlandırmasına baxmayaraq, Kreml bütün ittihamları rəd etmişdir [5, s.18].

Rusiyanın Ukraynadakı hadisələrə muzdlu hərbi birləşmələr vasitəsilə müdaxilə etdiyinə dair çoxsaylı iddialar irəli sürülmüşdür. Bu iddiaların birində vurğulanır ki, 2014-

* *doktorant, Bakı Dövlət Universiteti*
e-mail: jeyhun.ahmadli9204@gmail.com

cü ilin aprel ayından etibarən Rusiya dövlətinin pul ödəyib təlim keçdiyi yarı-hərbi dəstələr etiraz aksiyalarına qoşuldu [18]. Bundan əlavə, Moskvanın Serbiya [22], Moldova Respublikası, Rusiya Federasiyası və Ukraynadan [17] gətirdiyi muzdlular da etiraz aksiyalarında diqqət cəlb edirdi. May ayında Ukrayna Milli Təhlükəsizlik Xidməti Donbasdakı toqquşmalarda Rusiya dövlətinə bağlı Vaqner muzdlu hərbi birləşmələrinin olduğunu təsbit etdi [57].

Krımın ilhaqı prosesində yaşıl adamlar kimi simvolizə edilən silahlı şəxslərin rolu xüsusi olaraq qeyd olunmalıdır. Geyindikləri yaşıl uniformalarda heç bir ölkənin simvol və ya nişanı olmayan bu hərbi birliklər qısa zaman ərzində yarımadadakı bütün hökumət binalarını ələ keçirdi. Yaşıl adamların nəzarəti altında 2014-cü ilin 16 mart tarixində Krımın Rusiyaya birləşdirilməsi ilə bağlı referendum keçirildi. Rusiya dərhal referendumun nəticələrini tanıdı. Yaşıl adamlar kimi xarakterizə edilən bu hərbi birliklərin dəfələrlə Rusiya Ordusuna bağlı olduğu irəli sürülmüşdür. Xüsusən, həmin hərbçilərin rusca danışması və silahlarının Rusiya istehsalı olması bu istiqamətdə şübhələri daha da artırdı. Lakin Prezident Putin onları özünümüdafiə qrupları kimi təqdim etmişdir [53]. Beləliklə, Rusiya 2014-cü ildən etibarən Ukraynada separatizm meyillərinin alovlanmasına hər cür dəstək verməklə nəzəri olaraq bu ölkəyə qarşı hibrid müharibə reallaşdırmışdır.

### Casusluq əməliyyatları

Rusiyanın Ukraynaya qarşı tətbiq etdiyi hibrid müharibə strategiyası çoxşaxəli xarakteri ilə seçilirdi. Onun mühüm bir elementini də casusluq əməliyyatları təşkil edirdi. Hələ Viktor Yanuşenkonun prezident seçildiyi 2010-cu ildən etibarən Rusiya kəşfiyyatına bağlı şəxslərin Ukraynada fəallaşması və xüsusi nüfuz qazanması müşahidə olunmağa başladı [4, s. 468]. Bəlli olduğu kimi, Viktor Yanukoviç də Kremlə bağlı prezident idi. Onun seçki kampaniyasının xərclərinin Moskva tərəfindən ödənildiyi təkzibedilməz faktlarla öz təsdiqini tapmışdı. Prezident seçilən Yanukoviç Moskvanın bu dəstəyinin müqabilində müdafiə naziri və kəşfiyyat xidməti rəisi kimi strateji postlara Rusiya kəşfiyyatına bağlı fiqurları təyin etdi [42]. Bu təyinatlar Rusiyanın Ukraynada ən məxfi informasiya resurslarına sızmasını təmin etdi. Beləliklə, Ukrayna təhlükəsizlik qurumları faktiki olaraq Moskvanın tam nəzarəti altına keçdi. Bu isə Ukraynanın hər hansı böhran və ya xarici təhdidi önləyə bilməyəcək qədər zəifləməsinə gətirib çıxardı. 2012-ci ildə Yanukoviç Rusiya Prezidenti Putinin təkidi ilə İqor Kalinini Ukrayna Təhlükəsizlik Xidmətinin (SBU) rəhbəri təyin etdi. Rusiya vətəndaşı olan Kalinin keçmiş KQB agenti idi və Rusiyada təhsil almışdı [4]. Elə bu təyinatın nəticəsidir ki, 2015-ci ilin martında Ukrayna Prezidenti Pyotr Poroşenko SBU əməkdaşlarının 80 faizinin Rusiya agentləri olduğunu açıqladı [29]. 2014-cü ilin fevralında başlayan Ukrayna inqilabı zamanı Prezident Yanukoviçlə yanaşı SBU direktoru Oleksandr Yakimenko, Ukrayna Xarici Kəşfiyyat Xidmətinin (SZRU) direktoru Hrihoriy İlyasov və digər üst səviyyəli məmurlar Rusiyaya qaçdılar [46]. SBU-nun Krımdakı direktoru da işçilərinin 90 faizi ilə birlikdə öz dövlətinə xəyanət edərək Rusiyaya qaçdı [52]. SBU-nun yeni direktoru Kiyevdəki ofisinə gəldikdə bina bomboş idi [Yenə: 4, s. 475]. Əlavə olaraq, 22 min SBU görəvlisinin məlumatlarının toplandığı kompüterlər və disklər məhv edilmişdi ki, SBU ilə Rusiya Federal Təhlükəsizlik Xidməti (FSB) arasındakı əlaqələrin izi itmiş olsun [Yenə: 4]. Ukraynanın şərqində yerləşən Donetskdəki SBU xidmətçililərinin üçdə biri separatçıların sıralarına qoşulmuşdular. Bunlar içərisində SBU-nun Alfa xüsusi təyinatlı birləşməsinin rəhbəri Aleksandr Kadokovski də olmuşdur. Hansı ki, onun əsas vəzifəsi xarici agentləri və satqınları aşkar etməkdən ibarət olmuşdur [40]. Luqanskda da eyni mənzərə hakim idi [44]. Rusiya kəşfiyyatı öz casusları vasitəsilə Ukrayna xüsusu xidmət orqanlarının atacağı addımlar barədə əvvəlcədən məlumat əldə edir və keçiriləcək əməliyyatların uğursuzluqla nəticələnməsinə nail olurdu. Məsələn, 2014-cü ilin yazında Ukrayna ordusu və kəşfiyyat

qurumları Donbasdakı separatçıları qısa zaman içərisində məhv etmək üçün strategiya hazırladı. Lakin əməliyyatlar barədə Rusiya kəşfiyyatına məlumat sızdırıldığı üçün gözlənən nəticəni əldə etmək mümkün olmadı [54]. 2014-cü ilin fevral inqilabından sonra SBU [56] və SZRU-nun [55] yeni direktorları yüzlərlə xidmət əməkdaşlarını vəzifəsindən azad etdi, onlara qarşı vətənə xəyanət maddələri ilə cinayət işi açıldı. Daha sonra sözügedən qurumlara işçi qəbul edilərkən Rusiya agenti olub-olmadığını aşkar etmək üçün yalan maşını daxil olmaqla bir neçə sınama üsullarına müraciət olunmuşdur [27]. Rusiyanın illər ərzində Ukrayna dövlətinin strateji qurumlarında casus şəbəkəsi yaratması gələcəkdə böyük hibrid müharibəyə hazırlıq mərhələsini təşkil edirdi. Bu müddət ərzində Moskva Ukrayna ordusunun və təhlükəsizlik qurumlarının zəif tərəflərindən xəbərdar oldu və bir sıra yüksək postlara öz agentlərinin təyin olunmasını təmin etməklə bu qurumların fəaliyyətinə tam nəzarəti ələ keçirdi.

Ümumiyyətlə, casusluq fəaliyyəti təşkil etməklə Rusiya Ukrayna xüsusi xidmət orqanlarının məxfi məlumatlarına - kəşfiyyatda iştirak edən zabitlərinin adlarına, onların kod adlarına, döyüş planları, hərbi mövqeləri və s. - giriş imkanı əldə etmişdi. 26 aprel 2014-cü ildə SBU-nun Alfa qrupunun 3 nəfər xidmətçisi Donetsk bölgəsindəki Qorlivka şəhərində gizli bir əməliyyat zamanı separatçılar tərəfindən həbs olunmuşdu. Sonradan bəlli oldu ki, onlar SBU-dan məlumat sızması nəticəsində separatçılar tərəfindən tutulmuşdular [23].

2014-cü ilin dekabrında SBU direktoru xüsusi xidmət orqanlarının tamamilə Rusiya casuslarından təmizləndiyini desə də [56], müdafiə və təhlükəsizlik orqanlarında hələ də Rusiya kəşfiyyatına xidmət edən casusların olduğu istisna edilmirdi. Sonrakı dövrlərdə separatçılara qarşı həyata keçirilən bəzi əməliyyatların uğursuzluqla yekunlaşması bu fikri daha da gücləndirdi. Reallıq ondan ibarətdir ki, Rusiya kəşfiyyatı ötən müddət ərzində Ukraynanın strateji qurumlarına, dövlət idarələrinə, təhlükəsizlik və silahlı qüvvələrinə dərindən nüfuz etməyi bacarmışdı. FSB və Baş Kəşfiyyat İdarəsi (GRU) SBU-nun yüksək rütbəli zabitlərini ələ almaq üçün rüşvət, təzyiq, şantaj, təhdid və hətta fiziki zorakılıq üsullarını tətbiq edirdi [38].

**Sabotaj və gizli fəaliyyətlər**

Bu növ fəaliyyətlə Rusiyanın Ukraynada gerçəkləşdirdiyi hibrid müharibə strategiyasının mühüm elementlərini təşkil edirdi. 2014-cü ildən etibarən həm GRU, həm də FSB Ukrayna ərazilərində çoxsaylı gizli əməliyyatlar həyata keçirmişdir. Belə əməliyyatlar əsasən dəmiryol kommunikasiyalarını sıradan çıxarmaq, Ukraynanın separatçı bölgə ilə nəqliyyat əlaqəsini kəsmək məqsədilə həyata keçirilirdi. Məsələn, 20 yanvar 2015-ci ildə Zaporojye bölgəsini Donetsklə birləşdirən dəmiryolu körpüsü kömür yüklü bir qatar keçərkən partladıldı. Həmin dəmiryolu xətti Ukrayna ordusu tərəfindən münaqişə zonasına hərbi texnika və təchizat daşınması üçün geniş istifadə olunurdu. Ukrayna rəsmi dairələri intensiv xarakter alan belə bombardmanları Rusiyanın Ukraynaya qarşı apardığı hibrid müharibənin tərkib hissəsi kimi qiymətləndirsə də, Moskva bütün ittihamları rədd edirdi [48]. Belə gizli əməliyyatlar həm də ayrı-ayrı ictimai fiqurların aradan götürülməsi məqsədilə təşkil olunmuşdur. Məsələn, 23 mart 2017-ci il tarixində Rusiya Parlamentinin keçmiş deputatı və Vladimir Putinə qatı müxalif Denis Voronenkov Kiyevin mərkəzində qətlə yetirildi. Voronenkov 2016-cı ildə Rusiyadan qaçdıqdan sonra Ukrayna vətəndaşlığı qazanmışdı. Ukraynanın o vaxtkı prezidenti Pyotr Poroşenko hadisəni Kremlin tətbiq etdiyi dövlət terrorizmi kimi qiymətləndirmişdi [13]. 2017-ci ilin 27 iyununda Ukrayna xüsusi xidmət orqanlarının peşəkar zabiti polkovnik Maksim Şapoval Kiyevdə maşın partladılması nəticəsində öldürüldü [49]. Rusiya xüsusi xidmət orqanlarının gizli fəaliyyətlərindən biri də Ukrayna ərazisində etiraz aksiyalarını təşkil etmək və maliyyələşdirmək olub. SBU və SZRU 2016-cı ilin noyabrında açıqlama yayaraq Rusiyanın Ukraynada

sabitliyi pozmaq üçün qeyri-hökumət təşkilatları vasitəsilə süni etiraz mühiti yaratmağa cəhd etdiyini bildiriblər [35].

**İnformasiya və təbliğat strategiyası**

Düşmən ölkədə siyasi sabitlik pozmaqla düşmənin konvensional ordusunu daha rahat şəkildə məğlub etmək mümkündür. Amma hibrid müharibəni tam qələbə ilə başa vurmaq üçün bu, kifayət deyildir. Hədəf ölkənin xalqını və beynəlxalq ictimaiyyəti müharibənin bitdiyinə və edə biləcək heç bir şeyin olmadığına dair inandırmaq vacibdir [3, s.10]. Əks təqdirdə, xalqın iradəsi döyüş meydanındakı vəziyyəti dəyişdirə bilər. Psixoloji müharibənin ilk və əsas ünsürü təbliğatdır. Bu mənada hibrid müharibə tətbiq edən ölkənin güclü bir təbliğat maşınına ehtiyacı vardır.

Təbliğat kəlməsi ilk dəfə XVI əsrdə Vatikan tərəfindən istifadə olunmuşdur. Vatikan 1622-ci ildə İnanc Yayma Cəmiyyəti adlı bir təşkilat yaradır. Təşkilatın əsas məqsədi Katolik olmayan ölkələrdə Katolik inancını təşviq etmək olmuşdur [1, s. 2]. Təbliğat o vaxtdan bəri məqsədlərinə çatmaq üçün dövlət və qeyri-dövlət iştirakçıları tərəfindən getdikcə daha çox istifadə olunmaqdadır. Tədqiqatlar onu göstərir ki, təbliğat aparan tərəf hədəf ölkənin kütləsini çox yaxşı tanımalıdır.

2014-cü ilin 23 fevralından etibarən Kiyevdə Qərbyönümlü bir hökumətin iqtidara gəlməsi ilə Rusiya mediası Ukraynanın yeni hökumətinə qarşı genişmiqyaslı qara yaxma kampaniyasına start verdi və yeni hökuməti faşist ruhlu xunta kimi təqdim etdi [2, s. 13]. Kremlin apardığı təbliğat xüsusən Ukraynanın şərq hissələrində və Krımda effektiv oldu. Çünki bu ərazilərdə yaşayan əhali, əsasən, Rusiya TV kanallarını izləyirdi. Əhalinin böyük qisminin Rusiyaya meyilli olması Moskvanın işini daha da asanlaşdırırdı. Ukraynadakı inqilabdan sonra Rusiya təbliğat maşını Ukraynanı 1991-ci ildən öncə mövcud olmamış ölkə kimi təqdim edirdi [15].

Rusiya mediası Ukraynanı eyni zamanda rus etnik azlıqların sıxışdırıldığı bir ölkə kimi təqdim etdi. [Yenə: 2, s. 80]. Kiyevdə aksiyalar davam edərkən Kremlin mediası (Russiya-24 [6], Russia Today, Komsomolskaya Pravda [8] və NTV [7]) etirazçıları hüququn üstünlüyünə qarşı gələn radikal qüvvələr kimi xarakterizə etdi.

2014-cü ildən etibarən Rusiya təbliğat maşını Ukrayna dövlətini etibarsızlaşdırmaq, sivilləri və ordunu ruhdan salmaq, etnik qruplar arasında qarşıdurmanı körükləndirmək məqsədilə genişmiqyaslı iş apardı. Təbliğat əsasən aşağıdakı tezislər üzərində qurulmuşdu:

- Ukrayna inqilabı ABŞ CİA-nin rəhbərliyi və nəzarəti altında həyata keçirilirdi [11];
- Ukrayna uğursuz [45], Avropanın ən yoxsul ölkəsidir [50];
- Ukrayna ordusu 17 iyul 2014-cü ildə 283 sərnişinli Malayziya təyyarəsinin düşürülməsinə görə cavabdehdir [39];
- Ukrayna dövləti 2015-ci ilin fevralında əldə olunan Minsk razılaşmasına əməl etmir və Donbasda müharibəyə davam etməkdədir [12];
- Ukraynada separatçı hərəkat daha da genişlənir və digər ərazilər də Kiyevə tabe olmaq istəmir [10];
- Getdikcə daha çox hərbçi Ukrayna ordusundan ayrılmaq istəyir [16]. Ümumiyyətlə, Rusiya istər sosial şəbəkələr, istərsə də ənənəvi media vasitəsilə ukraynalı hərbçilərin əhvali-ruhiyyəsini pozmağa, eyni zamanda digərlərinin də Ukrayna ordusuna qatılmasına mane olmağa hesablanmış təbliğat strategiyası həyata keçirmişdir.

28 avqust 2018-ci ildə Ukrayna prezidenti Pyotr Poroşenko açıqlama yayaraq bildirdi ki, Rusiya dövləti 2019-cu ilin parlament və prezident seçkilərinə müdaxilə etmək üçün genişmiqyaslı manipulyasiya əməliyyatları təşkil edəcək [28]. Poroşenkonun fikrincə, Rusiya xüsusi xidmət orqanlarına bağlı minlərlə saxta sosial media hesabları seçki-

qabağı əhalinin düşüncəsinə təsir etmək məqsədilə geniş dezinformasiya kampaniyası təşkil edəcəklər. SBU minlərlə Ukrayna vətəndaşının Rusiya xüsusi xidmət orqanları tərəfindən pul qarşılığında əməkdaşlığa cəlb edildiyini açıqlamışdı. Rəsmi açıqlamada bildirilirdi ki, bir sıra ukraynalı sosial media istifadəçiləri müəyyən ödəniş müqabilində Kremlin narativlərini öz izləyiciləri ilə bölüşmüşdür [36].

Rusiya özünün təbliğat strategiyasını həyata keçirərkən Ukraynada yayımlanan media qurumlarından da geniş şəkildə istifadə edirdi. Bunun qarşısını almaq məqsədilə Ukrayna Milli Televiziyası və Radio Yayım Şurası 12 mart 2014-cü il tarixdə qərar alaraq, rus yönümlü bir sıra kanalların lisenziyasını ləğv etdi [41]. 15 aprel 2017-ci ildə bir sıra Rusiya kanallarının Ukraynada yayımına qadağa qoyuldu. Həmçinin, Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurası Rusiya mərkəzli sosial platformaları (Vkontakte və Odnaklassniki) və Yandeks axtarış sistemini blokladı [51]. Daha sonra başda Ukrainian Business Portal və RİA Novosti Ukraine kimi qurumlar olmaqla bir sıra Rusiya meyilli xəbər agentlikləri və radio stansiyalar, Rusiya dövlətinə aid bütün radio stansiyaları və Novosti, Sputnik, Prima, Vesti, Russia 1, Channel 1, NTV və Radio Vera kimi qurumların fəaliyyətinə qadağa qoyuldu [47].

**İqtisadi təzyiqlər**

Rusiya iqtisadi sanksiyalar yolu ilə də Ukraynana qarşı hibrid müharibə strategiyası həyata keçirmişdir. Rusiya Ukraynanın Avropa İttifaqı ilə müttəfiqlik haqqında saziş imzalayacağı bəlli olan kimi iqtisadi təzyiqlərinə start vermişdir. Rusiya 2014-cü il aprelin 1-dən Ukraynaya satdığı qazın min kubmetrinin qiymətini 268 dollardan 485 dollara qaldırdı [9]. Qazprom 2014-cü ilin iyununda borclarını ödəyə bilmədiyi üçün Ukraynaya qaz tədarükünü dayandırdı [32]. İqtisadi sanksiyalar təkcə təbii qaz idxalatı ilə məhdudlaşmırdı, Ukraynaya ixrac olunan demək olar, bütün məhsullar sanksiyalar paketinə daxil edildi. Rusiya 322 ukraynalıya qarşı sanksiyalar tətbiq etdi ki, bunların içərisində Ukraynanın üst səviyyəli rəsmi şəxsləri də var idi. Rusiya eyni zamanda 68 Ukrayna şirkətini sanksiyalar siyahısına daxil etdi. Bu şirkətlərin Rusiyadakı bütün aktivləri donduruldu [33].

Krımın ilhaqından və Donbasda müharibənin başlamasından sonra Rusiya iqtisadi rıçaqlardan istifadə edərək Ukraynada sabitliyi pozmağa çalışdı. Moskva Avropa yönümlü siyasətə üstünlük veriləcəyi təqdirdə rəsmi Kiyevin ödəməli olduğu bədəli göstərməyə çalışırdı. Kiyev Rusiyapərəst siyasət yürüdənə qədər bu sanksiyalar davam edəcəkdi. Rusiya bazarı Ukrayna ixracatı üçün strateji əhəmiyyət daşıdığına görə iqtisadi sanksiyalar onsuzda böhran içində olan Ukrayna iqtisadiyyatını ciddi şəkildə zəiflətdi. Ukraynanı ayaqda saxlayan isə Avropanın maliyyə institutları və ABŞ-dan əldə etdiyi yüksək məbləğli kredit və yardımlar oldu. Qərbin yardımları olmasaydı, Kiyev Moskvanın iqtisadi hücumlarına tab gətirə bilməzdi.

**Kiber müdaxilələr**

Rusiyanın Ukraynaya qarşı tətbiq etdiyi hibrid müharibənin əsas istiqamətlərindən birini də kiber hücumlar təşkil edirdi. Rusiya xüsusi xidmət orqanlarının Ukraynanın kiber məkanında gerçəkləşdirdiyi əməliyyatların bir qismi ilə tanış olaq:

- Ukrayna hökumətinin rəsmi veb saytı (www.kmu.gov.ua) Krımın ilhaq olunduğu gün çökdürüldü və 3 gün ərzində sayt qeyri-işlək vəziyyətdə qaldı [25];
- 3 mart 2014-cü ildə rusiyalı hakerlər Ukrtelecomun bazasından istifadə edərək Ukrayna parlamentinin üzvlərinin telefonlarına hücumlar təşkil etdilər. Ukrtelecom Ukraynanın əsas rabitə təminatçısıdır. Rusiya Ukraynanın rabitə sisteminin zəif tərəflərini çox yaxşı bilirdi, çünki Ukrtelecom Rusiya istehsalı olan telekommunikasiya və internet avadanlıqları ilə (SORM sistemi) idarə olunur [25];

- 22 may 2014-cü ildə prezident seçkilərindən üç gün əvvəl Ukrayna Seçki Komissiyası rus hakerlər tərəfindən kiberhücuma məruz qaldı [31];
- 23 dekabr 2015-ci ildə Rus hakerlər virusun köməyi ilə Ukraynanın qərb hissəsindəki 3 bölgəni, o cümlədən Kiyev bölgəsini elektrik enerjisindən məhrum etdi. Hadisə təxminən 225.000 istifadəçiyə enerji tədarükünün kəsilməsi ilə nəticələndi. Bu hadisəni bir neçə gün sonra ABŞ Daxili Təhlükəsizlik Nazirliyi də təsdiqlədi. ABŞ hökuməti elektrik kəsilməsinə ilk dəfə bir virusun səbəb olduğunu rəsmən etiraf etdi. Kiber təhlükəsizlik mütəxəssislərinə görə, bu, elektrik şəbəkəsində problemlərə yol açan ilk kiber hücum kimi tarixə düşdü [14];
- 17-18 dekabr 2016-cı ildə Kiyev elektrik şəbəkəsi yenidən virus hücumuna məruz qaldı və şəhərin şimal hissəsi bir müddət elektrik enerjisindən məhrum qaldı [26];
- Ukrayna Təhlükəsizlik Xidmətinin hazırladığı bir hesabata görə, 2016-cı ildə diplomatik qurumların, kritik infrastrukturun və dövlət təhlükəsizliyi qurumlarının telekommunikasiya sistemlərinə 247 kiber hücum təşkil olunmuşdir [30];
- Prezident Pyotr Poroşenko təkcə 2016-cı ilin noyabr-dekabr ayları ərzində Ukraynanın dövlət qurumlarına qarşı 6500 kiber hücumun təşkil olduğunu qeyd edir və bunun Rusiya dövlətinin Ukraynaya qarşı kiber müharibə başlatdığının güclü bir dəlili olduğunu söyləyir [21];
- 2017-ci ilin noyabrında Ukrayna Prezident Administrasiyası sədrinin müavini Dmitro Şimkiv Kiyev Posta verdiyi müsahibədə kiberhücumların 99 faizinin Rusiya tərəfindən edildiyini söylədi [19];
- 24 oktyabr 2017-ci ildə Odessa Havalimanının əməliyyat sistemi kiber hücuma məruz qaldı. Hücum nəticəsində müştərilərin məlumatları kompüterlərə işlənə bilmədi və nəticədə bir neçə uçuş təxirə salındı. Kiber hücumdan Kiyev metrosunun ödəmə sistemi də zərər gördü [24].

Bu kimi kiber hücumların siyahısını daha da uzada bilərik. Ümumilikdə, onu deyə bilərik ki, Ukrayna bu hücumların nəticəsində böyük maddi zərərlərə məruz qaldı. Maddi zərərdən ziyadə belə hücumların psixoloji effekti kifayət qədər güclü olurdu. Hər dəfə belə hücumlar təşkil olunduqca ölkədə böyük ajiotaj və qorxu effekti yaranırdı ki, Moskvanın da əsas hədəfi buna nail olmaq idi. Ukrayna əhalisinin öz dövlətinin təhlükəsizliyinə olan inamı sarsılırdı. Qeyd edək ki, kiber hücumların qarşısını almaq məqsədilə 2014-cü ilin oktyabrında Ukrayna dövləti tərəfindən Kibernetik Polis İdarəsi yaradılmışdır [43]. 2018-ci ilin yanvarında isə həmin idarəyə dəstək məqsədilə Kiber Təhlükəsizlik Mərkəzi formalaşdırılmışdır [37].

**Nəticə**

Rusiya hərbi doktrinasına görə hibrid müharibənin əsas hərəkət mərkəzi insan zehnidir. Dolayısılə, informasiya müharibəsi və psixoloji hərəkat Rusiya hibrid müharibə strategiyasının təməl alətləri kimi çıxış edir [20, s. 3]. Kreml bu alətlərdən istifadə etməklə hədəf ölkələrdə etnik, dini və ya mədəni yaxınlığı olan xalq kütlələrini manipulyasiya edir. Həmin kontingentin vasitəsilə süni şəkildə aksiyalar təşkil olunur ki, burada əsas məqsəd hədəf ölkədə siyasi sabitliyi pozaraq iqtidarları hansısa qərarı verməyə sövq etməkdir. Lakin yuxarıdakı nümunələrdən də bəlli olduğu kimi, Rusiyanın hibrid müharibə strategiyası təkcə psixoloji amillərlə kifayətlənmir. Kreml fiziki müstəvidə hibrid əməliyyatlar həyata keçirmək gücünə sahibdir. Bu, daha çox qanunsuz silahlı birləşmələrin köməyindən istifadə hallarını ehtiva edir. Krımın yaşıl adamlar tərəfindən ələ keçirilməsi və ya Donbasa döyüşmək üçün canlı qüvvələrin göndərilməsi buna nümunə göstərilə bilər. Bundan başqa, Ukrayna nümunəsi göstərdi ki, iqtisadi rıçaqlar, kiber müdaxilə və casusluq əməliyyatlarının həyata keçirilməsi Rusiyanın hibrid müharibə strategiyasının ayrılmaz komponentləri kimi diqqəti cəlb edir. Rusiyanın Ukraynaya qarşı 2014-cü ildən

etibarən tətbiq etdiyi yeni müharibə strategiyası Qərbdə hibrid müharibə fenomeninin aktuallaşmasına rəvac vermişdir. Rusiya-Ukrayna müharibəsindən sonra beynəlxalq akademik dairələr tərəfindən hibrid müharibələr konseptual şəkildə öyrənilməyə başlanmışdır. Bu müharibə NATO-nun da hibrid təhdidlərdən müdafiə strategiyası hazırlamasına gətirib çıxarmışdır. Bir sözlə, Rusiyanın Ukraynaya qarşı reallaşdırdığı hibrid müharibə bütün dünyada böyük əks səda doğurmuş və həm akademik araşdırmalara böyük təkan vermiş, həm də siyasi dairələrin mövzu ətrafında daha sıx işləməsinə şərait yaratmışdır.

**ƏDƏBİYYAT**


1. Garth S. Jowett and Victoria O'Donnel, Propaganda and Persuasion, SAGE publishing, Washington, 2012, 448 p.
2. Kofman and Migacheva, Lessons from Russia's Operations in Crimea and Eastern Ukraine. Rand Corporation, 2017, 109 p.
3. Murray ve Mansoor, Hybrid Warfare: Fighting Complex Opponents From The Ancient World To The Present, Cambridge University Press, 2012, 334 p.
4. Taras Kuzio, Ukraine: Democratization, Corruption, and the New Russian Imperialism, Praeger; Illustrated edition, June 23, 2015, 611 p.
5. Rapor: Rusya'nın Ukrayna'daki Hibrid Savaşı (2014-2018). SETA. 2020. https://setav.org/assets/uploads/2020/02/R152.pdf
6. Андрей Григорьев, Снайперами на Майдане руководили нынешние власти Украины, 19 февраля 2018, Россия 24. https://www.youtube.com/watch?v=Qq9nTX3MUV8
7. Майдан четыре года спустя: кто на самом деле расстреливал людей в центре Киева, НТВ, 25 fevral 2018, https://www.ntv.ru/novosti/1985460
8. Сергей Семушкин, Украинский генерал рассказал, чьи снайперы стреляли на Майдане, 13 mart 2014. https://www.kp.ru/daily/26206.4/3091229/
9. Andrey Ostroukh And Alexander Kolyandr, Gazprom Bill Puts Ukraine Under Pressure, Wall Street Journal, 24 aprel 2014 https://www.wsj.com/articles/SB10001424052702304788404579521042815435138
10. Balkanization? Southeast Ukrainian region demands greater autonomy, Russia Today, 28 avqust 2015, https://www.rt.com/news/313709-ukraine-zaporozhye-autonomy-draft/
11. Brokering power: US role in Ukraine coup hard to overlook, Russia Today, 19 fevral 2015, https://www.rt.com/news/233439-us-meddling-ukraine-crisis/
12. Bryan MacDonald, Four years after 'Euromaidan,' corruption is still king in Ukraine, Russia Today, 22 fevral 2018, https://www.rt.com/op-ed/419603-ukraine-maidan-poroshenko-eu/
13. Denis Voronenkov: ex-Russian MP who fled to Ukraine killed in Kiev, 23 march 2017, https://www.theguardian.com/world/2017/mar/23/former-russian-mp-denis-voronenkov-shot-dead-in-kiev
14. Dustin Volz, U.S. Government Concludes Cyber Attack Caused Ukraine Power Outage, Reuters, 26 fevral 2016, https://www.reuters.com/article/us-ukraine-cybersecurity-idUSKCN0VY30K
15. Eric Draitser, Solving the Crisis in Ukraine, 19 mart 2014, Russia Today, https://www.rt.com/op-ed/crisis-ukraine-russia-influence-570/
16. Farewell to Arms: Over 10,000 Soldiers Desert Ukrainian Army, Sputnik, 21 iyun 2015, https://sputniknews.com/europe/201506211023647747/
17. From Donbas to Syria: Investigation Reveals Ukrainians Fighting in Russian PMC Wagner, Euromaidan Press, 7 Haziran 2018. http://euromaidanpress.com/2018/06/07/karpaty-donbas-syria-the-ukrainian-mercenaries-russia-recruited-to-pmc-wagner/
18. Igor Rotar, The Cossack Factor in Ukrainian War, Jamestown Foundation, 13 Ağustos 2014. https://jamestown.org/program/the-cossack-factor-in-ukrainian-war/
19. Ilya Timtchenko, Shymkiv: Ukrainians Not Prepared for Cyber Attacks, Kyiv Post, 17 noyabr

2017-ci il, https://www.kyivpost.com/business/shymkiv-ukrainians-not-prepared-cyber-attacks.html
20. Janis Berzins, Russia's New Generation Warfare in Ukraine: Implications for Latvian Defence Policy, National Defence Academy of Latvia Center for Security and Strategic Research, Policy Paper, Aprel 2014. https://sldinfo.com/wp-content/uploads/2014/05/New-Generation-Warfare.pdf
21. Natalia Zinets, Ukraine hit by 6,500 hack attacks, sees Russian 'cyberwar', Reuters, 29 dekabr 2016, https://www.reuters.com/article/us-ukraine-crisis-cyber-idUSKBN14I1QC
22. Nemanja Rujevic, Serbian Mercenaries Fighting in Eastern Ukraine, Deutsche Welle, 14 Ağustos 2014. https://www.dw.com/en/serbian-mercenaries-fighting-in-eastern-ukraine/a-17855479
23. Oksana Grytsenko, Separatists Acted on a Tip to Capture SBU Officers, Ukraine's Security Service Says (VIDEO), 28 aprel 2014, https://www.kyivpost.com/article/content/war-against-ukraine/separatists-acted-on-a-tip-to-capture-sbu-officers-video-345439.html
24. Pavel Polityuk and Jack Stubbs, New Wave of Cyber Attacks Hits Russia, Other Nations, Reuters, 24 oktyabr 2017, https://www.reuters.com/article/us-ukraine-cyber-idUSKBN1CT21F
25. Pavel Polityuk and Jim Finkle, Ukraine Says Communications Hit, MPs Phones Blocked, Reuters, 4 mart 2014, https://www.reuters.com/article/us-ukraine-crisis-cybersecurity-idUSBREA231R220140304
26. Pavel Polityuk, Ukraine Investigates Suspected Cyber Attack on Kiev Power Grid, Reuters, 20 dekabr 2016, https://www.reuters.com/article/us-ukraine-crisis-cyber-attacks-idUSKBN1491ZF
27. Philip Shishkin, How Russian Spy Games Are Sabotaging Ukraine's Intelligence Agency, 11 mart 2015, https://www.wsj.com/articles/how-spy-games-are-sabotaging-ukraines-intelligence-agency-1426127401
28. Poroshenko: Kremlin creating tens of thousands of fake accounts in social networks ahead of Ukraine elections, UNİAN, 23 avqust 2018, https://www.unian.info/politics/10240584-poroshenko-kremlin-creating-tens-of-thousands-of-fake-accounts-in-social-networks-ahead-of-ukraine-elections.html
29. Poroshenko: 80% of SBU Staff Was Russian Agents, Zik, 26 Mart 2015. https://www.themoscowtimes.com/2015/03/27/ukraines-poroshenko-says-80-of-security-officials-were-russian-spies-in-2012-report-a45231
30. Results of certain areas of work of Security Service of Ukraine, Security Service of Ukraine, 23 dekabr 2016, https://sbu.gov.ua/en/news/1/category/1/view/2474#.FsizUxl8.dpbs
31. Robert Windrem, Timeline: Ten Years of Russian Cyber Attacks on Other Nations, NBC News, 18 dekabr 2016, https://www.nbcnews.com/storyline/hacking-in-america /timeline-ten-years-russian-cyber-attacks-other-nations-n697111
32. Russia cuts off gas supply to Ukraine after talks collapse, 16 iyun 2014, https://www.theguardian.com/world/2014/jun/16/russia-cuts-off-gas-supply-ukraine
33. Russia expands targeted sanctions against Ukraine, Radio Free Europe/Radio Liberty, 26 dekabr 2018, https://www.rferl.org/a/russia-expands-sanctions-ukraine/29675861.html
34. Sam Judah, Russian Site Recruits 'Volunteers' for Ukraine, BBC, 5 Mart 2014. https://www.bbc.com/news/blogs-trending-26435333
35. SBU and SZRU Statement about plans of Russian secret services to destabilize situation in Ukraine, 11.11.2017 (https://www.sbu.gov.ua/en/news/248/category/21/view/2238#.5NGmZSlP.dpbs)
36. SBU exposes Russian world promoters involved in election meddling plot, UNİAN, 30 avqust 2018 (https://www.unian.info/politics/10242963-sbu-exposes-russian-world-promoters-involved-in-election-meddling-plot.html)
37. SBU Head inaugurates the Cyber-Security Situation Centre, Security Service of Ukraine, 25 yanvar 2018, https://sbu.gov.ua/en/news/3/category/301/view/4318#.hk64OFrL.dpbs

38. SBU prevents attempt of Russian secret services to create source network among Ukrainian marines, Security Service of Ukraine, 25 noyabr 2016, (https://www.sbu.gov.ua/en/news/165/category/78/view/2343#.gXabCjBI.dpbs)
39. Serial numbers of missile that downed MH17 show it was produced in 1986, owned by Ukraine – Russia, Russia Today, 17 sentyabr 2018 (https://www.rt.com/news/438596-mh17-downing-russian-briefing/)
40. Shishkin, How Russian Spy Games Are Sabotaging Ukraine’s Intelligence Agency. 11 mart 2015 (https://www.wsj.com/articles/how-spy-games-are-sabotaging-ukraines-intelligence-agency-1426127401)
41. Stephen Ennis, Ukraine hits back at Russian TV onslaught, BBC 12 mart 2014, (https://www.bbc.com/news/world-europe-26546083)
42. Taras Kuzio, Russia Takes Control of Ukraine’s Security Forces, Jamestown Foundation, 19 Mart 2012 (https://jamestown.org/program/russia-takes-control-of-ukraines-security-forces/)
43. Tetiana Sviatenko, Cyber Police: What are Ukrainian Virtual Cops Doing?, 112. International, 5 fevral 2018 (https://112.international/article/cyber-police-what-are-ukrainian -virtual-cops-doing-25336.html)
44. The Surrender of Luhansk SBU, Ukrainian Week, 23 dekabr 2015 (https://ukrainianweek.com/Society/154191)
45. ‘Three strikes and you’re out: Ukraine is a divided, failed, rogue state’, Russia Today, 20 fevral 2017 (https://www.rt.com/op-ed/377978-ukraine-rogue-failed-state/)
46. Ukraine Accuses Russia of Breaking CIS Agreements over Yanukovych Extradition, Interfax-Ukraine, 12 yanvar 2015 (https://en.interfax.com.ua/news/general/243934.html)
47. Ukraine blocks access to additional Russian media outlets, UAWIRE, 27 may 2018 (https://www.uawire.org/ukraine-blocks-access-to-russian-internet-media)
48. Ukraine conflict: Bombings go beyond battle zone, by Vitaly Shevchenko, 7 February 2015 (https://www.bbc.com/news/world-europe-31107456)
49. Ukraine intelligence officer killed by car bomb in Kiev, 27 June 2017 (https://www.bbc.com/news/world-europe-40420339)
50. Ukraine is Europe’s poorest nation with $220 average monthly wage, 11 dekabr 2017, Russia Today (https://www.rt.com/business/412692-ukraine-poorest-country-europe/)
51. Ukraine to block Russia propagandist media, social networks for three years, UNİAN, 16 may 2017 (https://www.unian.info/politics/1924709-ukraine-to-block-russia-propagandist-media-social-networks-for-three-years.html)
52. Ukrainian Defectors in Occupied Crimea Sidelined, Relocated – Media, UNIAN, 5 oktyabr 2017 (https://www.unian.info/society/2171196-ukrainian-defectors-in-occupied -crimea-sidelined-relocated-media.html)
53. Vitaly Shevchenko, Little green men or Russian invaders?, BBC Monitoring (https://www.bbc.com/news/world-europe-26532154)
54. Who Committed Treason in Ukraine?, Taras Kuzio, Ukrainian Policy, 1 Mart 2016 (http://www.lucorg.com/news.php/news/9646)
55. Зі Служби зовнішньої розвідки України від початку року звільнили 249 співробітників, УНІАН, 21 oktyabr 2014 (https://www.unian.ua/politics/998932-zi-slujbi-zovnishnoji-rozvidki-ukrajini-vid-pochatku-roku-zvilnili-249-spivrobitnikiv.html)
56. Наливайченко каже, що всі зрадники в штабі АТО ліквідовані, Українська Правда, 12 dekabr 2014 (https://www.pravda.com.ua/news/2014/12/12/7051761/)
57. Цивілізований світ має створити єдиний фронт у протидії російській гібридній агресії – Василь Грицак (https://sbu.gov.ua/ua/news/1/category/314/view/5301#.JSELiCq3.dpbs)

***Summary***

***Jeyhun Ahmadli***

**Russia's Hybrid war Strategy Against Ukraine**

The purpose of the study is to analyze the key characteristics of Russia's hybrid warfare strategy against Ukraine since 2014. In this regard, the hybrid warfare tools used by Russia have been widely and consistently discussed. The article focuses on the metods of situational analysis and content analysis.

Today, the fight against hybrid threats is a key issue for international organizations and individual nations. The crisis in Ukraine has significantly changed the security paradigm in Europe. Russia popularized the concept of hybrid warfare starting with its 2014 annexation of Crimea. Changing a global security conjuncture by Russia turned hybrid warfare in a real threat to an overall stability. Against the background of emerging hybrid threats, NATO has undergone functional and structural changes to form a new security concept. Western academic and political circles think that hybrid warfare is the heart of Russia's military doctrine. Western countries and influential international institutions such as NATO, the European Union and the Council of Europe have described Russia's actions in Ukraine since 2014 as an example of a real hybrid war.

Russia's hybrid warfare strategy is multifaceted. These include disinformation and misinformation attacks, espionage operations, the use of illegal military units, economic sanctions, support for separatism, cyber-interference, the use of small Russian ethnic groups as an opportunity to influence, and so on. The article provides detailed information on each of these areas. In general, observations show that Russia has the ability to use hybrid warfare very effectively. The annexation of Crimea without firing a shot is a clear confirmation of this.

Since May 2014, Russia has used non-state actors in eastern Ukraine to act as its proxies in the war. It has supplied them with money and combat equipment and, thus, they have been able to take control of the Donetsk and Luhansk regions; shortly there after, they declared their independence. At the same time, Moscow started economic, psychological, and cyber warfare on Ukraine and has organized espionage activities on its territory.

**Key words**: *Russia, hybrid warfare, hybrid threats, Ukraine*

***Резюме***

***Джейхун Ахмадли***

***Стратегия гибридной войны России против Украины***

Цель исследования – проанализировать ключевые характеристики стратегии гибридной войны России против Украины с 2014 года. В этой связи широко и последовательно обсуждаются инструменты гибридной войны, используемые Россией. В статье рассматриваются методы ситуационного анализа и контент-анализа.

Сегодня борьба с гибридными угрозами является ключевым вопросом для международных организаций и национальных государств. Кризис на Украине существенно изменил парадигму безопасности в Европе. Россия популяризировала концепцию «гибридной войны», начиная с аннексии Крыма в 2014 году. Изменение Россией глобальной конъюнктуры безопасности превратило «гибридную войну» в реальную угрозу общей стабильности. На фоне возникающих гибридных угроз НАТО претерпела функциональные и структурные изменения, чтобы сформировать новую концепцию безопасности. Западные академические и политические круги считают, что гибридная война - это суть военной доктрины России. Западные страны и влиятельные международные институты, такие как НАТО, Европейский Союз и Совет Европы, описали действия России на Украине с 2014 года как пример настоящей гибридной войны.

Стратегия гибридной войны России многогранна. К ним относятся дезинформационные атаки, шпионские операции, использование незаконных воинских формирований, экономические санкции, поддержка сепаратизма, кибер вмешательство, использование небольших русских этнических групп как возможность влияния и так далее. В статье представлена подробная информация по каждому из этих направлений. В целом наблюдения показывают, что у России есть возможность очень эффективно использовать гибридную войну. Аннексия Крыма без единого выстрела - яркое тому подтверждение.

С мая 2014 года Россия использовала негосударственных субъектов на востоке Украины в качестве своих доверенных лиц в войне. Он снабдил их деньгами и боевой техникой, благодаря чему

они смогли взять под контроль Донецкую и Луганскую области; вскоре после этого они объявили о своей независимости. В то же время Москва начала экономическую, психологическую и кибервойну против Украины и организовала шпионскую деятельность на ее территории.

**Ключевые слова:** *Россия, гибридная война, гибридные угрозы, Украина*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327.8**

# DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN İLK MƏRHƏLƏSİNDƏ İNFORMASİYANIN FORMALAŞMASI VƏ YAYILMASI XÜSUSİYYƏTLƏRİ

**Şəfəq ƏHMƏDOVA**[*]

*Məqalə redaksiyaya daxil olmuşdur: 30 iyun 2021; çapa qəbul edilmişdir: 30 iyul 2021; online-da çap edilmişdir:30 sentyabr 2021.*
*Received: 30 th June, 2021; accepted: 30 th Jule, 2021; published online: 30 th September, 2021.*

**Açar sözlər:** *siyasi münaqişələr, etnik münasibətlər, informasiya və ictimai stereotiplər, təbliğat və dövlət siyasəti*

## Giriş

Hər bir sosial hadisədə olduğu kimi, Dağlıq Qarabağ münaqişəsinin də yaşanma və inkişaf tarixi var. Təbii ki, ictimai şüurda bu barədə məlumatlar əsasında ictimai stereotiplər formalaşır. Bu da öz növbəsində insan davranışına, onun təsəvvürlərinə, dəyərlər və normalar sisteminin təşəkkül tapmasına təsir göstərir. Məlumdur ki, adı çəkilən münaqişənin kökləri uzaq keçmişə, hələ çar Rusiya dövrünə gedib çıxır. Gülüstan və Türkmənçay müqavilələri bağlanandan sonra Azərbaycanın tarixi ərazilərinə kütləvi şəkildə erməni ailələri köçürülür və onların burada qalması üçün Çar Rusiya tərəfindən hər bir şərait yaradılır. Yerli əhali isə öz mövqelərini itirməkdə idi (ilk növbədə məskunlaşdığı əraziləri). Həyat tərzi, əmək sahələri, peşə strukturu kimi sosial yaşayış istiqamətləri əsaslı şəkildə dəyişilir, insanlar elə o vaxtdan etibarən yerdəyişmə prosesinə başlayır, üzünü İrana, Azərbaycanın digər bölgələrinə, Türkiyəyə və s. tuturdular.

Bu mərhələdə məlumatı yaymaq və ötürmək imkanları məhdud olsa da, eldən - elə, obadan-obaya xəbərlər, şayiələr yayılırdı ki, insanların şüuruna, təsəvvürlərinə təsir edirdi. Elə o vaxtlardan erməni obrazı Azərbaycan xalqının təfəkküründə mənfi mənada dəyərləndirməyə başladı. Üstəlik qardaş Türkiyə xalqının da Birinci dünya müharibəsində düşdüyü çətin vəziyyəti barədə də insanların təsəvvürləri yox idi. Müharibə şəraitində xəyanət edən erməniləri məcburiyyət qarşısında köçürən Türkiyə hökumətini indiyə qədər nəhəng təbliğat kompaniyasının nəticəsində uydurma genosid hadisəsində günahlandırırlar. 70 illik sovet dövrünə baxmayaraq çox da gözə çarpmayan, gizli təbliğat və praktik əməllər həyata keçirilir. Ermənilərə bu zaman Sovet hökuməti havadarlıq edirdi. Nəticədə 1948-ci ildə külli miqdarda soydaşlarımız Ermənistan ərazisindən Azərbaycana köçürüldü. Səbəbləri məlum idi: etnik təmizləmə siyasəti hər hansı bir bəhanə və səbəblə davam etdirilirdi.

Tarixin yeni dönüşündə, yəni SSRİ dağılanda erməni iddiaları və ümidləri yenə baş qaldırdı. Xarici diasporanın və yerli millətçi ünsürlərin səyləri nəticəsində xx əsrin 70-ci illərindən etibarən güclü təbliğat maşını hərəkətə gəldi. Azərbaycanda yaşayan heç bir erməni bu təbliğatdan kənarda qalmamışdı. Üstəlik gizli kompaniyalar (gizli şəkildə) keçirilir ki, bu təbliğata maddi dəstək olsun. Planlı şəkildə seperatist qüvvələr xaricdən dəstək almaqla bərabər, yerli azərbaycanlılara qarşı təzyiqlər göstərərək, əraziləri təmizləməyə başladılar. Burada informasiya təminatı, buna dəstək duran qüvvələrin fəaliyyəti

[*] *siyasi elmlər üzrə fəlsəfə doktoru, AMEA Fəlsəfə İnstitutu*
e-mail: shafag.ahmadova@gmail.com
*ORCİD: 0000-0002-8671-5757*

necə həyata keçirilirdi? Bu aktual bir məsələ olaraq tədqiqatımızın predmeti kimi ortaya qoyulur.

Məqalənin məqsədi Dağlıq Qarabağ münaqişəsinin ilk mərhələsində informasiya amilinin rolunu təhlil etməkdir. Bunun üçün bir sıra mənbələrə, ilk növbədə mətbuata, tarixi sənədlərə, müşahidələrə və elmi ədəbiyyata müraciət etmişik.

**Münaqişənin meydana gəlməsində informasiya amili**

Tarixi faktlar göstərir ki, hər hansı bir dəyişiklik, çevriliş, islahat ilk növbədə insan şüurunda formalaşır və hansısa şəkildə ifadə olunur. İnsanların ictimai şüuru adi şüur, gündəlik psixoloji qavrama səviyyəsində formalaşır. İnsan bir növ hər hansı bir məlumatı qavramağa hazır olmalıdır. Məsələn, klassik musiqini (simfoniyanı ya operanı) dinləmək, baletə baxmaq üçün musiqinin bu sahəsinə azdan – çoxdan bələd olmaq lazımdır. Hazırlıqsız insan üçün bu musiqi tam maraqsızdır. Siyasi şüur səviyyəsində də hər bir insan müəyyən siyasi mədəniyyətə malik olmalıdır ki, hər hansı bir siyasi hadisəni qavrasın. Mühüm amillər kimi burada həyat səviyyəsini, sosial strukturda insanın sosial statusunu, bir sıra hüquq və azadlıqlarının təmin edilməsini, milli özünüdərki göstərmək olar. Bu, kifayət qədər mürəkkəb fenomendir və bu məqalədə buna çox diqqət yetirə bilmərik, bununla belə başa düşməliyik ki, əhalinin savadlılığı, kommunikasiya xətləri (telefon, radio, televiziya, mətbuat), yaşadığı ərazidə infrastruktur (yollar, su, qaz, elektrik təchizatı, nəqliyyat, aişə xidməti və s.) hər hansı bir xəbəri, məlumatı qavramaq tərzinə və bu məlumatın reaksiyasına əsaslı şəkildə təsir edir.

Bəs DQMV şəklində SSRİ dövründə fəaliyyət göstərən Azərbaycanın bu ərazisində cərəyan etməyə başlayan hadisələrin informasiya təminatı necə həyata keçirilirdi? İlk növbədə tarixi faktların saxtalaşdırılmasında illər boyu qonşu xalqlar arasında nifaq salmaq məqsədilə tarixi faktlar təhrif olunurdu. Belə hallara yeri gələndə göz yumulur, əfsanəçiliklə məşğul olaraq müxtəlif yalançı ideyalar təlqin olunurdu. Məhz buna görə Dağlıq Qarabağda və Ermənistanda başlanan hadisələrə ilk günlərdə və aylarda düzgün qiymət verilməsinə qarşı çıxan qüvvələr çox idi (ilk növbədə hökumətin özü). Məsələn, 1990-cı ildə 28 yanvar tarixində Rusiyada, Mərkəzi televiziya kanalında, 7 gün verilişində çıxış edən aparıcı A.Tixomirov baş verən qanlı hadisələrdən danışıb tələb etdi ki, həmin hadisələrə siyasi qiymət verilsin. Həmin anda verilişi kəsdilər və ümumiyyətlə, 7 gün layihəsini yığışdırdılar. Baqanis-Ayrım kəndindəki qanlı qırğını işıqlandıran mətbuat orqanlarına da tövsiyə etdilər ki, erməni xalqının milli ləyaqətinə toxunmasınlar. Erməni Mədətovun həyata keçirdiyi qanlı əməliyyatlarını, Qarabağdan yığıb apardığı sərvətlərini, Qarabağ atları barədə canfəşanlıqla bəhs edən təbliğatçıların da əməllərini göstərmək lazımdır [13].

Bu baxımdan belə bir nəticə çıxarmaq olar ki, informasiyanın yayılmasına, onun məzmununun necə çatdırılmasına xüsusi diqqət yetirilirdi. Məlum faktdır ki, SSRİ dövründə dövlət senzurası birtərəfli yanaşaraq beynəlmiləlçilik prinsipləri xatirinə bu və digər məlumatı, xəbəri, faktı ideoloji don geyindirib yayırdı. Dövlət senzurasında çalışan məmurlar sırasında erməni millətindən olan işçilər isə əsaslı şəkildə faktların obyektivliyinə yol vermir, ört-basdır edir və yaxud saxtalaşdırırdı. Elə Əkinçi qəzetinin nəşrinin iki il ləngiməsi, sonradan bağlanmasında məhz erməni mənşəli məmurlar olmuşlar [4]. Belə faktları yüzlərlə gətirmək olar. Beləliklə, hələ münaqişədən qabaq, sovet ideoloji maşını bəyan etdiyi beynəlmiləlçilik, xalqlar dostluğu şüarının altında əslində müsəlman xalqlarına qarşı digər xalqlardan fərqli siyasət həyata keçirilirdi. Bunu açıq-aşkar erməni elitaya üstünlük verilməsindən onların ideyalarının həyata keçirilməsində (müxtəlif yollarla) müşahidə etmək olar [5].

Yalnız yenidənqurma adlanan illərdə (80-ci illərin ortalarından etibarən) mətbuatımızda erməni etnosu, dövləti, əməlləri barədə tarixi faktlar, tənqidi fikirlər icmal şəklində çap olunmağa başladı. SSRİ səviyyəsində yenə də KİV-də əvvəli xülyalar və böhtanlar

səslənirdi [9]. Yazıçılar, jurnalistlər, elm xadimləri, ilk növbədə tarixçilər, şərqşünaslar, ədəbiyyatşünaslar Azərbaycan ərazisi, etnosu bunlarla bağlı tarixi faktorları ictimaiyyətin nəzərinə çatdırmağa çalışmışlar. Buna misal olaraq Azərbaycan mətbuatında bir sıra yazıları gətirmək olar [8; 12 və s]. Əgər informasiya məkanının formalaşması prosesini müəyyən mərhələlərə bölsək, onda aşağıdakı məqamları vurğulamaq olar.

**XIX əsrin II yarısında yaranan sosial-siyasi və iqtisadi vəziyyətlə bağlı məlumat**

Burada real və uydurulmuş faktların əhaliyə çatdırılması, bunlardan siyasətdə istifadə olunması (hər hansı bir idarəçilik səviyyəsində, yerli orqanlardan (o cümlədən dini təşkilatlara aid) çarın rezidensiyasına qədər) məqsədyönlü şəkildə çar Rusiyasının müstəmləkəçilik siyasəti, üstəlik erməni dini icmasının miatsum fəaliyyəti şəklində reallaşdırılırdı. Azərbaycan xalqının mütərəqqi nümayəndələri (ilk növbədə yazıçılar, şairlər, yerli idarəçiliyin yüksək səviyyədə məmurları, zadəgan nəsillərinin nümayəndələri, xalq hərəkatının ayrı-ayrı təmsilçiləri və s) öz növbəsində bacardıqları qədər bu siyasətə qarşı çıxış edirdilər. Buna misal olaraq xalqın maarifləndirilməsi naminə dünyəvi məktəblərin açılmasını, yerli mədəni nümunələrinin toplanmasını, bir çox maarifpərvər insanların xaricdə təhsil almasını göstərmək olar (СМОМПК) [7].

İkinci mərhələ XIX əsrin sonu – XX əsrin ilk illərini əhatə edir. Bu dövrdə kapitalizmin inkişaf xüsusiyyətlərinə uyğun olaraq milli özünüdərk prosesi sürətlənir, milli mənliyə, xalqın tarixinə münasibət dəyişir. Nəticədə qabaqcıl maarifpərvər, müstəqil düşüncəyə malik olan insanların sayı artır. Milli ziyalı təbəqəsi xalqın dirçəldilməsinə, onun mənəvi-mədəni inkişafının sürətləndirilməsi naminə mətbuatı, maarifi, müxtəlif mədəni sahələri inkişaf etdirməyə çalışır, siyasi idarəetmə strukturlarını təkmilləşdirməyə çalışır. Tarix, incəsənət, iqtisadiyyat təhsil ilə bağlı araşdırmalar aparılır, bunlar da öz əksini mətbuatda, incəsənət, ədəbiyyat sahələrində yaradılan əsərlərində, iqtisadi sahələrin inkişafında öz əksini tapır. Bütün bunlar Azərbaycan xalqının qədim tarixi keçmişinə, zəngin inkişafına malik olmasının sübutu olmuşdur. Bu mərhələ 2018-ci ildə 28 aprel tarixində Sovet Rusiyanın ölkəyə qoşunların yeridilməsi ilə bitir.

Növbəti mərhələ Sovet dövrünü əhatə edir. Vahid, nəhəng siyasi sisteminin bir halqası olan Sovet Azərbaycanında etnik təfəkkürün inkişafı milli dildə oxumaq, milli mədəniyyəti inkişaf etdirməklə məhdudlaşdırılırdı (burada xüsusi ideoloji buxovun olmasını unutmayaq). Eyni zamanda islam dininə mənsub olan bizim xalqımızın (digər müsəlman xalqları kimi) statusu heç də bölgədə ən yüksək deyildi. Milli nifaq salmaq xofu səbəbinə tarixi faktlar təhrif olunur, yalançı məlumat, əfsanələr uydurulub qüdrətli təbliğat aparatı ilə insanların şüurunda aşılanırdı. Burada diaspora və yerli ziyalı təbəqənin əlaqələrin zəifliyi də qeyd olunmalıdır. Bütün bunlara baxmayaraq, elm, təhsil sahəsində əldə edilən nailiyyətlər əsasında Azərbaycan, burada yaşayan xalqların keçmişi və indiki haqqında informasiya xeyli genişlənmiş və mənimsədilmişdir. Bununla belə, mövcud rejimin səylərinə baxmayaraq, tarixi yaddaş tam silinməmiş, mütərəqqi ziyalılarımızın haqqı üzə çıxmağa çalışırdılar. Bu istiqamətdə aparılan işlər yenidənqurma dövründə daha genişlənmiş, ictimai şüurda inqilabi dəyişikliklər baş verirdi. Yenidənqurma dalğasında həm də illərlə gizlədilmiş, lakin həll edilməmiş məsələlər üzə çıxdı ki, bunların nəticəsində seperatçı meyllərin güclənməsi baş verdi, münaqişəyə meydan açıldı.

Dağlıq Qarabağ münaqişəsinin ilk əlamətləri meydana gəldikcə sovet hökuməti köhnə şüurlarından (beynəlmiləlçilik, dostluq və s.) istifadə etməyə çalışır, bununla belə ölkənin real dağılması təhlükəsini özündə aşılada bilmirdi. Nəticədə Baltikyanı ölkələrdə, Dnestryanı ərazilərində, Cənubi Qafqazda közərən ocaqlar alovlanmağa başladı. Bir çox amillər var idi ki, xalqın belə ikili siyasətə etiraz dalğasının ucalmasına səbəb olurdu. Lakin belə müqavimət amansızcasına yatızdırılırdı (20 yanvar faciəsi). Buna baxmayaraq, belə hallara qarşı etiraz səsi günü-gündən ucalırdı. Yeni qəzetlər təsis edilir, telekanallarda

debatlar təşkil olunur, xarici xəbər agentliklərə, KİV orqanlarına çıxış axtarılırdı. Onlarla yüzlərlə məqalələr, xəbərlər, faktlar vasitəsilə həqiqət axtarışı axtarılırdı. Bununla belə, ölkədaxili qeyri-sabitlik (hökumət səviyyəsində) informasiya məkanının məharətli idarə olunmasına böyük maneələr törədirdi. Sistemli şəkildə öz mövqeyini dünya ictimaiyyətinə çatdırmaq, onu müdafiə etmək imkanı hakimiyyətə Ümummilli lider Heydər Əliyevin gəlişi ilə mümkün oldu. Tədricən daxili sabitlik şəraitində Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırılması mümkün oldu. Xalqımızın dilinə, tarixinə, mənşəyinə, sosial-iqtisadi və mədəni inkişaf sahələrinə biganə qala bilməyən ziyalılar öz fikirləri ilə mətbuat səhifələrində bölüşür, tədqiqat aparırdılar [2].

Xalqı düşündürən elə həmin məsələlər idi: Azərbaycanın bir çox ərazilərinə erməni adı verilməsi, məmurların çıxışlarında Dağlıq Qarabağın Ermənistan ərazisi kimi göstərilməsi, uzun müddət ərzində təxribat xarakterli işlərin aparılması (krunk təşkilatı Böyük Erməni dövləti ideyası ətrafında fəaliyyət və s.), Azərbaycan əhalisinin hər bir bəhanə ilə öz yaşadığı ərazilərdən sıxışdırılıb çıxarılması və s. [6]. Tarixi faktlara, müxtəlif mənbələrə müraciət etməklə bir çox suallara cavab axtarılırdı: Azərbaycanın ən qədim və bu günə kimi dövrlərdə əhalisi , onun iqtisadi və siyasi həyatı necə olub [1].

Toplanılan məlumat, aparılan fikir mübadiləsi əsasında real, praktik tövsiyələr, mülahizələr irəli sürülürdü. Aydın idi ki mərkəzi hökumət antiazərbaycan mövqeyində duraraq burada şovinist meylləri axtarmağa çalışır, erməni tərəfinə haqq qazandırırdı, halbuki bunu bəzən aşkar şəkildə etmirdi. Məhdud millətçi mövqeyində duran erməni seperatçıları və onların havadarlarının əməllərini milli mətbuatımız ifşa edir, eyni zamanda qonşu olduğumuz erməni xalqı ilə hansı real zəmində münasibətləri qurmaq mümkünlüyü də müzakirə edilirdi. Sovet mətbuatının nümayəndənləri də ayrı-ayrı hallarda həqiqəti, reaə faktları oxuculara çatdırır, sadə insanların vəziyyətini təhlil edirdilər [11].

**Dağlıq Qarabağ münaqişəsinin açıq və latent fazlarında informasiyanın formalaşm ası və istifadəsi xarakteristikası**

Ermənistan və onun havadarları tərəfindən törədilən Dağlıq Qarabağ münaqişəsi çoxsaylı insan itkiləri, bir milyona yaxın qaçqınların və məcburi köçkünlərin meydana gəlməsi ilə nəticələndi, ərazi itkiləri, maddi sərvətlərin dağıdılması və talan edilməsi kimi ağır nəticələr, münaqişənin davam etməsi ölkənin inkişafına böyük zərbə vurmuş, sarsıtmışdır. Bununla belə, müstəqillik illərində münaqişə şəraitində, ağır keçid dövrünü yaşayan ölkəmiz bir sıra cəsarətli addımları atmaqla (atəşkəs rejiminin yaradılması, Əsrin müqaviləsi neft kontraktının imzalanması) sabitliyə və davamlı inkişafa nail olmuşdur. İnformasiya məkanında öz mövqeyini əsaslandırmaq, möhkəmləndirmək və dünya ictimaiyyətinə çatdırmaq üzrə xeyli işlər görülüb (internet səhifələrinin yaradılması, Azərbaycanın xaricdə nümayəndəliklər, səfirliklər diaspora vasitəsilə informasiyanın yayılması), əlavə olaraq, tarixi coğrafiya, etnoqrafiya, epiqrafika, toponimika, şifahi ədəbiyyat sahələrində tarixi Azərbaycan ərazilərində vəziyyət təhlil edilmiş, bu sahədə xeyli elmi və publisistik xarakterli ədəbiyyat işıq üzünü görmüşdür.

Xüsusi diqqət indiki Ermənistan ərazisində vaxtı ilə yerləşmiş Azərbaycan kəndləri, şəhərləri onların tarixi haqqında, mənəvi mədəniyyətlə bağlı biliklər, faktlar toplanılır və təhlil olunur. Bundan başqa, Dağlıq Qarabağ ərazisində tarixən formalaşan folklor nümunələri, ədəbi məktəblər, musiqi janrların inkişafı, iqtisadi inkişaf, siyasi proseslər dərində öyrənilir və təhlil olunur [4; 7]. Ölkəmizdə bu istiqamətdə elmi araşdırmalar xeyli genişlənmiş, xüsusi elmi bölmələrdə müvafiq işlər müntəzəm olaraq aparılır.

Bununla belə, informasiya amilinin rolunu bu münaqişədə artırmaq zərurəti var. Bunun səbəbi ilk növbədə münaqişənin dondurulmuş vəziyyətidir. Burada de-fakto ərazilər qonşu ölkə tərəindən zəbt olunub. Dünya ictimaiyyəti vəziyyəti birmənalı qiymətləndirmir. Beynəlxalq siyasi qurumlar qeyri-müəyyən mövqe tutaraq regional qüvvələrin

nisbətində açıq-aşkar asılılığını nümayiş edir. Belə şəraitdə Azərbaycan hökuməti bir çox istiqamətlərdə fəaliyyət göstərməklə yanaşı (hərbi qüdrətinin təmin edilməsi, iqtisadi sabitliyə nail olunması, milli özünüdərkin azərbaycançılıq ideologiyası əsasında formalaşması və s.) həm də informasiya təhlükəsizliyini təmin etmək baxımından mühüm addımlar atır. Ən əsası ölkəmizin tarixinə və indikinə aid olan hər hansı bir obyektiv məlumatı toplamaq, təhlil etmək və real praktikada istifadə etməkdir. Bunun üçün sosial həyatın bütün sahələrində fürsət və imkanlardan səmərəli istifadə edilməlidir (elm, təhsil, iqtisadi həyatı, incəsənət və bütövlükdə mədəniyyət). Ölkəmizin zəngin tarixini, mədəniyyətini qabarıq şəkildə göstərmək üçün, yubiley tədbirləri, festivallar, mədəniyyət günləri təşkil olunur, abidələr bərpa edilir, yeniləri ucalır. Təlim-tərbiyə işlərində hər bir vətəndaşı gənc yaşlarından vətən biliklərinin əldə etməı, özündə aşılamaq, milli ruhda tərbiyələndirmək baxımından sosiallaşdırma prosesinə cəlb etməliyik.

Xaricdə bizim ölkəni təmsil edən hər bir vətəndaşın yaxud qurumun bunu layiqincə etməsinə nail olmalıyıq. Sosial kapitalı təşkil edən ən dəyərli qüvvəmiz insanlardır. Savadlı, zəkalı, sosial fəallığı yüksək insanlar ölkəmizi layiqincə təmsil edə bilərlər. bu baxımdan təhsil sistemində vaxtı-vaxtında islahatlar aparmaq, tədrisin keyfiyyətini yüksəltmək lazımdır. Bütün bu istiqamətlərdə işlər aparılır. Bununla belə ictimai nəzarəti, aşkarlığı genişləndirmək, əsas amalımıza cavab verən fəaliyyəti genişləndirmək və yaxşılaşdırmaq lazımdır.

**Nəticə**

Yuxarıda verilən təhlil əsasında belə bir qənaətə gəlmək olar ki, hər hansı bir tarixi mərhələdə, obyektiv məlumatın əldə edilməsi olduqca önəmli olmuşdur. Məlumat hərəkətlərin düzgün olmasını, qərarın verilməsini təmin edir. Buna görə də məlumat siyasi proseslərdə strateji əhəmiyyət kəsb etmişdir. Tarixdən məlumdur ki, məlumatı gizli saxlamaq üçün və yaxud onu əldə etmək üçün xüsusi səylər göstərilirdi (kəşfiyyat, casuslar və s.). müasir dövrdə sosial-siyasi münasibətlər olduqca, mürəkkəb xarakter daşıdığı üçün informasiya təminatının da əhəmiyyəti olduqca artıb. Regioanl xarakterli, lakin beynəlxalq əhəmiyyətli Dağlıq Qarabağ münaqişəsinin dərin tarixi kökləri və mürəkkəb əsasları var. Bu baxımdan burada hərəkətdə olan və ictimai şüurun, rəyin formalaşmasında mühüm əhəmiyyət kəsb edən məlumatın təhlili göstərir ki, obyektiv faktlarla yanaşı burada təhrif edilmiş, süni şəkildə qurulmuş faktlar da var. Müasir dünya nizamını formalaşdıran siyasi qüvvələrin əlində belə məlumat təzyiq və təhrif vasitəsinə çevrilir. Ölkəmizin idarəçilik strukturlarının vəzifəsi möhkəm informasiya sədinin yaradılmasıdır ki, istər ölkədə, istərsə də ölkənin hüdudlarından kənarda obyektiv və müsbət imic yaradılsın. Dağlıq Qarabağ münaqişəsinin həllində informasiya amili əsas amillər sırasındadır.

## ƏDƏBİYYAT


1. Abdullayev M. Ərəb mənbələri Azərbaycan haqqında // Odlar yurdu, 5-6 mart 1989-cu il.
2. Aşurbəyli S. Azərbaycanın paytaxtı // Ədəbiyyat və incəsənət, 1 dekabr 1989, 48 (2391).
3. Cəmil A. Yolları bağlı dağlar // Azərbaycan (Qarabağa xalq yardımı komitəsinin məlumat qəzeti), 06.11.1980.
4. Quliyev V. Azərbaycan mətbuatına qənim kəsilənlər // Ədəbiyyat və incəsənət, 15 sentyabr 1989-cu il.
5. İsmayılov İ. Ermənilərin soyqırımı, repressiya və deportasiya siyasəti // Azərbaycan, 24 aprel 2001-ci il.
6. Qəlbi A. Niyə belə olsun? // Zavod həyatı, 31 iyul 1988-ci il.

7. Oruclu S. Azərbaycan folklorunun rus dilinə tərcüməsi probleminin özünəməxsuslu-ğu (1989-1990). Bakı: Səda, 2007, 204 s.
8. Xəlilzadə F. Obası dağılmış ellər // Azərbaycan, 24 aprel 2001-ci il.
9. Zəngəzurlu H. Erməni məkri // Azərbaycan, 24 aprel 2001-ci il.
10. Акулова О. Полоса раздора // Сельская жизнь, 6 октября 1988 г.
11. Асадов Ф. Позиции сторон и интересы страны // Бакинский рабочий, 30 июля 1989 г.
12. Буниятов З. Мифы и мифотворцы // Azərbaycan (Qarabağa xalq yardımı komitə-sinin məlumat qəzeti), 06 noyabr 1980-ci il.
13. Ибрагимов Ш. Закон компенсации // Бакинский рабочий, 1 fevral 1990-cı il.

***Резюме***

Шафаг Ахмедова

***Особенности формирования и распространения информации на первом этапе Нагорно-Карабахского конфликта***

В данной статье анализируются процессы распространения информации и ее использования на ранних этапах Нагорно-Карабахского конфликта. Через анализ исторически сложившейся политической карты региона раскрывается роль информации в процессе возникающего конфликта. Анализируется роль информации на последовательных этапах, приводятся конкретные факты. Показано, что внутриполитическая нестабильность сформировалась в результате распада СССР, а переходный период независимости усугублялся рядом социально-экономических трудностей и горькими последствиями военного конфликта. Это тысяч беженцев и вынужденных переселенцев. В то же время с момента нагнетания напряженной обстановки до уровня открытого военного противостояния возник ряд трудностей с получением, распространением и использованием информации. В статье анализируется этот процесс и делается вывод о том, что информация всегда была важна в политической жизни и в политических процессах и должны использоваться эффективно. Цель статьи – сформулировать идею о том, что региональные конфликты могут быть разрешены не только традиционными методами и средствами, но также путем переговоров, встреч и развития народной дипломатии. Следует также обеспечить углубленное изучение и анализ доступной и полезной информации в рамках разрешения конфликта. Идея состоит в том, что мифотворчество, которое являются неотъемлемой частью политического управления в политических процессах, широко используется в Нагорно-Карабахском конфликте. Информация передается сознанию людей, на уровне обыденного сознания, через сфабрикованные факты, и искаженные исторические события, и подобная информация передается международным организациям «обоснованным» образом. При рационализации общественного сознания мифология формируется как целостная система мировоззрения и влияет на процесс политической социализации людей. Тем не менее символически представленные мифологические архетипы сохраняют свое значение в семантическом пространстве социальной реальности, выступая в качестве отличительных черт политического мышления.

**Ключевые слова**: *политические конфликты, этнические отношения, информационные и общественные стереотипы, пропаганда и государственная политика*

***Summary***

Shafag Akhmadova

***Features of the Formation and Dissemination of İnformation at the First Stage of the Nagorno-Karabakh Conflict***

This article analyzes the processes of dissemination of information and its use in the early stages of the Nagorno-Karabakh conflict. An analysis of the historically formed political map of the region reveals the role of information in the process of conflict. The role of information at successive stages is analyzed, specific facts are given. It is shown that domestic political instability was formed as a result of the collapse of the USSR, and the transition period of independence was aggravated by a number of socio-economic difficulties and the bitter consequences of the military conflict. These are thousands of refugees and internally displaced persons. At the same time, from the moment the tense situation escalated to the level

of open military confrontation, a number of difficulties arose with the receipt, dissemination and use of information. The article analyzes this process and concludes that information has always been important in political life and in political processes and should be used effectively. The purpose of the article is to formulate the idea that regional conflicts can be resolved not only by traditional methods and means, but also through negotiations, meetings and the development of public diplomacy. In-depth study and analysis of available and useful information as part of the resolution of the conflict should also be ensured. The idea is that myth-making, which is an integral part of political governance in political processes, is widely used in the Nagorno-Karabakh conflict. Information is transmitted to the consciousness of people, at the level of everyday consciousness, through fabricated facts, and distorted historical events, and similar information is transmitted to international organizations in a justified way. With the rationalization of public consciousness, mythology is formed as an integral system of worldview and affects the process of political socialization of people. Nevertheless, the symbolically represented mythological archetypes retain their significance in the semantic space of social reality, acting as distinctive features of political thinking.

**Keywords**: *political conflicts, ethnic relations, information and public stereotypes, propaganda and public policy*

Redaksiya heyətinin üzvü s.e.d., prof. Hikmət Babaoğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT: 94**

# ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNİN QAYNAR FAZASININ (1989-94-CÜ İLLƏR) BÖYÜK BRİTANİYA MƏTBUATINDA İŞIQLANDIRILMASI

**Ülviyyə HÜSEYNOVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 19 may 2021; çapa qəbul edilmişdir: 9 iyul 2021; online-da çap edilmişdir:30 sentyabr 2021.*

*Received: 19 th May, 2021; accepted: 9 th Jule, 2021; published online: 30 th September, 2021.*

**Açar sözlər:** *münaqişə, məqalələr, təhlil, mətbuat, Qarabağ, müharibə*

## Giriş

Ermənistan-Azərbaycan münaqişəsinin Böyük Britaniya mətbuatında işıqlandırılmasının təhlili mövzunu fərqli kateqoriyalara uyğun qruplaşdırmağı və hadisələrin təqdim olunmasına retrospektiv bucaqdan yanaşmanı tələb edir. Mətbuatda işıqlandırılan mövzuları qruplaşdırmaq üçün hərbi teatrda gedən prosesləri əks etdirən hərbi əməliyyatlar, münaqişə tərəflərinin daxili və xarici siyasətində əsas faktorları özündə təcəssüm etdirən Ermənistan və Azərbaycan, münaqişə nəticələrinin Azərbaycan və erməni ictimaiyyətinə etdiyi təsiri əks etdirən müharibə nəticələri, münaqişənin ikinci dərəcəli faktorları qismində Rusiya faktoru, Türkiyə faktoru və ABŞ faktoru, həmçinin münaqişənin fərqli çalarlarını özündə əks etdirən dini faktorlar və iqtisadi faktorlar kimi kateqoriyalar ön plana çıxarılmışdır. Retrospektiv bucaqdan münaqişənin mətbuatda təhlilini həyata keçirtmək üçün dərc edilən məlumatların – müharibə dövrü və müharibədən sonrakı dövr kimi iki böyük hissəyə ayrılması məntiqəuyğun hesab edilir.

Ermənistan-Azərbaycan münaqişəsinin Böyük Britaniyanın publisistik mətbuatında əks olunmasından söz açdıqda diqqət çəkən ilk məqam – münaqişənin heç də Britaniyanın müxtəlif sferalara aid mətbuatında işıqlandırılmamasıdır. Münaqişə 1988-ci ildən başlasa da Böyük Britaniya mətbuatı Dağlıq Qarabağ münaqişəsi haqqında ilk məlumatları 1989-cu ilin əvvəllərindən verməyə başlayır. Britaniya mətbuatı içərisində Qarabağ haqqında məlumatları paylaşmaqda birincilik – 1989-cu ilin 16 yanvar tarixində Ermənistan-Azərbaycan hədəsi başlıqlı məqaləsi ilə Herald Skotland qəzetinə məxsusdur. Məhz bu qəzet 1991-ci ilə qədər Cənubi Qafqazda baş verən proseslər haqqında məlumat verən və təhlillər aparan yeganə qəzetdir.

## 1. Ermənistanın mövqeyinin işıqlandırılması

Ermənistan-Azərbaycan münaqişəsində Ermənistanın təcavüzkar tərəf olduğunu Britaniya mətbuatında hadisələrin xronologiyası ilə bağlı verilən məlumatlara uyğun müəyyənləşdirmək mümkündür. Əgər Britaniya mətbuatı Azərbaycanın gərginliyin artırılması istiqamətində atdığı addımların 1991-ci ildən başladığını bildirirsə, Ermənistanın vəziyyəti kəskindirəcək addımları hələ 1989-cu ildən Britaniya mətbuatının səhifələrində əks olunurdu. Təsadüfi deyil ki, Dağlıq Qarabağ münaqişəsi haqqında Britaniya mətbuatında 16 yanvarda işıq üzü görən ilk məqalə Ermənistan-Azərbaycan hədəsi başlığını almışdır. Bildiyimiz kimi beynəlxalq münaqişələrin adlarında birinci həmişə təcavüzkar,

* *dissertant, AMEA A.Bakıxanov adına Tarix İnstitutu*
e-mail: u.huseynova@adu.edu.az

ikinci isə qurban dövlətin adı çəkilir.

Herald Skotland qəzetinin 29 noyabr tarixli nəşrinə əsasən, hadisələrin nəzarətdən çıxması Sovet İttifaqını birbaşa idarəetməni ləğv etməyə məcbur etdi və Qarabağ üzərində səlahiyyətlərin Azərbaycana ötürülməsini şərtləndirdi. Məqalədə Sovet parlamentinin bu qərarı qəbul etdiyi vaxtda erməni deputatlarının qəzəblənərək, iclas otağını tərk etməsi qeyd edilir. Məqalədə regionun Azərbaycanın nəzarəti altında qalmasını tələb edən kütləvi çıxışa istinad edərək, erməni elitasının üzvlərinin fikirləri qeyd edilir. Adı çəkilməyən erməni jurnalistinin sözlərinə əsasən bu Azərbaycanın Xalq Cəbhəsi qarşısında tam kapitulyasiyadır. Bu Qarabağı tam olaraq iki il bundan qabaq olduğu yerdə saxlayır. Vilayətdən deputat olan Yuriy Balayan isə öz növbəsində şikayət edir ki, bu Ali Sovetin Qarabağda baş verənləri anlamadığını göstərir.

Bununla belə, məqaləyə əsasən, yanvar ayından fəaliyyətsiz olan Qarabağın sabiq hökuməti və kommunist partiyası da yenidən bərpa olunacaqdır [16]. Məqalədən üç gün sonra qəzet, Ermənistan birləşmə naminə səsvermədə Moskvaya çağırış edir başlıqlı məqalə dərc edir. Məqaləyə əsasən, Ermənistan parlamenti Moskvanın Qarabağı qonşu Azərbaycanın nəzarəti altına qaytarmaq qərarını qeyri-konstitusion olaraq tənqid edərək, ona məhəl qoymayıb, respublikanın mübahisə olunan Qarabağ ərazisi ilə birləşməsinə səs verdi. Ermənistan parlamentinin atdığı addımın əsaslandırılması məqsədilə Armenpress mətbuat agentliyinin erməni jurnalistinin sözlərinə istinad edilir: Qarabağın yerli hökuməti Ermənistana birləşmək haqqında arzusunu irəli sürdüyündən bəri demək olar ki, iki il keçdi və Kreml heç nə etmədikdən sonra bizim deputatlar hərəkətə keçməyi qərarlaşdırdılar [4]. Müşahidə etdiyimiz kimi, Britaniya mətbuatı ermənilərin İttifaq daxili ərazi məsələlərini dövlətin hüquqi prosedurları çərçivəsində deyil, ona əks olaraq, rəsmi Moskvaya çağırış edərək həll etməsini birbaşa olaraq bildirir.

Sovet İttifaqı dağılandan sonra Ermənistan Azərbaycana qarşı təcavüzkar niyyətlərini açıq həyata keçirtməyə imkan qazandı. Nəzərə çatdıraq ki, 1992-ci ilə qədər Ermənistanın döyüş meydanında Azərbaycan üzərində üstünlüyü Britaniya mətbuatında geniş şərh edilirdi. Buna baxmayaraq, 1992-ci ildə Azərbaycanın həyata keçirtdiyi ardıcıl hərbi uğurlar, Azərbaycan və Türkiyənin Ermənistanı siyasi-iqtisadi təcridə məruz qoyması, habelə Ermənistanda iqtisadi-sosial böhran axırıncını güzəştə getməyə məcbur etdi. Bu proseslər jurnalist Robert Fiskin, 10 iyul tarixində Ermənistan anklav müharibəsindən geri çəkilir: Qarabağ uğrunda döyüş həddindən artıq baha başa gəlir başlıqlı məqaləsində öz əksini tapır. Məqalənin baş tezisinə əsasən, Ermənistan hökuməti sakitcə Azərbaycana qarşı elan edilməmiş müharibəsini bitirir, kiçik və mühasirədə olan Ermənistan daha münaqişənin nəticələrini daşıya bilməyəcəyini qəbul edir və erməni Qarabağ anklavının gələcəyinin danışıqlar yolu ilə həll edilməsini arzulayır.

Bu tezisin əsaslandırılması üçün müəllif bir neçə vacib arqumentə müraciət edir. Birinci arqumentə əsasən prezident Levon Ter-Petrosyan Qarabağ anklavı üzərində siyasi nəzarəti həyata keçirən sol-mərkəzçi Daşnak partiyasının ən görkəmli xarici nümayəndələrindən olan Qrair Marukyanı Yunanıstana deportasiya etmək haqqında qərar qəbul etmişdir. R.Fisk bu qərarı hakimiyyətin münaqişəyə nə dərəcədə ciddi son qoymaq niyyətində olduğu qismində qiymətləndirir. Məqaləyə əsasən, Qrair Marukyanın Yunanıstana qovulması Daşnak Erməni İnqilabi Cəbhəsinin digər 60 nüfuzlu liderlərini planlaşdırılan konfransı ləğv etməyə, Amerika, Avropa və Livandakı evlərinə qayıtmağa məcbur etdi. Cənab Fiskə görə, Qarabağın müstəqilliyini elan edən Qarabağ şurasının əksəriyyəti Daşnak üzvləri və ya onların müttəfiqlərindən olduqları zaman, Ermənistan parlamentinin 250 deputatından cəmi 10 üzvü daşnakdır.

Robert Fiskin baş tezisi əsaslandırılması üçün istifadə etdiyi ikinci arqument, L.Ter-Petrosyanın birbaşa efirdə qida, yanacaq, elektrik enerjisi və Ermənistanda işsizliyin əsaslı dərəcədə Qarabağ anklavında münaqişə ilə bağlı olması haqqında etirafından ibarətdir.

Müəllifə əsasən Ermənistan Respublikasında neft yoxdur, məhsulun ixracı yoxdur, ildə ton yarım qızıl istehsal edən şaxta və xaricdən azsaylı pul köçürmələrini çıxmaq şərti ilə demək olar ki, qızıl da yoxdur. Müəllif öz yazısında Ter-Petrosyanın bu addımının yerli rəqiblər tərəfindən tənqid olunduğunu nəzərə çatdırır. Tezisin həqiqiliyinə dəlalət edən faktorlar qismində müəllif, Astaq partiyasının Beyrut qəzetinin redaktoru Sarkis Maxserecyanın sözlərini sitat kimi gətirir: Ermənistan hökuməti Daşnak və Qarabağı təcrid etmək istəyir. Ter-Petrosyan Qarabağı Ermənistanın bütün problemlərinin səbəbi kimi təqdim etmək istəyir, halbuki ilkin olaraq o anklav üçün muxtariyyət tələb edən Qarabağ üzrə komitənin lideri idi.

Qeyd edilmiş arqumentlərə söykənən təhlilin məntiqi nəticəsi Ermənistan kabinetinin münaqişənin dayandırılma şərtlərini azərbaycanlıların Qarabağın mədəni muxtariyyətinə hörmət tələbinə qədər azaltdığından ibarətdir. Məqaləyə əsasən, Ermənistan nazirləri Azərbaycan ilə müharibənin dinc və razılaşdırılmış tənzimlənməsini tapmaqda israr edirlər. Ermənistan baş nazirinin müavini Qtand Baqratyan bildirdi ki, ermənilərin ərazi uğurları müvəqqəti xarakter daşıyır – qoy Birləşmiş Millətlər Təşkilatı bu dəhlizi ələ keçirsin. Bəlkə bu gün belə qərar haqqında danışmaq çətindir, amma bu irəliyə yoldur. Qarabağ və Azərbaycan arasında danışıqlar ciddi başlamalıdır. Burada müəllif, cənab Baqratyanın istifadə etdiyi Qarabağ sözünə xüsusi diqqət çəkir. Cənab Baqratyana əsasən, Azərbaycan indiyə qədər Qarabağı dəstəkləyən, onu qidalandıran, silahlandıran və bu yaxınlara qədər onun dövlətçilik tələbatını dəstəkləyən Ermənistan ilə deyil, Azərbaycanın daxilində yerləşən Qarabağın erməni anklavı ilə danışmalıdır [8].

Ermənistanın Azərbaycana qarşı müharibə ssenariləri, həmçinin münaqişənin mümkün tənzimlənmə yolları Annik Savillin 1994-cü ilin 11 fevral tarixində Ermənilər sülhə az ümid görürlər: Levon Ter-Petrosyan Annik Savillə deyir ki, Qarabağda qanlı müharibədə tərəflərdən heç biri kompromisə getməyə hazır deyil başlıqlı məqaləsində təhlil olunur. Ermənistan prezidenti L.Ter-Petrosyanın Londona səfər etməsindən bəhs olunan məqalədə bildirilir ki, prezidentə görə Ermənistan və Azərbaycan arasında genişmiqyaslı müharibəyə gətirə biləcək yeganə ssenari – anklav əhalisinin soyqırım təhlükəsi qarşısında qalma variantıdır. Ter-Petrosyana əsasən: İdeal (*həll*) – Qarabağ əhalisinin razı salan (*qəbul edilən*) qərar olardı. Bu ideal altında öz müqəddəratını təyinetmə prinsipi dayanır. Reallıq nöqteyi-nəzərindən yeganə real həll – kompromisə əsaslanan həll ola bilər. Əgər biz müasir psixologiyaya söykəniriksə, nə ermənilər, nə də ki, azərbaycanlılar nə isə verməyə hazır deyillər. Bu müasir psixologiyadır və iki tərəf hazır deyil. Qarabağın statusu haqqında istənilən danışıqlar vəziyyəti daha da qəlizləşdirir. Qeyd edək ki, L.Ter-Petrosyanın Londona səfərinin başqa bir məqsədi Şimali Kipr vasitəsilə Azərbaycana döyüşməyə keçən britaniyalı muzdlular haqqında yayılmış məlumat idi. Məqaləyə əsasən cənab Ter-Petrosyan xarici işlər nazirinin britaniyalı biznesmenlərin şimali Kipr vasitəsilə Azərbaycana muzdluların göndərilməsindən xəbərdar olmaması barəsində təminatlarından razı qaldı [1].

### 2. Azərbaycanın mövqeyinin işıqlandırılması

Dağlıq Qarabağ münaqişəsi zamanı Azərbaycanda baş verən daxili və xarici faktorların təhlili ilk dəfə olaraq Azərbaycan parlamentinin Qarabağın hüquqi statusunun ləğv etməsi haqqında olan məlumatda aparılır. Məlumatda Ermənistan parlamentinin Qarabağla birləşmək haqqında verdiyi qərara cavab olaraq Azərbaycan parlamentinin Qarabağın muxtar statusunun ləğv etməsi və beləliklə ərazi üzərində faktiki nəzarəti əlinə götürməsindən bəhs edilir. Həmçinin bununla Cənubi Qafqaz respublikaları arasında böhranın daha da dərinləşəcəyi proqnozlaşdırılır [3].

Azərbaycan qoşunlarının məğlubiyyətlərinin ölkədaxili faktorlarının təhlilində Britaniya mətbuatının diqqət yetirdiyi məqamlar içərisində siyasi qeyri-stabillik və elitanın

qeyri-peşəkarlığı xüsusi yer tutur. Özünün 1993-cü ilin 9 aprel tarixində Azərbaycanlılar atəşkəsdə fasiləyə ümid edirlər: ermənilərdən məğlubiyyət mənəvi cəhətdən sarsılmış xalqı parçaladı adlı məqaləsində Yuq Pop, prezident Əbülfəz Elçibəyi qısamüddətli perspektivdə layiqli, idealistik, amma qeyri-effektiv lider kimi xarakterizə edir. Cənab Popa görə, zəiflik, təşkilatsızlıq və məğlubiyyət bir-birinə güc verdiyi halda Azərbaycanın necə tez dönüş edə bilməsini anlamaq çətindir. Dövlət televiziyasında müharibənin geniş səfərbərlik təbliğinə başlanması və Azərbaycanın Qarabağı Ermənistanla birləşdirən 60 mil enliyə malik sahəni geri almaq üçün əks-hücuma keçməsinə hazırlaşmasına baxmayaraq, məqaləyə əsasən ordunun pis hazırlığı, pis koordinasiya olunması və döyüş ruhunun aşağı olması Xalq Cəbhəsinin qarşısına qoyduğu hədəflərə çata bilməsində şübhələr yaradır. Məqalədə yer almış bir qərb diplomatının sözlərinə əsasən: Məsələ daha dəqiq azərbaycanlıların nə edə biləcəklərində yox, ermənilərin harada dayanacaqlarındadır.

### 3. Hərbi əməliyyatlar Böyük Britaniya mətbuatinda

Əməliyyatlar kateqoriyasına aid ilk məlumatlar 9 sentyabr tarixində Sovet generalları girov götürülüb başlıqlı məqaləsində verilmişdir. Məqaləyə əsasən azərbaycanlılarla məskunlaşmış Şuşa şəhərində SSRİ-MDB qoşunları komandanı general-polkovnik Yuriy Şatalin və digər iki general qısa müddətə girov götürülmüşdür. Məlumatda hadisənin baş vermə incəlikləri Stepanakert sakininin sözlərinə əsasən verilir. Xəbərə əsasən generallar Şuşanın mədəniyyət mərkəzinə yerli əhali ilə danışıqlara dəvət olunduqdan sonra mühasirəyə alınaraq, girov götürülmüşdülər. Yüksək rütbəli zabitlər yalnız rəsmilərin Azərbaycan həbsxanasındakı atəş ilə bağlı insidentdə günahlandırılan iki azərbaycanlını verməyə vəd etdikdən sonra buraxıldılar. Generalların başçılığı altında 4000-dən artıq əsgərin regiona gəlməsi səbəbləri qismində yayda Daxili İşlər Nazirliyi qoşunlarına hücumlar və vaxtaşırı ictimai nəqliyyat və snayper atəşləri kimi zorakılıq hallarının baş verməsi göstərilir.

Hadisədən bir ay vaxt ötdükdən sonra qəzetdə Qarabağda sovet qoşunlarının atəşi nəticəsində bir insanın ölməsi, 6 nəfərin isə yaralanması xəbəri yayıldı. Məlumata əsasən insanlar əsgərləri daş və ov tüfəngləri ilə atəşə tutduqdan sonra, əsgərlər atəşə atəş ilə cavab vermə göstərişinə uyğun olaraq silahdan istifadə etdilər. Məqalədə həmçinin Qarabağı idarə edən Xüsusi Moskva Komissiyasının əməkdaşının verdiyi məlumata istinad edilərək, 5 əsgər və bir zabitin də xəsarət alması qeyd edilir. Qəzetdə Qarabağdakı siyasi vəziyyət təhlil olunaraq, onun ikinci Livana çevrilmə təhlükəsi bildirilir və bu təhlükənin dəmiryolunun blokadası və qanunsuz silah daşınmalarının aşkar olunması ilə daha da artdığı qeyd edilir [10].

Aktiv hücum əməliyyatları və tərəflər arasında müharibə başladıqdan sonra Britaniya mətbuatında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verilən məlumatlar əsasən tərəflərin həyata keçirtdiyi taktiki gedişlər, qazanc və itkilərin hesablanması formasında özünü büruzə verir. Bu dövrü səciyyələndirən daha bir vacib məqam Qarabağ münaqişəsinin işıqlandırılmasına Herald Skotland qəzeti ilə yanaşı Böyük Britaniyanın məşhur İndependent qəzetinin də qoşulmasıdır.

Nəzərə çatdıraq ki, bu dövr ərzində mətbuatın münaqişə haqqında paylaşdığı rəqəmlər obyektivlik və dəqiqlik nöqteyi-nəzərdən lazımı səviyyədə qənaətbəxş hesab olunmur. Məsələn, 1992-ci ilin 7 avqustunda Herald Skotland qəzetində ermənilərin Azərbaycanı, gecə vaxtı Su-25 qırıcı-bombardımançı təyyarəsi ilə Xankəndini bombalaması və beləliklə 20 nəfəri öldürməkdə, 50 nəfərin yaralamaqda və onlarla evin dağıtmada ittiham etməsi qeyd edilmişdir. Bu göstəricilərin ardınca qəzet, eyni məqalə tərkibində erməni informasiya agentliyinə istinad edən Moskva radiosunda qeyd edilən fərqli – 22 insanın öldüyü və 64 nəfərin yaralanması haqqında rəqəmləri dərc edir [2]. Müşahidə

etdiyimiz kimi, qəzet məqaləsində nəinki eyni hadisə haqqında iki fərqli göstəricilərə malik məlumat yer alır, həmçinin rəqəmlərdən birinin informasiya mənbəyi özlüyündə digər mənbəyə istinad edərək üçüncü mənbədən gəldiyi informasiyasına söykənərək, beləliklə özü ilə uzun bir istinad zəncirini formalaşdırır. Bütün bunlara əlavə olaraq, qəzet, hesabatın müstəqil təsdiqinin olmamasını etiraf edir.

Rəsmi təsdiqini tapmamış məlumatlara başqa bir nümunə – 1993-cü ilin 5 aprel tarixində Kəlbəcərə hücum nəticəsində minlərlə azərbaycanlının tələyə düşməsindən bəhs edilən məqalədir. Məqalədə müəllif, Türkiyənin Milliyyət qəzetində Cənubi Qafqazda gərginliyin artması ilə Türkiyənin hərbi hava qüvvələri təyyarələrinin Ermənistan ilə sərhəd boyunca hərbi uçuşlar etdiyinin yazıldığını qeyd edir. Bununla belə məlumatın Türkiyə silahlı qüvvələri tərəfindən təsdiqlənmədiyi də xüsusilə vurğulanır [11]. Nəzərə çatdıraq ki, eyni xəbər Böyük Britaniyanın digər nüfuzlu mətbuat orqanı olan İndependent qəzetinin eyni gündə çıxmış nəşrində yer alır. Devid Lyunqqrenin qələmindən çıxmış məqaləyə əsasən, Türkiyənin Milliyyət qəzeti bildirir ki, Türkiyə təyyarələri Ermənistan ilə sərhəd boyunca kəşfiyyat məqsədli uçuşlar həyata keçirmişlər. Bununla belə bu nəşr də Herald Skotland kimi məlumatın silahlı qüvvələr tərəfindən təsdiqlənmədiyini nəzərə çatdırır.

Füzuli ətrafında gedən döyüşlər Oleq Şedrovun 6 aprel tarixində yazıya aldığı Azərbaycanlılar ermənilərin hücumunu əks etdirirlər: Azərbaycanın taleyi strateji şəhər Füzuli uğrunda mübarizə müddətində ip ucundan sallanıb başlıqlı məqaləsində əks olunur. Şəhərin müharibənin gedişində oynadığı vacib rol, məqalədə Azərbaycanın parlament sədrinin sözləri ilə ifadə olunur: Azərbaycanın taleyi Füzulidə həll olundu. Əgər biz şəhəri itirsəydik, bu böyük itki olardı. Bununla belə, müəllif yerli məmurlara istinad edərək erməni qüvvələrinin Füzulinin 5 km-lik məsafəsində də olmasını diqqətə çatdırır. Məqalədə həmçinin ermənilərin 27 mart hücumunda Qarabağ anklavı yaxınlığında təxminən 4000 kvadrat kilometr ərazi işğal etməsi qeyd edilir [13].

Qarabağı Ermənistan ilə birləşdirən Laçın dəhlizinin işğalından sonra Ermənistanın Kəlbəcərə qarşı həyata keçirtdiyi hücum əməliyyatı jurnalist Yuq Popun 40,000 (*insan*) Ermənistanın tank hücumundan qaçır: Yerevanın hərbi strategiyası qonşu Azərbaycan ərazisinin anneksiyasına gətirir başlıqlı məqaləsində təhlil olunur. Məqalədə müəllif tərəfindən ermənilərin Kəlbəcərin işğalını Azərbaycanın bazasını dağıtmaq məqsədilə birdəfəlik cavab aksiyası kimi təqdim etmə cəhdi təkzib olunur. Cənab Popa görə, hərbi nöqteyi-nəzərdən Kəlbəcərin Ermənistan tərəfindən işğalı, Ermənistan və Qarabağ arasında ikinci dəhlizin yaradılması zərurəti ilə deyil, faktiki olaraq Azərbaycanın 60 mil enliyə malik dağ silsiləsinin Ermənistana anneksiyası etməsi ilə izah etmək lazımdır [5].

Azərbaycanın döyüş meydanında davamlı olaraq məğlubiyyətlə qarşılaşmasını Y.Pop rəhbərlikdə mübahisələr, Rusiyanın düşmənçiliyi və ordunun hərbi təşkilatlanmasının zəif olması səbəbləri ilə əlaqələndirir. Məqaləyə görə ermənilər hücumu başlayandan yalnız on gün sonra Azərbaycanın tank hissələri ermənilərin sərhədi keçmək cəhdlərinin qarşısını almaq üçün əsas keçidə çatdılar. Bununla belə gənc möhkəmləndirmənin cəmi 2 ay hazırlıq keçməsi və bir qisminin o qədər də yaxşı vəziyyətdə olmayan sovet ləvazimatına malik olması da diqqətə çatdırılırdı. Müəllif həmçinin Füzulinin mümkün işğalının geosiyasi aspektləri haqqında mülahizələr irəli sürərək, bunun cənubi Qarabağı İrana birləşdirəcək və Azərbaycanın digər ərazilərinin işğalının başlanğıcı ola bilməsini qeyd edir [5].

**Nəticə**

Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində hər iki tərəf maddi və mənəvi itkilərlə qarşılaşmışdır. Münaqişə tərəflərinin müharibə müddətində qarşılaşdığı əzablar Britaniya mətbuatının diqqət mərkəzindən qaçmamışdır. Apardığımız

müşahidələr bizə müharibə müddətində mətbuatın əsas diqqət mərkəzində Azərbaycan xalqının əzab-əziyyətlərə dayandığını bildirməyə əsas verir. 1993-cü il 5 aprel tarixində İndependent qəzeti, Ermənistanın Kəlbəcər və Qarabağa yapışan geniş ərazi xəttini tutandan sonra 15.000 dinc sakinin ələ keçirildiyini bildirirdisə [6], növbəti gün Rusiyanın İzvestiya qəzetinə istinad edilərək içərilərində uşaqlar da olmaqla təxminən 200 qaçqının qarla örtülmüş dağ keçidlərindən şimala keçərək 80 kilometrlik təhlükəli yolda dünyasını dəyişdiyi qeyd etmişdir. Qeyd edilən məqalədə təhlükəli marşda sağ qalmış insanlardan biri olan 66 yaşlı M.Qasımın dili ilə Azərbaycan xalqının qarşılaşdığı iztirablar əks olunmuşdur: Dünən gözlərim qarşısında (*dağ*) keçidində 60 insan öldü [13]. Devid Lyunqqren və Oleq Şedrovun qələmindən çıxan bu iki məqalənin ardınca növbəti gün Yuq Pop, Ermənistanın tank hücumundan canını qurtaran 40.000 taqətdən düşmüş azərbaycanlı qaçqının Morvan dağının ətəkləri boyunca hərəkət etməsindən öz məqaləsində bəhs edir. Azərbaycan məcburi köçkünlərinin fiziki xəsarətlə yanaşı nə dərəcədə ağır psixoloji gərginlik altında olduğunu nümayiş etdirmək üçün məqalədə bir neçə gün yolda keçirən qaçqınların onlar ilə birlikdə qaçmış keçmiş müdafiəçilərinin tükənmiş dəstələrinin yanında yeriyərək o vaxt ki, Azərbaycan hökumətini onları satdıqlarına görə ermənilər qədər lənətlədiyi qeyd edilir [7].

1994-cü ilin 29 iyul tarixində çap edilmiş məqalədə isə diplomatların əksəriyyətinin ortaq mövqeyini ümumiləşdirərək, atəşkəsin imzalanması ilə Azərbaycan və Ermənistan arasında parçalanmış Kiprdə olduğu kimi, nə müharibə, nə sülh vəziyyətinin bərqərar olunacağı qeyd edilir. Müəllifə görə həqiqət bundan ibarətdir ki, hətta azərbaycanlılar – Qarabağda köhnə kəndləri nəzərə almasaq – Ağdam, Kəlbəcər və Füzulidə öz evlərinə qayıda bilsələr belə, heç nə artıq əvvəlki kimi ola bilməz. İnformasiya mənbələri bildirir ki, ermənilər sistematik olaraq bütün Azərbaycan yaşayış məskənlərini qarət edib, partladıb və yerlə-yeksan ediblər [9]. Britaniya mətbuatında münaqişənin qaynar dövründən bəhs edilən məqalələrin təhlili göstərir ki, onlar təkcə həqiqəti əks etdirmir, eyni zamanda yanlış informasiyaları da dünyaya çatdırır.

## ƏDƏBİYYAT

1. Savill Annika**,** Armenians see little hope of peace: President Levon Ter-Petrosian tells Annika Savill that neither side in the bloody war in Nagorny Karabakh is ready to compromise (https://www.independent.co.uk/news/world/armenians-see-little-hope-of-peace-president-levon-ter-petrosian-tells-annika-savill-that-neither-1393292.html)
2. Armenians claim 20 killed in Azeri raid
3. (https://www.heraldscotland.com/news/12642505.armenians-claim-20-killed-in-azeri-raid/)
4. Azeri Parliament Takes Control of Disputed Enclave. Azeris take control of disputed enclave (https://www.heraldscotland.com/news/12655071.azeri-parliament-takes-control-of-disputed-enclave-azeris-take-control-of-disputed-enclave/)
5. Armenia defies Moscow on unity vote (https://www.heraldscotland.com/news/11969628.armenia-defies-moscow-on-unity-vote/)
6. Pope Hugh**,** 40,000 flee Armenian tank offensive: Yerevan's military strategy leads to an 'annexation' of neighbouring Azeri territory (https://www.independent.co.uk/news/world/40000-flee-armenian-tank-offensive-yerevans-military-strategy-leads-to-an-annexation-of-neighbouring-1453844.html)
7. Ljunggren David**,** Azeris say Armenia is stepping up attack (https://www.independent.co.uk/news/world/azeris-say-armenia-is-stepping-up-attack-1453411.html?amp)
8. Pope Hugh**,** Azerbaijan may be split in two: Armenians in Nagorny Karabakh prepare for decisive assault - Abkhazians step back from the front line in Georgia (https://www.independent.co.uk/news/world/azerbaijan-may-be-split-in-two-armenians-

in-nagorny-karabakh-prepare-for-decisive-assault-abkhazians-1461796.html)
9. Pope Hugh,Azeris seek halt to onslaught by Armenians // (https://www.independent.co.uk/news/world/azeris-seek-halt-to-onslaught-by-armenians-1487581.html)
10. Pope Hugh,Azeris square up to a loser's peace: The extension to the ceasefire with the Armenians in Nagorny Karabakh undermines Azerbaijan's chances of recovering control over the region, writes Hugh Pope in Baku (https://www.independent.co.uk/news/world/azeris-square-up-to-a-losers-peace-the-extension-to-the-ceasefire-with-the-armenians-in-nagorny-1416891.html)
11. Pope Hugh**,** Fighting upsets secret Karabakh talks (https://www.independent.co.uk/news/world/fighting-upsets-secret-karabakh-talks-1564403.html)
12. Pope Hugh**,** Ozal brings moral support but little material help for Azeris (https://www.independent.co.uk/news/world/europe/ozal-brings-moral-support-but-little-material-help-for-azeris-1455118.html)

***Резюме***

***Ульвия Гусейнова***

***Освещение горячей фазы армяно-азербайджанского конфликта вокруг Нагорно-Карабаха (1989-94) в британской прессе***

Данная статья посвящена Армяно-Азербайджанскому Нагорно-Карабахскому конфликту. Период горячей фазы 1989–1994 годов в статье анализировались на основестатей опубликованных в британской публицистической прессе. События военных действиях в Британской прессе описываются не только с позиции войны, но также с позиции внутренней и внешней политики стран участников конфликта. В данной статье был проведен всесторонний анализ большинства британских печатных статей касающихся влияния конфликта на Азербайджан и Армению.

Одна из главных проблем связанная с освещением Нагорно-Карабахского конфликта в Британской прессе является невозможность проследить цепочку событий до 1988-го года. Несмотря на то, что конфликт начался в 1988 году, первая статья упоминавшая Нагорно-Карабахский конфликт датируется 1989 годом.Статья под заголовком Армяно-Азербайджанская угроза вышла в свет 16 января 1989-го года в шотландской газете Вестник Шотландии.Это единственная газета, которая предоставляет информацию и анализирует процессы, имевшие место до 1991 года. Согласно статье, опубликованной в газете «Геральд Скотт» от 29 ноября, инциденты вынудили Советский Союз отменить прямое правление и форсировать передачу власти над Нагорным Карабахом Азербайджану. В статье описывается бурная эмоциональная реакция армянских парламентариев на решение советских властей. Данная статья также консолидирует мнения и позиции армянской элиты. Если обобщить позицию армянской элиты то она сходится в той точке что решение Советских властейявляется полной капитуляцией перед Народным фронтом Азербайджана, а такжевозвращает Нагорный Карабах именнотуда, где он был два года назад. Статья помимо позиций и мнений враждующих элит, также исследует внутриполитические установки и механизмы управления Нагорным Карабахом.

В целом статья базируется на хорошую фактологическую базу и исторические материалы, имеет твердую методологическую и теоретическую основу, а также позволяет сделать общее представление о том как Британское общество воспринимала начало Нагорно-Карабахского конфликта.

**Ключевые слова**: *конфликт, статьи, анализ, текст, Карабах, война*

***Summary***

***Ulviyya Huseynova***

***Coverage of the Hot Phase of the Armenian-Azerbaijani Conflict over Nagorno-Karabakh (1989-94) in the British Press***

This article is devoted to the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict. The period of the hot phase of 1989-1994 was analyzed in the article based on articles published in the British journalistic

press. The events of military operations in the British press are described not only from the position of the war, but also from the position of domestic and foreign policy of the countries involved in the conflict. This article provides a comprehensive analysis of the majority of British printed articles concerning the impact of the conflict on Azerbaijan and Armenia.

One of the main problems associated with the coverage of the Nagorno-Karabakh conflict in the British press is the inability to trace the chain of events to 1988. Despite the fact that the conflict began in 1988, the first article mentioning the Nagorno-Karabakh conflict dates back to 1989.The article titled Armenian-Azerbaijani threat was published on January 16, 1989 in the Scottish newspaper Bulletin of Scotland.This is the only newspaper that provides information and analyzes the processes that took place before 1991. According to an article published in the Herald Scott newspaper on November 29, the incidents forced the Soviet Union to abolish direct rule and force the transfer of power over Nagorno-Karabakh to Azerbaijan. The article describes the violent emotional reaction of Armenian parliamentarians to the decision of the Soviet authorities. This article also consolidates the opinions and positions of the Armenian elite. In General, the article is based on a good factual base and historical materials, has a solid methodological and theoretical basis, and also allows you to make a General idea of how the British society perceived the beginning of the Nagorno-Karabakh conflict.

**Keywords***: conflict, articles, analysis, text, Karabakh, war*

Redaksiya heyətinin üzvü s.e.ü.f.d.Qasımov Səyavuş Kamran oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT:94**

# TÜRKİYƏ TARİXÇİLƏRİ ERMƏNİLƏRİN ŞİMALI AZƏRBAYCAN TORPAQLARINA KÜTLƏVİ KÖÇÜ BARƏDƏ (1828-1829-CU İLLƏR)

**Vidadi UMUDLU***

*Məqalə redaksiyaya daxil olmuşdur: 16may 2021; çapa qəbul edilmişdir: 9 iyun 2021; online-da çap edilmişdir:30 sentyabr 2021.*

*Received: 16 th May, 2021; accepted: 9 th June, 2021; published online: 30 of September 2021.*

**Açar sözlər:** *Şimali Azərbaycan, çar Rusiyası, Türkmənçay müqaviləsi, Ədirnə müqaviləsi, erməni vilayəti, kütləvi köçlər*

## Giriş

Rusiya-İran və Rusiya-Türkiyə müharibələrindən sonra imzalanan Türkmənçay və Ədirnə müqavilələri erməni əhalisinin Şimali Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsində həlledici amil oldu. 1828-1830-cu illəri əhatə edən bu köçürmələr Türkiyə tarixşünaslığında da geniş şəkildə araşdırılmış mövzulardandır.

Əksər türkiyəli müəlliflər ermənilərin kütləvi şəkildə köçürülməsini işğal olunmuş ərazilərin xristianlaşdırılması ilə bağlı planın tərkib hissəsi olduğunu hesab etmişlər. Plana uyğun olaraq çar Rusiyası işğal etdiyi Şimali Azərbaycan ərazisində yerli əhalini köçə məcbur edir, onların yerinə xristian əhalinin, o cümlədən ermənilərin yerləşdirilməsini həyata keçirirdi. Bununla Rusiya, özünə dayaq ola biləcək əhali kütləsinin mümkün olduqca artırılmasına nail olmağa çalışırdı. Bu baxımdan da köçlər həm Rusiya, həm də ermənilər üçün çox sərfəli idi və hər iki tərəf bu fürsəti əldən verməmək üçün bütün vasitələrdən istifadə etməyə hazır idilər. Digər tərəfdən bu müqavilələr nəticəsində. çar Rusiyası işğal etdiyi ərazilərdə yerli əhalinin Anadoluya kütləvi köçünə səbəb oldu.

Köçlər, əsasən, İrəvan, Naxçıvan, Qarabağ, Gəncə və Şirvan bölgələrini əhatə edirdi. Ermənilərin kütləvi köçürülməsi prosesinə, demək olar ki, dövlətin əsas iqtisadi və maliyyə gücü səfərbər edildi. Çünki söhbət, müharibələrdən yeni çıxmış dövlətin yüz minlərlə insanı köçürməsi və yeni ərazilərdə yerləşdirilməsindən gedirdi. Demək olar ki, şah hökuməti tərəfindən ödənilən müharibə təzminatının xeyli hissəsi bu işə sərf edildi. Digər tərəfdən köçürülən erməni əhalisinin geri qalan mülkünün satılmasına köməklik göstərilməsi, köçürülən əhalinin bir neçə il vergilərdən azad olunması kimi işlərin öhdəsindən gəlmək çox çətin bir məsələ idi. Demək ki, dövlətin siyasi iradəsi bütün bunları etməyi tələb edirdi.

İşğaldan sonra erməni əhalisinin Şimali Azərbaycan ərazisinə kütləvi köçü M.Saray, H.Baykara, K.Beydilli, C.Azer, K.Karabekir və digər türk tarixçilərinin əsərlərində geniş şəkildə təhlil olunmaqdadır. Bu baxımdan həmin müəlliflərin Türkiyənin müxtəlif şəhərlərində nəşr olunmuş kitablarının Azərbaycanda da geniş əhali kütləsinə çatdırılması mühüm əhəmiyyət kəsb edir.

## Türkmənçay və Ədirnə müqavilələrindən sonra siyasi vəziyyət

Rusiya ilə müharibədən məğlub yorğun ayrılan Osmanlı dövləti, nə Rusiya və nə də İranla üz-üzə gəlmək istəməyərək Qafqazdakı hadisələrə müdaxilə etmədi. M.S.Bil-

* *tarix üzrə fəlsəfə doktoru, dosent, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
e-mail: v.umudlu@yahoo.co.uk

genin yazdığı kimi, Osmanlı dövləti, rusların Qafqazdakı hərəkəti haqqında sərhəd vilayət hakimlərinin göndərdikləri hesabatlarla kifayətlənməli oldular (5, 306). İrandan sonra Osmanlı dövlətini də məğlub edən Rusiya, bu iki müsəlman dövlətə qarşı İrəvan mərkəz olmaqla bir tampon bölgə təşkil etmiş, İran və Osmanlı torpaqlarında yaşayan erməniləri zorla köçürərək bu bölgəyə yerləşdirmişdilər (7, 60-79). Ermənilər Rusiyanın himayəsi altında muxtar bir dövlət qurmağa ümid edirdilər. Lakin çar I Nikolay bunun əvəzinə, İrəvan və Naxçıvan xanlıqlarını qısa bir müddətə (1828-1840) birləşdirərək, ona vilayət statusu verdi. G.Burnutyana görə, hərbi bölgənin təşkili rusların ermənilərə təqdim etdiyi bir mükafat idi (8, 227). K.Qarabəkir Erməni dosyasında yazır: Ruslar Qarabağ ilə birlikdə aldıqları digər yerləri bir vilayət halında birləşdirdilər. Adını da Armyanskaya oblast qoydular (10, 127). Məlumdur ki, İrəvan xanlığı Naxçıvan xanlığı ilə birlikdə Erməni vilayəti olaraq elan edilmiş, İrəvan şəhəri 1828-ci ildən həmin vilayətin, 1850-ci ildə isə İrəvan quberniyasının mərkəzinə çevrilmişdir.

14 sentyabr 1829-cu ildə Osmanlı ilə Rusiya arasında Ədirnə müqaviləsi imzalandı. Ədirnə müqaviləsi Qafqazın bəzən bütün, bəzən də müxtəlif bölgələrində 375 il davam edən Osmanlı hakimiyyətinə son qoydu. Qafqaza öz iddiasından artıq əl çəkən Osmanlı dövləti üçün yüz illərlə Rusiya və İrana qarşı mübarizədə güc və güvən qaynağı olan Qafqaz xalqları üzərindəki hakimiyyətinin sona çatması da böyük bir itki idi (5, 357; 6, 193). İmzalanmış müqavilə nəticəsində (Ədirnə müqaviləsi – V.U.) Osmanlı imperatorluğunun Qafqazla əlaqələri kəsilmiş, bütün Qafqaz rusların əlinə keçmişdi (12, 57). Məlumdur ki, bu müqavilə Qacarlarla Rusiyanın imzalanmış olduğu Türkmənçay müqaviləsini təsdiq etmiş oldu.

M.Budak yazır ki, 1828-1829-cu illər Osmanlı–Rusiya müharibəsi Qafqazdakı Osmanlı-rus nüfuz mübarizəsində bir dönüş nöqtəsi oldu. Ədirnə müqaviləsi ilə Osmanlı dövləti bütün Qafqazdakı hökmranlıq iddialarından Rusiyanın xeyrinə vaz keçmişdir. Bu müqavilə ilə Rusiya uzun sürən mübarizə nəticəsində İrandan sonra Osmanlı dövlətini də Qafqazdan hüquqi cəhətdən çıxarmağa müvəffəq olmuşdu (7,14). Bu müqavilə nəticəsində Osmanlı imperiyası Gürcüstanın Rusiya imperiyasının tərkibinə daxil olmasını qəbul etdi. Bununla Osmanlı imperiyası bütün Qafqazı və buradakı mülklərini itirmiş oldu. Osmanlı imperiyası Qafqazdan ayrıldı, bütün Qafqaz ruslar tərəfindən ələ keçirildi (13, 57). Tarixçi C.Azer qeyd edir ki, 1828-1829-cu il müharibəsinin bir xüsusiyyəti də, Osmanlı ölkəsindəki yerli ermənilərin ruslara ilk dəfə kömək etmiş olmalarıdır. Bu tarixdən sonra Rusiya, Osmanlı ermənilərinin mühafizəsini öz üzərinə götürmüş oldu (1, 95).

Rusların Qafqazı işğal etməsindən bəhs edən M.Saray Yeni Türk Cumhuriyetleri Tarihi adlı əsərində yazır: Rusiya Qafqaz ölkələrini işğal etdikdən və tampon Erməni bölgəsini (Erməni vilayəti –V.U.) qurduqdan sonra, bölgənin Qafqaz ordu komandanlığı vasitəsilə idarə etdiyini görürük. Azərbaycan xanlıqları da Qafqaz ordusu tərəfindən idarə edilməyə başlanmışdı. Rusiya, xalqının çoxu müsəlman olan Qafqaza uzun müddət hakim olacağı qənaətində deyildi. Fəqət daxili problemləri üzündən Osmanlı dövləti ilə İranın bölgənin geri alınması üçün heç bir təşəbbüs göstərməməsi, daha doğrusu göstərə bilməməsi Rusiyanı bölgənin idarə olunması xüsusunda yeni tədbirlər görməyə vadar etmişdir (21, 30). Bu ərazilər Rusiya tərəfindən tutularkən ermənilər əhalinin yalnız 20%-ni təşkil etmişdir. Lakin sonrakı dövrlərdə xristian torpaqlarının təhlükəsiz olduğuna inanan minlərlə erməni Rusiyanın köməyi və dəstəyi ilə İran və Osmanlı ərazilərindən Qafqaza (Rəvan və ətrafı) köçmüşdülər. Beləliklə, İran Trans-Qafqaz və Xəzər dənizinin çox hissəsindən uzaqlaşdırıldı (17, 328-329).

Ədirnə müqaviləsi ilə Rusiya, Dunay çayının mənbəyindəki adalar ilə Qafqazdakı strateji əhəmiyyəti olan bəzi yerləri ələ keçirmiş və beləcə Qara dənizin qərb və şərqindən bir az daha cənuba enmiş oldu (23, 113.). F.Kirzioğlu qeyd edir ki, Qars əyalətinin şərqindəki yarımmüstəqil Rəvan-Türk xanlığının bir hissəsi olan Gümrü və Şərqi Şorayel ilə

Sürməli Çuxuru (indiki İğdır və Tuzluca Bölgəsi) kimi, Arazın hər iki tərəfindəki ərazilər də Rusiyanın hakimiyyəti altına keçmiş və Ağrı dağı Türkiyə İran-Rusiya sərhədlərinin qovuşduğu bir əraziyə çevrilmişdir (11, 25-26).

İrəvan və Naxçıvan xanlıqları əsasında qurulan Erməni vilayəti və onun mərkəzi olan İrəvan şəhərinin Azərbaycan torpaqları olması türk tarixçiləri tərəfindən də təsdiq olunan bir həqiqətdir. Başbakanlıq Osmanlı arxivlərində hifz olunan və Rəvan bölgəsinin demoqrafik, sosyo-iqtisadi vəziyyəti haqqında son dərəcə geniş və əhəmiyyətli məlumatlar verən Revan Tapu Tahrir Defterleri bölgənin tamamilə bir Azərbaycan torpağı olduğunu təsbit etməkdədir (2, TT, 633/901). D.Çelik yazır ki, Cənubi Qafqazdan Çukurovaya qədər dağınıq bir şəkildə tacir bir xalq olaraq və yaşadıqları bölgələrdə azlıqdan çoxluğa keçməmiş olan erməni xalqı üçün Osmanlı türkləri ilə Azərbaycan türklərinin torpaqları üzərində bir Ermənistan təşkil olunmuşdur (9, 60-79). Rəvan şəhəri XIX əsrin əvvəlində tarixi, sənəti, adət-ənənəsi, mədəniyyəti və demoqrafik quruluşu ilə bir türk şəhəridir (18, 17). E.Kürkçüoğlunun Revan'dan Erivan'a Bir Şehrin Kimliği məqaləsində yazır ki, Rəvan XIX əsrin başlanğıcına qədər bir türk-islam yurdu misyonu daşıyan Rəvan torpağının altı da, üstü də türk millətinə aiddir (12, 1-13).

**Ermənilərin Şimali Azərbaycan torpaqlarına kütləvi köçü**

Rus tarixçisi V.Qriqoryevin yazdığına görə, 1828-ci ilin yay aylarında İrandan Naxçıvan əyalətinə 2511 erməni ailəsi köçürüldü. Onlardan 416 ailə şəhərdə, 1869 ailə isə Naxçıvan və Ordubad dairələrində yerləşdirildi (24, 83-84). Müəllifin tərtib etdiyi cədvəldən göründüyü kimi köçürülən erməni ailələri Naxçıvan şəhəri və 47 kənddə məskunlaşdırılmışdı. Erməni əhali, əsasən, Səlmas və Xoy vilayətlərindən, nisbətən də Təbriz, Urmiya şəhərlərindən köçürülmüşdü (24, 125-127). Naxçıvan ərazisinə köçürülən ermənilər Əbərqənus, Bənənyar, Qazançı, Xəlilli, Kültəpə Nehrəm, Arınc, Qarababa, Nurs, Əylis, Dizə, Çənnəb və digər qəsəbə və kəndlərə yerləşdirildi. Nehrəm qəbul etmədi (16, 29-30).

Qarabağa ermənilərin köçürülməsindən bəhs edən Ö.K.İşyar yazır: Erməni vilayəti Qarabağı əhatə etməsə də, Qarabağa ermənilərin kütləvi şəkildə köçü davam etdiyi açıq bir həqiqətdir. Erməni köçkünlər Qarabağda xəzinə torpaqlarında yerləşdirilmələrinə baxmayaraq, onların bir qismi müsəlmanların torpaqlarını satın alaraq, onları öz torpaqlarından qovmuşlar. Bu da müsəlman bölgəsi sayılan Qarabağda etnik tərkibin sürətlə dəyişməsinə və iki əsas etnik qrup arasında xırda gərginliklərin baş verməsinə səbəb olmuşdur (15, 221-222). Tarixçi K.Beydillinin fikrincə, Azərbaycan ilə Ermənistan arasındakı Dağlıq Qarabağ məsələsinin tarixi köklərində, rusların Qarabağı xristianlaşdırmaq məqsədi ilə, bölgəyə xaricdən gətirdiyi ermənilərin məskunlaşdırılması durmaqdadır (4, 367). Tarixçi M.İsmayıl da Qarabağın ermənilərlə məskunlaşdırılması məsələsinə toxunaraq qeyd edir ki, çar Rusiyası, hələ Rusiya-Qacar müharibələrinin gedişində İran və Türkiyədən Cənubi Qafqaza, xüsusilə Dağlıq Qarabağa köç etdirilən ermənilərlə bölgədə erməni əhalisinin artmasına çalışmışdır (14, 217-218). C.Azerə görə, Azərbaycana gətirilən erməni əhali, bəzi ərazilərdə demoqrafik vəziyyətin ölkənin əsas sahibi olan oğuz türklərinin əleyhinə pozulmasının başlanğıcını təşkil etmişdir (1, 91).

K.Gürün yazır ki, Rusiya, Osmanlı dövlətinə hücum edərkən yerli ermənilər öz ölkələrinə xəyanət edərək işğalçıların tərəfini tutdular və onları gül-çiçəklə qarşıladılar. Ruslar Ərzuruma doğru hərəkət edərkən, ermənilər onları sevinclə qarşıladı. Sülhün ardından 100.000 erməni Ərzurum və Ələşkirtdən Rusiyaya köç etdi (13, 57). Bu fikri təsdiq edən K.Beydilliyə görə də, 1828-1829-cu illər Osmanlı-Rus müharibəsinin gedişində Ərzincana qədər Anadolunu işğal edən rus qoşunları 100.000 nəfərə yaxın erməni əhalisini, İrəvan və Naxçıvan bölgələri başda olmaqla Qafqaza yerləşdirirdilər (4, 365-384). Başqa bir mənbədə göstərilir ki, 1829-cu ildə rus ordusu Ərzurumdan çəkilərkən

təxminən 40.000 ermənini özləri ilə gətirdilər (20, 1-25). F.Kirzioğlu yazır ki, 1828-ci ildə Qarsı, 1829-cu ildə Ərzurum, Bayburt və Muşun şimalını istila edən ruslar, 1830-cu ildə, bu bölgələrdən geri çəkilirkən özləri ilə götürdükləri 40 min erməni mühacirini Rəvan əyalətinə və Axısqa bölgəsinə yerləşdirərək Azərbaycan ilə Anadolu türklüğü arasında fiziki bir sədd, xristian divarı hörməyə çalışmışdır (11, 58-59; 3, 31).

Ermənilərin İrəvana köçürülməsindən bəhs edən Kazım Qarabəkir paşa yazır: Türkiyə və İrandakı erməni xalqının çoxu Rusiyaya köç etdilər. O qədər ki, İran və Türkiyədə artıq Ermənistan deyiləcək yer və hal qalmadı. İrandan köç edənlər 40.000 nəfər idi. Bunlar Erməni vilayəti deyilən əraziyə yerləşdirildi (10, 128). Ermənilərin Rusiyanın yeni işğal etdiyi ərazilərə köçürülməsindən bəhs edən tarixçi K.Beydilli göstərir ki, Rusiyanın həm İran, həm də Osmanlılarla bağladığı sülh müqavilələrində yer alan bir önəmli maddə, xristian əhalinin maneəsiz və sərbəst şəkildə rus torpaqlarına köç edə bilmələrini nəzərdə tuturdu. Müqavilələrdə xüsusilə qeyd olunan bu maddələrin məqsədi, İranın və Osmanlı imperiyasının ermənilərinin Rəvan və Naxçıvan bölgələrinə köçürərək bu bölgəni canlandırmaq istəyirdi. Müəllif, Ədirnə müqaviləsindən sonra Anadoludan Cənubi Qafqaza köçürülən 84.000 nəfər erməni əhalisinin Gəncə, İrəvan və Tiflisdə yerləşdirildiyini qeyd edir. Eyni tarixlərdə Qarabağa müxtəlif yerlərdən gələn ermənilər də yerləşdirilmişdir (4, 365-384).

G.Burnutyan yazır ki, qarşıda duran əsas problem son üç əsrdə erməni əhalisinin çoxunun tarixi erməni torpaqlarını tərk etməsi və İrəvan bölgəsində ermənilərin azlıq təşkil etməsi idi. Bunun həllini tapmaq istəyən erməni liderləri və Rusiya tərəfdarları, rus komandirlərini və diplomatlarını Şah Abbasın dövründə İrana sürgün edilmiş ermənilərin geri dönməsini bir şərt olaraq İranla danışıqlara daxil etməyə razı salmağa çalışmışdılar (8, 193). Erməni tarixçinin fikirləri ilə bağlı onu bildirək ki, İrəvan nəinki son üç əsr ərzində, ümumiyyətlə tarixi erməni torpağı olmayıb və ermənilər heç vaxt İrəvan bölgəsində çoxluq təşkil etməyiblər.

1828-1830 illərdə Osmanı dövləti və İrandan Cənubi Qafqaza gələn ermənilərin dövlətə aid ən məhsuldar və zəngin torpaqlarda yerləşdirildiyini qeyd edən K.Beydilli onu da əlavə edir ki, müqavilə əsasında yerləşdirilən 124 min nəfərin xaricində də bu bölgəyə yerləşən ermənilər olmuş və onların ümumi sayı 200 min nəfərə çatdırılmışdı (4, 365-384; 22, 375). K.Karabekirin köçlərlə bağlı tərtib etdiyi cədvələ əsasən Türkmənçay və Ədirnə müqavilələrindən sonra İrandan 8249 xanə və ya 41.245 nəfər, Şərqi Anadoludan isə 20 min xanə və ya 100 min nəfər erməni yeni işğal olunmuş ərazilərə köçürülmüşdü (10, 10). Müəllif daha sonra yazır ki, Türkiyə və İranda qalan keçmiş Ermənistan deyilən bölgənin erməni əhalisinin çoxu Rusiyaya köç etdilər. O qədər ki, İran və Türkiyədə artıq Ermənistan deyiləcək yer və hal qalmadı. İrandan köç edənlər 40.000 idi. Bunlar erməni vilayəti deyilən yerə yerləşdirildi. Türkiyədən isə 90.000 erməni köç etmişdi. Gümrü, Axıska və Axalkələk bölgələrinə yerləşdirildilər. Fəqət aclıq və sarılıqdan bir çoxları öldü (10, 128).

Göründüyü kimi, Rusiya dövləti bütün vasitələrdən istifadə edərək ermənilərin Qacar və Osmanlı dövlətlərindən kütləvi köçürülməsinə nail olmuş, gələcək mübarizədə onlardan bir vasitə kimi istifadə etmişlər. Bu köçürmələr Qafqazın xristianlaşdırılması planına xidmət etmişdir.

**Nəticə**

Beləliklə, Türkmənçay və Ədirnə müqavilələri Qafqazın, o cümlədən Şimali Azərbaycanın Rusiyanın tərkibinə keçdiyini bir daha təsdiq etdi və xalqın hərbi yardım haqqındakı ümidlərinə son qoydu. Həm Osmanlı dövləti, həmdə Azərbaycan baş vermiş hərbi məğlubiyyətlə barışmaq məcburiyyətində qalmalı oldu. Digər tərəfdən, Osmanlı dövləti ilə yanaşı Azərbaycan da erməni məsələsi ilə qarşılaşmalı oldu. Rusiyanın təcavüzkar

siyasətinə sədd çəkə bilməməsi Qacar xanədanının da Qafqaz siyasətini tamamilə sarsıtmış oldu. Hadisələrin gedişi Türkiyə tarixşünaslığına da öz damğasını vurmuş və tədqiq edilən mövzu haqqında ətraflı araşdırmalar aparılmışdır.

Türkmənçay və Ədirnə müqavilələrindən sonra ermənilərin Rusiya işğalı altında olan torpaqlara kütləvi köçü başladı. Köçlər Rusiya imperiyasının nəzarəti altında həyata keçirilirdi. Türkiyə tarixçiləri də, qeyd etmişlər ki, həyata keçirilən köçürmə əməliyyatı nəticəsində 130 minə yaxın erməni Şimali Azərbaycan torpaqlarında yerləşdirildi. Kütləvi köçlər nəticəsində erməni vilayəti və Qarabağın dağlıq hissəsində ermənilərin xüsusi çəkisi xeyli artmış oldu.

Göründüyü kimi, Rusiya-Qacar və Rusiya-Osmanlı müharibələrindən sonra on minlərlə erməni əhalisi yeni vətən əldə etmək ümidi ilə Şimali Azərbaycan torpaqlarına köçürüldü. Köçlərin həyata keçirilməsində Rusiya dövləti əlindən gələni əsirgəmədi. Köçlər demoqrafik vəziyyətin dəyişməsinə səbəb oldu.

## ƏDƏBİYYAT


1. Azer C.. Babadan Oğula Güney Kafkasya (Türkiye-Güney Kafkasya İlişkileri). İstanbul: Truva Yayınları, 2011, 640 s.
2. Başbakanlık Osmanlı Arşivleri (BOA), Defter-i müfessel-i eyalet-i Revan
3. Baykara, H. Azerbaycan İstiklal Mücadilesi Tarihi. İstanbul: Genclik Kitabevi,1975, 331 s.
4. Beydilli K. 1828-1829 Osmanl-Rus Savaşında Doğu Anadoludan Rusiyaya Göçürülen Ermeniler, TTK Belgeler XIII / 17-den ayr; basım, Ankara 1988, s. 365-384
5. Bilge M.S. Osmanlı Çağında Kafkasya (1454-1829) / İstanbul: Kitapevi, 2012, 306 s.
6. Bİ, M. Kafkas Tarihi, 2 Cilt, Ankara: Berikan Yayınevi, 2011, 886 s.
7. Budak, M. Rusya'nın Kafkasya'da Yayılma Siyaseti. Ankara: Yeni Türkiye Yayınları, 2018. Cilt: IX, s. 641-679.
8. Bournoutian G.A. Ermeni Tarihi Ermeni Halkının Tarihine Kısa Bir Bakış, Çev: Ender Abadoğlu-Ohannes Kılıçdağı, İstanbul: Aras Yayıncılık, 2011, s. 227.
9. Çelik D. XIX ve XX. Yüzyıllarda Azerbaycan // Ankara: Bilig Türk Dünyası Sosyal Bilimler Dergisi, 1996. Sayı 3. s. 60-79
10. Karabekir K.. Ermeni Dosyası. İstanbul: Emre, 1994, 224 s.
11. Kırzıoğlu M. Fahrettin. Armenya Yukarı-Ellerde 2700 Yıllık Türk Varlığı, Ermeniler'in Rus İstilasına Alet Olması ve Mezalimi, XX. Yıl Armağanı Ermeniler Hakkında Makaleler-Derlemeler, II, Ankara, 1978.
12. Kürkçüoğlu E. Revan'dan Erivan'a Bir Şehrin Kimliği // YENİ TÜRKİYE 60/2014, s.1-13.
13. Gürün K. Ermeni Dosyası, Ankara: BilgiYayınevi, 2012. 480 s.
14. İsmayılov M. Azərbaycan tarixi, Bakı: Elm, 2007. 504 s.
15. İşyar, Ö.G. Sovyet-Rus Dış Politikaları ve Karabağ Sorunu. İstanbul: Alfa, - 2004. 294 s.
16. Hacıyev İ., Amanoğlu E, Tarihte ve Günümüzde Nahçıvan, Ankara: Ankara Universitesi, 1998, 92 s.
17. Hosking G.Rusya ve Ruslar. Çeviren Kezban Acar. İstanbul: İletişim Yayınları: 2019, 901 s.
18. Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasibetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy) 1578-1914, I kitab Ankara: Osmanlı Arşivi Yayınları, 1992. 427 s.
19. Osmanli Devleti Ile Azerbaycan Türk Hanliklari Arasindaki Münasebetlere Dair Arşiv Belgeleri Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy II (1575-1918) / Ankara: Osmanlı Arşivi Yayınları, 1993. 279 s.
20. Osmanlı Devletinde Ermeni Nüfusu, Türk Tarih Kurumu Başkanlığı, s. 1-25.
21. Saray, M. Yeni Türk Cumhuriyetleri Tarihi. Ankara: Türk Tarih Kurumu, 2014. 514 s.
22. Sarıahmetoğlu Nesrin. Azeri-Ermeni İlişkileri (1905-1920). Ankara: Türk Tarih Kurumu, 2006, s. 375.
23. Uçarol R.. Siyasi Tarih, İstanbul: Filiz Kitapevi, 1995, 861 s.

24. Григорев, В. Статистическое описание Нахичеванской провинции. Санктпетербургъ: Тип. Департамента Внешней Торговли.

***Summary***

***Vidadi Umudlu***

***Turkish Historians about the Mass Resettelement of Armenians on the Land of Northern Azerbaijan (1828-1829)***

The article reflects the current political situation in the South Caucasus, including in Northern Azerbaijan, and the mass resettlement of Armenians after the Turkmenchay and Edirne treaties, which confirmed the defeat of Gajar Iran and Ottoman Turkey. This article, based on Turkish historiography, reflects the aggressive policy of Tsarist Russia in the region, the organization of the Armenian province and its role as the main organizer of the mass resettlement of Armenians.

After the Turkmenchay and Adrianople treaties, a migration commission created by the Russian Empire, which also included Armenian nationalists, resettled 40,000 Armenians from Qajar Iran and 84,000 Armenians from Ottoman Turkey to northern Azerbaijan. The resettled population was compactly settled, mainly in Yerivan, Nakhchivan, Karabakh, Ganja and other regions. As a result of these resettlements, the process of armenization of the Armenian province was carried out, organized on the basis of the Yerevan and Nakhchivan khanates and the mountainous part of Karabakh. When investigating the events, the works of Turkish historians K. Beidilli, J. Azera, K. Garabekir, H. Baykar and other authors were used.

These resettlements, carried out at the expense of the Azerbaijani population, significantly changed the demographic situation and exacerbated interethnic and interreligious tensions. According to Turkish historians, migration was not limited to official statistics, and most of the Armenian population preferred unofficial migration. This allows us to say that the migration number exceeds the official data.

The Russian authorities tried to expel the local population from their homes once and for all, and at best, their lands were distributed to new settlers. Mass resettlements significantly aggravated the situation of Azerbaijani peasants and led to massive uprisings in the 1930s. Tens of thousands of Azerbaijanis were forced to emigrate to Qajar Iran and Ottoman Turkey.

**Key words:** *Northern Azerbaijan, Tsarist Russia, Turkmenchay treaty, Treaty of Adrianople, Armenian province, Mass migration*

***Резюме***

***Видади Умудлу***

***Турецкие историки о массовом переселении армян на землях Северного Азербайджана (1828-1829)***

В статье отражена текущая политическая ситуация на Южном Кавказе, в том числе в Северном Азербайджане, и массовое переселение армян после Туркменчайского и Эдирнского договоров, подтвердившее поражение Гаджарского Ирана и Османской Турции. Эта статья, основанная на турецкой историографии, отражает агрессивную политику царской России в регионе, организацию «армянской провинции» и ее роль как главного организатора массового переселения армян.

После Туркменчайского и Адрианопольского договоров созданная Российской империей миграционная комиссия, в которую также входили армянские националисты, переселила 40 000 армян из Каджарского Ирана и 84 000 армян из Османской Турции в северный Азербайджан. Переселенное население было расселено компактно, в основном в Ериване, Нахчыване, Карабахе, Гяндже и других регионах. В результате этих переселений был осуществлен процесс арменизации «армянской провинции», организованный на базе Ереванского и Нахчыванского ханств и горной части Карабаха. При расследовании событий были использованы труды турецких историков К. Бейдилли, Дж. Азера, К. Гарабекира, Х. Байкара и других авторов.

Эти переселения, осуществленные за счет азербайджанского населения, существенно изменили демографическую ситуацию и обострили межэтническую и межрелигиозную напряженность. По мнению турецких историков, миграция не ограничивалась официальной статистикой, и большая часть армянского населения предпочитала неофициальную миграцию. Это позволяет говорить о том, что количество миграций превышает официальные данные.

Российские власти пытались раз и навсегда изгнать местное население из домов, и в лучшем

случае их земли раздавали новосёлам. Массовые переселения значительно обострили положение азербайджанских крестьян и привели к массовым восстаниям 30-х годов. Десятки тысяч азербайджанцев были вынуждены эмигрировать в Каджарский Иран и Османскую Турцию.

**Ключевые слова:** *Северный Азербайджан, Царская Россия, Туркменчайский договор, Адрианопольский договор, Армянская провинция, Массовая миграция*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT: 32**

# VƏTƏNDAŞ CƏMİYYƏTİ İDEYASININ İNKİŞAFINA DAİR

**Zəfər ABDULLAYEV***

*Məqalə redaksiyaya daxil olmuşdur: 18 iyun 2021; çapa qəbul edilmişdir: 19 iyul 2021; online-da çap edilmişdir:30 sentyabr 2021.*

*Received: 21 th June, 2021; accepted: 19 th Jule, 2021; published online: 30 th September, 2021.*

**Açar sözlər:** *vətəndaş cəmiyyəti, dövlət, ictimai müqavilə, azadlıq, hakimiyyət, şəxsiyyət*

## Giriş

Vətəndaş cəmiyyəti məfhumu fəlsəfə, politologiya, sosiologiya və digər elm sahələrində geniş şəkildə işlədilir. Lakin onun məzmun və mahiyyətinin dəqiq müəyyən edilməsi elmi ədəbiyyatda vətəndaş cəmiyyəti ideyasına vahid münasibətin olmaması səbəbindən çətinləşir. Vətəndaş cəmiyyəti kateqoriyasının təhlilində əsas problem vətəndaş cəmiyyəti və dövlət arasında qarşılıqlı münasibətlərlə bağlıdır. Antik dövrdən indiyədək bəhs etdiyimiz ideyaya tarix boyu yanaşmanın araşdırılması onun mahiyyətini və inkişaf perspektivlərini dəyərləndirmək baxımından əhəmiyyətlidir.

## 1. Vətəndaş cəmiyyəti ideyasının genezisi və təkamülü

Əksər tədqiqatçıların fikrincə, Vətəndaş cəmiyyəti anlayışı öz kökləri ilə Aristotelin polis (koinoia politike – vətəndaş cəmiyyəti), Siseronun societas civilis ideyalarına gedib çıxır. Politikenin üzvü olmaq dövlətin vətəndaşı olmaq və eyni zamanda onun qanunlarına uyğun şəkildə və başqa vətəndaşlara ziyan vurmadan fəaliyyət göstərmək mənasını ifadə edirdi. Bu kontekstdə vətəndaş cəmiyyəti və dövlət bir-birini əvəz edən anlayışlar kimi çıxış edirdi. Dövlətin təbəəsi olan vətəndaşla cəmiyyətin üzvü olan vətəndaş bir-birindən fərqləndirilmirdi, çünki antik dövrdə vətəndaş təkcə məfhum kimi deyil, həm də həqiqətdə dövlətin təbəəsi kimi təsəvvür olunurdu [11, s. 18]. Siseronun Dövlət haqqında, Qanunlar haqqında dialoqlarında vətəndaş cəmiyyəti faktiki olaraq dövlətin (respublica) sinonimi kimi çıxış edirdi [11, s. 18].

Elmi ədəbiyyatda vətəndaş cəmiyyəti nəzəri konsepsiyasının inkişaf prosesinin müxtəlif cür dövrlərə ayrılması mövcuddur. Bunlardan aşağıdakı bölgünü daha dəqiq hesab etmək olar: başlanğıc dövr (antik dövrdən XVI-XVII əsrlərədək); təbii-hüquq dövrü (XVII- XVIII əsrlər); institusional dövr (XVII-XX əsrin birinci rübü), müasir dövr (XX əsrin 20-ci illəri – XXI əsrin ilk onilliklər müasir dövr). Orta əsrlər dövründə də cəmiyyətlə dövlət arasında ciddi bir fərqin olması düşünülmürdü, onlar vahid bir tam kimi şərh olunurdu.

XV-XVI əsrlərin italyan mütəfəkkiri və siyasi xadimi H.Makiavelli belə hesab edirdi ki, insan ruhunun ali təzahürü dövlətdir, onun mənası və xoşbəxtliyi isə dövlətə xidmət etməkdir. O həmçinin belə hesab edirdi ki, təbəələrini qorxu və güc yolu ilə idarə etməyə imkanı və hüququ olan dövlət onlarda nifrət oyatmamaq üçün bundan sui-istifadə etməməlidir, onların əmlak və şəxsi hüquqlarını tapdalamamalıdır [7, s. 82]. Beləliklə, o, insanın təbəəlik vəzifələrindən fərqli sahələr, yəni vətəndaş cəmiyyəti haqqında da danışırdı.

---

* *dissertant, Bakı Avrasiya Universiteti*
e-mail: abdullayevz2019@gmail.com

İntibah dövründə diqqətin ayrıca bir fərdə, şəxsiyyətin azadlığına, dövlət həyatında hüququn təsbit olunmasına yönəlməsi müşayiət olumaqda idi. Hüquq şəxsiyyətin azad fəaliyyətinin əsası kimi mövcud deyildi. Lakin XIII əsrin başlanğıcında dövlətin şəxsi həyata müdaxiləsinə sərhəd qoyma cəhdləri müşahidə olunmağa başladı. İngiltərənin 1215-ci il Böyük Azadlıq Xartiyası bunu sübut edir. Orada aristokratiyanın xeyrinə məhdudlaşdırmalar öz əksini tapmışdır. Xartiyada vətəndaşın şəxsi azadlıq və təhlükəsizlik hüququ bəyan olunurdu.

İctimai münasibətlərin transformasiyası Orta əsrlər və Yeni dövr mütəfəkkirlərinin vətəndaş cəmiyyəti haqqında baxışlarının ardıcıl inkişafına gətirib çıxardı. Bu məsələyə ciddi şəkildə diqqət yetirilməsi T.Hobbs, H.Qrosiya, C.Lokk, J.J.Russo, Ş.Monteskyenin əsərlərində vətəndaş cəmiyyətinə hər bir cəmiyyət deyil, yalnız mütərəqqi olanlar, o zaman üçün təbii-hüquqi və müqavilə əsaslarına malik dövlətlər müvafiq sayılırdı. Elmi ədəbiyyatda vətəndaş cəmiyyəti ideyasının T.Hobbsın Təbii və siyasi qanunların elementləri, Vətəndaş haqqında, Dövlət və hakimiyyət haqqında (Leviafan) kimi əsərlərində ilk dəfə irəli sürüldüyü qəbul olunur. Yuxarıda göstərilən tarixi simalar vətəndaş cəmiyyəti ilə dövlət arasında prinsipial fərqlərin olduğunun göstərmirdilər. Lakin bu o demək deyildir ki, onlar vətəndaş cəmiyyətini dövlətlə tam olaraq eyniləşdirirdilər. Vətəndaş cəmiyyəti və dövlətin eyni və ya oxşar məzmunlu anlayışlar kimi nəzərdən keçirilməsinin antik dövr ənənəsi XVIII əsrədək davam etmişdir. Yanaşmalardakı ümumiliklərə baxmayaraq, dövlətin, yoxsa vətəndaş cəmiyyətinin ilkin olması məsələsində bəzi fərqlər onların əsərlərində artıq müşahidə olunmaqda idi. İnsanları öz təbiətinə görə rasional, lakin asosial hesab edən XVII əsr ingilis alimi Tomas Hobbsın mövqeyi diqqəti xüsusilə cəlb edir. Hobbs öz əsərlərində insanda olan təbii və ictimai xisləti bir-birinə qarşı qoyurdu. Hamının hamıya qarşı mübarizəsi insan təbiətinin münaqişəyə meyilli olması ilə izah olunurdu. Hobbs belə hesab edirdi ki, düşmənçilik şəraitində həyatı üçün təhlükəni duyan insan dinc yaşayış qaydalarını anlamağa məcburdur. Mütəfəkkirin fikrincə, onlar arasındakı ictimai müqavilə cəmiyyət deyil, məhz dövlət yaratmağa qabildir [9, s. 67]. O belə hesab edirdi ki, dinc həyata meyil artıq vətəndaş cəmiyyətinin bir əlamətidir. Başqaları ilə dinc münasibətlər dövlətin total nəzarəti yolu ilə təmin oluna bilər. T.Hobbs fərdin iradəsinin tam şəkildə müqavilə əsasında meydana gəlmiş və vəzifəsi hamının hamıya qarşı müharibəsini dayandırmaq olan dövlətə tabe etdirilməsinə diqqəti yönəldirdi [19, s.142 ]. Hobbsda vətəndaş cəmiyyəti müəyyən mənada hədsiz eqoizm və bəşəri küdurətin hökm sürdüyü təbii vəziyyətə qarşı qoyulur [17, s. 23]. O belə hesab edirdi ki, dövlət Bibliyada göstərilən Leviafan kimi hər şeyi, o cümlədən vətəndaş cəmiyyətini özünə tabe etməyə hazırdır. T.Hobbs vətəndaş cəmiyyətinin yaranması üçün əsası, səbəbi etatizm zəminində insanların qarşılıqlı qorxusu ilə əlaqədar hamının hamıya qarşı müharibəsi təbii vəziyyəti ilə izah edirdi [18, s. 150]. T.Hobbsın fikrincə, tarixdə dövlətlə eyniləşdirilən siyasi hakimiyyətdən əvvəl mövcud olmuş cəmiyyət ümumiyyətlə yoxdur: Vətəndaş cəmiyyəti insanların sadə birliyi deyil, yaradılması üçün qarşılıqlı inam və razılaşmanın zəruri olduğu və müqaviləyə əsaslanan birlikdir. T.Hobbs vətəndaş cəmiyyətini dövlətin qanunlarına tabe olan sivilizasiyalı insanların cəmiyyəti kimi izah edirdi. Vətəndaş və dövlət əxlaq, bilik və hüquqa istinad edən müqavilə ilə bağlanmışlar. Dövlət və vətəndaş cəmiyyəti arasında münasibətlər Hobbsın siyasi konsepsiyasında aşağıdakı şəkildə qurulur: dövlət vətəndaş cəmiyyətini yaradır, lakin cəmiyyət də öz hüquqlarının bir hissəsini ona verməklə və fəaliyyətinə nəzarət etməklə dövləti yaradır. O, bəzən vətəndaş cəmiyyətini dövlətlə birləşdirir, bəzən də onları ayırırdı.

Vətəndaş cəmiyyəti konsepsiyasının inkişafında müstəsna rol oynamış digər bir ingilis mütəfəkkiri C.Lokk anti-monarxist və kilsə əleyhinə olan qüvvələrin tərəfində olmaqla XVII əsrin sonlarında İngiltərədə baş verən siyasi mübarizədə fəal iştirak edirdi. O, qeyd edirdi ki, bəzilərinin dünyada yeganə idarə forması hesab etdikləri mütləq

monarxiya vətəndaş cəmiyyəti ilə bir yerə sığa bilməz. Civil society azad, bərabər və müstəqil insanların könüllü razılaşmasından yaranır və həm dövlətəqədərki təbii vəziyyətə, həm də ilahi qanunlara istinad edən mütləq monarxiyaya qarşı qoyulur [10, s. 317]. Bəzi tədqiqatçılara görə, vətəndaş cəmiyyəti məfhumunun ilk dəfə işlədilməsi C.Lokka məxsusdur.

Con Lokk liberalizmin banisi kimi ilk dəfə olaraq şəxsiyyəti dövlətdən, azadlığı isə digər dəyərlərdən üstün tuturdu. Azadlığı o kənardan, ilk növbədən dövlət tərəfindən müdaxilənin olmaması kimi başa düşürdü. Lokka görə, insanlar öz aralarında ictimai müqavilə bağlamaqla vətəndaş cəmiyyəti yaradırlar. Bu da dövlətlə fərd arasında bütöv və ardıcıl müdafiə strukturu əmələ gətirir. Fərdin azadlığının əsası, onun siyasi müstəqilliyinin zəmanəti xüsusi mülkiyyətdir.

C.Lokkun nəzəriyyəsinə görə, vətəndaş cəmiyyəti insanların inteqrasiyasının təbii formasını ifadə etdiyindən o, dövlətdən əvvəl mövcuddur. Dövlət vətəndaş cəmiyyəti ilə müqayisədə hüquq sisteminə istinad edən daha sonrakı siyasi institutdur. C.Lokkun belə hesab edirdi ki, xüsusi mülkiyyətin meydana gəlməsi dövlətin siyasi hakimiyyət institutu kimi meydana gəlməsinin səbəbi olmuşdur: Dövlətdə birləşən və özünü hökumətin hakimiyyətinə tabe etdirən insanların ümdə və əsas məqsədi təbii vəziyyətdə bir çoxlarına müyəssər olmayan xüsusi mülkiyyətlərini qorumaqdan ibarətdir [10, s. 312].

XVI əsrin II yarısından XVIII əsrin sonlarınadək vətəndaş cəmiyyəti ideyası C.Lokk və T.Hobbsla yanaşı, Ş.Monteskye, J.J.Russo kimi mütəfəkkirlər tərəfindən də inkişaf etdirilirdi. Ş.Monteskye (1689-1755) öz konsepsiyasında XVIII əsr siyasi fəlsəfəsində ciddi şəkildə möhkəmlənmiş iki tip müqavilə - ictimai və dövlət müqaviləsi haqqında, həmçinin Roma hüququnda mövcud olmuş vətəndaş və dövlət hüququ haqqında təsəvvürləri inteqrasiya etdirdi [9, s. 68].

Ş.Monteskye Qanunun ruhu haqqında əsərində vətəndaş cəmiyyətinə tarixi inkişafın nəticəsi kimi baxırdı. Ş.Monteskyeyə görə, insanlar arasında düşmənçiliyin qarşısını almaq üçün dövlət yaranır. Dövlətçilik vətəndaş cəmiyyətinə aiddir, lakin onun eyni deyil. Ş.L.Monteskye dövlətə vətəndaş cəmiyyətində vətəndaşların düşmənçiliyinin qarşısını almağa yönəlmiş ictimai müqavilənin nəticəsi kimi baxırdı. Bu zaman o, bu iki məfhumu fərqləndirir və belə bir fikir irəli sürürdü ki, bu institutların (vətəndaş cəmiyyəti və dövlət) hər birinin öz qanunları və təsir dairələri var. Belə ki, vətəndaş cəmiyyəti vətəndaşlar arasında qarşılıqlı münasibətləri (o cümlədən, xüsusi mülkiyyətə sahib olmaq), dövlət isə siyasi hüququ və insan azadlığını tənzimləyir. Ş.L.Monteskyenin sosial- siyasi baxışlarında da oxşar mövqe qeyd olunurdu. Monteskye ilk Avropa mütəfəkkirlərindən biri idi ki, Lokkun ardınca vətəndaş cəmiyyətini insan və vətəndaşın maraqlarının toqquşduğu, sosial institutların müstəqillik və qarşılıqlı təsirlərinin, dövlət və cəmiyyətin, həmçinin onların ifadəçisi olan vətəndaşların fəaliyyəti və tarixi inkişaf forması ilə bağlı sosial sahə kimi görürdü [21, s. 103]. Dövlətin hüququna idarə edənlərlə təbəələr arasında qarşılıqlı münasibətləri tənzim etmək, vətəndaş hüququnun səlahiyyətlərinə cəmiyyət üzvləri arasında münasibətləri tənzim etmək də daxildir. Fransız maarifçisi tərəfindən vətəndaş cəmiyyəti fərdlə dövlət arasında münasibətləri əlaqələndirən və lazım gəldiyi təqdirdə fərdin azadlığını dövlətin müdaxiləsindən müdafiə edən müstəqil assosiasiyalar məcmusu kimi müəyyən olunur [12].

Qeyd etmək lazımdır ki, ümumilikdə XVII-XVIII əsrlər fəlsəfi-siyasi diskursu üçün şəxsiyyətin azadlığının, onun vətəndaş hüquqlarının, dövlətlə insanın qarşılıqlı münasibətlərinin vurğulanması xarakterikdir. Bu dövrdə formalaşmış və çox vaxt liberal adlandırılan konsepsiyanın xarakterik əlamətləri bunlardan ibarətdir: insanın öz maraqlarının və vətəndaş hüquqlarının dövlət miqyaslı maraqları aşması və onun üzərində dominantlıq təşkil etməsi. İctimai həyatın sonrakı təkamülü, habelə onu inikas etdirən sosial-siyasi və hüquqi doktrinalar cəmiyyəti dövlətə qarşı qoyan və ikincinin ictimai şər kimi qəbul edilə biləcəyi konsepsiyaların meydana gəlməsi ilə əlamətdar idi [19, s.143].

Əksər tədqiqatçılar haqlı olaraq belə hesab edirlər ki, nümayəndəli demokratiya ideyasını müdafiə edən məhz elə C.Lokk və Ş.Monteskye hüquqi dövlətin ən mühüm prinsiplərindən birinin – hakimiyyətin bölünməsi prinsipinin müəllifləridir. Monteskyenin fikrincə, qanunverici və icraedici hakimiyyətin eyni şəxs tərəfindən həyata keçirilməsi ona dövləti despotik metodlarla idarə etməyə imkan verə bilər.

XVIII əsr fransız maarifçisi J.J.Russo vətəndaş cəmiyyətinə dövlət anlayışının sinonimi və ictimai təşkilat kimi baxırdı və belə hesab edirdi ki, onun formalaşması öz təbii azadlıqlarını itirmiş və öz təbii hüquqlarını itirməkdən qorxan insanların birləşmə və ya assosiasiyası faktı ilə şərtlənir**.** İctimai müqavilə əsərində J.J.Russo vətəndaş cəmiyyəti anlayışından bəhs edərkən qeyd edir ki, siyasi orqanizmin mənası azadlıq və itaəti birləşdirməkdir. Fransız filosofu J.J.Russo Lokk və Monteskye nəzəriyyəsindən kənara çıxmaqla vətəndaş cəmiyyətinin prinsipial şəkildə yenilənmiş anlamını təklif edirdi. Özünün İctimai müqavilə haqqında əsərində o belə bir ideya irəli sürür ki, insanların təbii vəziyyəti harmonik münasibətlərdir. J.J.Russoya görə, bu harmoniya mütləqiyyət dövləti şəraitində pozulur, çünki vətəndaşlıq və insan təbiətinin mənəvi dəyərləri transformasiya olunur [9, s.68]. Vətəndaşların azadlıqları isə xüsusi mülkiyyət olmadan mövcud ola bilməz. Buna görə də J.J.Russo vətəndaşı zəruri olduğu qədər təmin edə biləcək kiçik mülkiyyəti müdafiə edirdi. O, xüsusi mülkiyyəti vətəndaş cəmiyyəti və dövlətin iqtisadi əsası hesab edirdi. Müqavilələr nəzəriyyəsini müdafiə edərək J.J.Russo güman edirdi ki, məhz vətəndaş cəmiyyəti çərçivəsində dövlət varlılarla yoxsullar arasında müqavilə kimi meydana gəlmişdir, lakin o, konflikt vəziyyətini deyil, cəmiyyətin demokratik dialoq vəziyyətini təşkil etməlidir [13, s. 124].

J.J.Russo ictimai müqavilə bazasında siyasi hakimiyyət yaradılması uğrunda çıxış edirdi. Bizlərdən hər birinin özünün bütün bacarığını ümumi iradənin ali rəhbərliyin tabeliyinə verməsi və hamımızın cəmiyyətin hər bir üzvünü tamın ayrılmaz hissəsi kimi qəbul etməyimiz bu müqavilənin əsasında dayanır [16, s. 208]. Öz hüquqlarının bir hissəsini dövlətə verməklə hər bir vətəndaş eyni zamanda ali hakimiyyətin daşıyıcısı olur. Russoya görə, buna bütün vətəndaşların siyasi bərabərliyi yolu ilə nail olmaq mümkündür. Dövlətin hakimiyyəti xalqa məxsus olmalıdır, çünki ümumi iradə həmişə haqlıdır [16, s. 26]. Dövlətdə ümumi iradənin hökmranlığını müdafiə edən J.J.Russo müasir elm tərəfindən vətəndaş cəmiyyətinə aid edilən hər cür assosiasiya, partiya və qrupları, yəni institutları tənqid edirdi [6, s. 54].

Lakin J.J.Russo hakimiyyətin bölünməsi ideyasına qarşı çıxan T.Hobbs ilə həmrəy idi. Onun fikrincə, bu bölgü dövləti cansızlaşdırır və vətəndaş cəmiyyətinin möhkəmlənməsinə mane olur. Eyni zamanda, Russo dövlətdə xalqın iradəsinin aliliyini və tam hakimiyyətini, vətəndaşların ictimai işlərin idarə olunmasında iştirakı zərurətini, qərarların icrasına nəzarət edilməsinin vacibliyini qeyd edirdi. Russonun əsas ideyası ondan ibarətdir ki, vətəndaş cəmiyyəti sahəsi insanların müqavilələr bağlamaqla təbii vəziyyətdən vətəndaş birliyi vəziyyətinə keçməsi nəticəsində formalaşır [21, s. 106].

XVIII əsr Fransa konstitusiya qanunvericiliyi bir çox cəhətdən ona borcludur. İnsan Hüquqları Bəyannaməsində, 1791 və 1793-cü illər Fransa Konstitusiyalarında Russo tərəfindən hazırlanmış müddəalara birbaşa istinadlar var. Lakin referendum, xalqın qanunvericilik təşəbbüsü kimi demokratik institutlar Russo ideyalarının təsiri olmadan meydana gəlmişdir. Vətəndaş cəmiyyəti və dövləti eyniləşdirən Russo belə güman edirdi ki, yalnız xalqın iştirakına əsaslanan idarə sistemi legitim sayıla bilər. Onun fikrincə, siyasi və vətəndaş münasibətlərinin müqavilə əsasları müasir sivilizasiyanın təbii vəziyyətinin dirçəlişi baxımından istinad nöqtəsini təşkil edir. J.J.Russo öz müasiri olduğu cəmiyyətin sivilizasiya meyarı kimi vətəndaşlığı əsas götürən ilk mütəfəkkirlərdən biri idi. Fikrimizcə, bu konsepsiyada, vətəndaş cəmiyyətinin xeyrinə vurğu dəyişdirilir, siyasi sistemdə sosiumun prioritetliyi qeyd olunur.

Ümumilikdə, T.Hobbs, J.J.Russo, Ş.Monteskye və b. əsərlərində vətəndaş cəmiyyəti konsepsiyası təbii hüquq və ictimai müqavilə ideyalarına əsaslanırdı. Bu, insanların icra etməli olduqları birgəyaşayış qaydalarını qəbul etmə zərurətini əks etdirirdi.

İngilis mütəfəkkir Adam Smit öz tədqiqatlarında xüsusi mülkiyyət maraqlarını müdafiə edirdi. O, dövlətin sahibkarlığa müdaxiləsini təqdir etmir, şəxsi təşəbbüslərin inkişafı üçün tam azadlıq verilməsini tələb edir, dövlət tərəfindən heç bir nəzarətin olmamasını və vətəndaşların fərdi iqtisadi azadlığı ideyasını irəli sürürdü. A.Smitin xüsusi mülkiyyət, bazar iqtisadiyyatı, insanların iqtisadi müstəqilliyi kimi fikirləri klassik vətəndaş cəmiyyəti modelinin əsaslarını möhkəmləndirmiş oldu [3, s. 107].

XVIII əsrin başlanğıcı - XIX əsrin sonlarını əhatə edən dövrdə vətəndaş cəmiyyəti ideyasının inkişafı üçün şəraiti təmin edən ümumi hüquqi bərabərlik və xüsusi sahibkarlıq ideya və prinsipləri ictimai şüurda möhkəmlənməyə başladı.

Fransa və Britaniya mütəfəkkirlərinin konsepsiyaları İ.Kant, İ.Fixte və bəzi başqa müəlliflər vasitəsilə Almaniyaya təsir göstərdi. Vətəndaş cəmiyyəti kimi İ.Kant universal insan hüquqlarına əsaslanan, istənilən xüsusi hüquqi və siyasi sistemlərdən kənara çıxan cəmiyyəti başa düşürdü.

İ.Kanta görə, hər kəsin azadlığının digərlərinin azadlığı ilə birləşdirilməsinin əsas yolu xalqın qanunverici olmağa qabil birləşmiş iradəsi olan vətəndaş cəmiyyətinin formalaşdırılmasından ibarətdir. O, vətəndaş cəmiyyətini formalaşdıran əsas prinsipləri göstərir: 1) cəmiyyət üzvünün insan kimi azadlığı, 2) onun bir təbəə kimi digərləri ilə bərabərliyi, 3) cəmiyyət üzvünün bir vətəndaş kimi sərbəstliyi [20, s. 87]. Filosofa görə, ümumi olaraq qəbul edilmiş mənəvi normalara hər bir şəxs tərəfindən riayət olunmasında məhz ailə, məktəb, kilsə, qonşuluq və s. icmalar, müxtəlif növ könüllü təşkilatlar qabildir [15, s. 70]. İ.Kant özünün sosial-fəlsəfi traktatının beşinci bəndini belə ifadə edir: bəşəriyyətin təbiətin onu həll etməyə məcbur etdiyi ən böyük problem ümumdünya hüquqi vətəndaş cəmiyyətinə nail olmaqdır [8, s. 12].

R.V.Puzikov və A.S.Kiselyov vətəndaş cəmiyyəti konsepsiyalarına həsr etdikləri məqalədə yazırlar: Birincisi, İ.Kant T.Hobbsın əksinə olaraq, vətəndaş cəmiyyətini dövlətlə eyniləşdirməkdən daha çox birinciyə açıq üstünlük verməklə onları fərqləndirir. İkincisi, o, ümumdünya vətəndaş cəmiyyəti haqqında, yəni xüsusi milli-ərazi təsisatı kimi ayrıca bir dövlətin hüdudları ilə kifayətlənməyərək bütün bəşəriyyəti əhatə edəcək vətəndaş cəmiyyəti ideyasını irəli sürür. Üçüncüsü, İ.Kanta görə, vətəndaş cəmiyyəti insanların təbii vəziyyətinə qarşı olmaqdan daha çox ... onun neqativ enerjisindən istifadə etməklə onu sözün hər iki mənasında təkmilləşdirir: həm inkişaf mənasında, həm də məqsədəyönlü şəkildəyişməsi mənasında (bəşəriyyətin ümumi tərəqqisi maraqlarına uyğun olaraq) [15, s. 70].

Kantın tarix fəlsəfəsində hüququn hökmranlığı prinsipinə əsaslanan ümumi vətəndaş cəmiyyəti ideyası irəli sürülürdü. O, təsdiq edirdi ki, vətəndaş cəmiyyəti şəraitində idarə edənlərin dəqiq və nöqsansız şəkildə qanunu icra etmələri üçün onların vətəndaşa qarşı malik olduğu məcburetmə imkanlarına vətəndaş da malik olmalıdırlar. İ.Kant belə bir qənaətə gəlirdi: hər bir insanın azadlığının başqasının azadlığı ilə birləşməsinin əsas yolu vətəndaş cəmiyyətinin formalaşmasıdır.

İ.Kant və Fixte özlərinin vətəndaş cəmiyyəti konsepsiyası nöqteyi-nəzərindən 1789-cu il Fransa Bəyannaməsini dövlət-vətəndaş cəmiyyətinin bərqərar olmasının rəhni kimi dəyərləndirirdilər. Qeyd etmək lazımdır ki, XVIII əsr mütəfəkkirləri tərəfindən işlənilib hazırlanmış individualizmin məşhur konsepsiyası cəmiyyətin vətəndaşını dövlətdən daha az asılı olan şəxsiyyət kimi şərh edir. Bu da vətəndaş cəmiyyəti ilə dövlətin eyniləşdirilməsinə dair ənənəvi təsəvvürlərin dəyişikliklərə uğramasına gətirib çıxardı. Belə bir düşüncə formalaşırdı ki, şəxsi həyata dövlətin hədsiz təsiri ayrı-ayrı fərdlərin öz iradəsini azad surətdə ifadə etməsinə və bir vətəndaş kimi qabiliyyətlərini tətbiq etməsinə mane olur.

Dövlətlə vətəndaş cəmiyyəti arasında daha dəqiq demarkasiya V. Fon Qumboldtın təlimində ifadə olunmuşdur. Humboldt belə hesab edirdi ki, vətəndaş cəmiyyətinin əsasları bunlardan ibarətdir: 1) fərd 2) təbii hüquq 3) fərdlər tərəfindən yaradılmış sosial və milli təsisatlar (20, s. 87). Nəticə etibarilə o, belə bir qənaətə gəlirdi ki, dövlətin fəaliyyəti insanın maraq və tələbatlarını təmin etməyə tabe etdirilməlidir**.** V. Fon Qumboldt dövlətlə vətəndaş cəmiyyəti arasında hüdudların müəyyən olunması haqqında fikir söyləyən ilk mütəfəkkirlərdən biri olmuşdur.

B.Franklin, T.Cefferson, T.Peyn və b.-da oxşar nəzəri fikirlər irəli sürmüşlər. Vətəndaş cəmiyyətinə dair ən radikal konsepsiya işləyib hazırlamış şəxs Amerika burjua inqilabının ideoloqu, məşhur İnsan hüquqları pamfletinin müəllifi T.Peyn olmuşdur. Onun üçün dövlətə qarşı dayanan vətəndaş cəmiyyəti mövzusu mərkəzi mövzu idi.

T.Peynin vətəndaş cəmiyyəti konsepsiyası dövləti zəruri şər kimi təqdim edir: onun ixtiyarı nə qədər az olarsa, cəmiyyət üçün bir o qədər yaxşı olar. Dövlət hakimiyyəti vətəndaş cəmiyyətinin xeyrinə məhdudlaşdırılmalıdır. O nə qədər mükəmməl olarsa, öz işlərini bir o qədər yaxşı idarə edə bilər və dövlətə daha az ehtiyacı olar [6, s. 54].

Mahiyyət etibarilə Amerika maarifçiləri praktikada vətəndaş cəmiyyətinin liberal-demokratik prinsiplərini əsaslandırıb həyata keçirdilər. Onlar belə hesab edirdilər ki, öz hüquqlarını həyata keçirmək üçün vətəndaşlar elə bir dövlət quruluşunu seçməlidirlər ki, yalnız vətəndaş cəmiyyətinin maraqlarına uyğun şəkildə fəaliyyət göstərsin. Özünüidarə prinsipləri əsasında fəaliyyət göstərən vətəndaş cəmiyyəti, T.Peynə görə, minimum dövlət hakimiyyəti mexanizmini tələb edir. Bu yanaşma klassik iqtisadi liberalizmin dövlət barəsində məşhur gecə gözətçisi tezisinin, habelə müəyyən dərəcədə anarxizmin, libertarizm və digər radikal ictimai-siyasi cərəyanların əsasında dayanır. O bildirirdi ki, vətəndaş cəmiyyəti dövlətin yaranmasına qədər meydana gəlmiş və vətəndaşların qarşılıqlı asılılıq və maraqlarına əsaslanan dinc münasibətlərin hakim olduğu təbii sosial vəziyyətdir [1, s. 86]. Bu istiqamətdə yanaşmalar sonrakı dövrlərdə liberal siyasi düşüncədə daha çox yayılmağa başladı. T.Peynin fikrincə, vətəndaş cəmiyyəti ona sağlam rəqabət, qarşılıqlı yardım və qarşılıqlı maraqlar strukturu kimi daxilən bağlı olan vətəndaşların qarşılıqlı fəaliyyətinin özünütənzimləyən sistemidir [2, s. 69].

XVIII əsrin ortalarından başlayaraq, vətəndaş cəmiyyəti konsepsiyaları bir çox Avropa ölkələri və ABŞ-ın siyasi həyatında tətbiq olunmağa başladı.

Praktikada vətəndaş cəmiyyətinin formalaşması əvvəl İngiltərədə, sonra isə ABŞ-da Hüquqlar Haqqında Billin qəbulu, Fransada insan və vətəndaş hüququ bəyannamələri ilə başlandı. Şəxsiyyətin hüquq və maraqlarının əsaslandırılmasını ABŞ-ın müstəqillik bəyannaməsi daha dəqiq əks etdirir.

Fransa İnsan və vətəndaş hüquqları bəyannaməsi dövlət orqanlarının şəxsi həyata müdaxiləsini məhdudlaşdıran fundamental prinsipləri ifadə edirdi. Bu sənəd bir çox cəhətdən öz zamanını qabaqlayırdı, çünki onda əks olunmuş yeni dövlət quruluşunun və vətəndaş cəmiyyətinin əsasları müasir dövrdə də möhkəm demokratiyanın olduğu ölkələr üçün aktual olaraq qalmaqdadır. Yeni dövr maarifçilərinin siyasi ideyaları ilə vətəndaş cəmiyyətinin müasir liberal şərhinin əsası qoyuldu.

XVIII əsrin ikinci yarısı görkəmli şotland alimi A.Fergyuson sözlərinə görə, dövlət yalnız departamentlərin məcmusudur, vətəndaş cəmiyyəti isə müxtəlif silk və partiyaların, habelə bir-birindən öz fəaliyyət sahələrinə, xüsusi mülkiyyətin ölçüsünə görə fərqlənən vətəndaşların birliyidir [1, s. 83]. Onun fikrincə, maraqların rəqabət və qarşıdurması müxtəlif sosial qrupların birləşmə və diferensiasiyasına xidmət edir və onları müxtəlif siyasi formalar yaratmağa sövq edir [3, s. 106]. Ferqyusonun tədqiqatları Yeni dövrdə vətəndaş cəmiyyətinin təhlilinin ilk cəhdlərindəndir. A.Ferqyusonun əsərləri Hegel və Marksın baxışlarına ciddi təsir göstərdi. Onlar A.Ferqyusonun vətəndaş cəmiyyətinin dövlət və onun siyasi institutlarından ayrılmaz olmasına dair, habelə vətəndaş ruhunun

daimi saxlanması və əsas sosial qruplar arasında iddiaların qarşılıqlı olaraq məhdudlaşdırılması üçün onlar arasında daimi siyasi qarşıdurmanın zəruriliyi kimi ideyalarından bəhrələnmişlər.

**2. Vətəndaş cəmiyyətinə dair müasir təsəvvürlərin inkişafı**

G.V.Hegel vətəndaş cəmiyyətini insanların şəxsi maraqlarının aşağıdakılardan ibarət olan fəaliyyət sahəsi kimi təsvir edirdi: ailə və silk quruluşu, din, hüquq münasibətləri, əxlaq anlayışı və savad, qanunlara sədaqət və qarşılıqlı hüquqi maraqlar. Hegelin fikrincə, fərdlərin qarşıdurması vətəndaş cəmiyyətinin inkişafında böyük rol oynadı. ... hər kəs özü üçün məqsəddir, başqaları onun üçün əhəmiyyətsizdir. Lakin başqaları ilə münasibət olmadan o öz məqsədlərinə tam həcmdə nail oluna bilməz. Bu zaman o, vətəndaş cəmiyyəti və dövləti müstəqil, lakin cəmiyyətin inkişaf etmiş sosial strukturu bazasında və qarşılıqlı surətdə bir-birindən asılı olan təsisatlar kimi nəzərdən keçirirdi. Onun fikrincə, dövlət vətəndaşların ümumi iradəsinin təzahürüdur, vətəndaş cəmiyyəti isə insanların şəxsi maraqlarının həyata keçirilməsi sahəsini təşkil edir [2, s. 69].

Vətəndaş cəmiyyəti konsepsiyasının işlənilib hazırlanmasında məhz G.V.F.Hegelin müstəsna xidmətləri olmuşdur. Fransız, anqlosaks və alman ictimai-siyasi fikrinin irsini cəmləşdirərək Hegel belə bir ideya irəli sürürdü ki, vətəndaş cəmiyyəti Orta əsrlərdən Yeni dövrə doğru uzun və mürəkkəb prosesdə ailədən dövlətə tərəf dialektik inkişafin xüsusi bir mərhələsini təşkil edir. Orlovaya görə, vətəndaş cəmiyyəti ideyasının tarixi Hegellə başlayır. Vətəndaş cəmiyyətinin meydana gəlməsini G.Hegel patriarxal ailənin dağılması və burjua münasibətlərinin formalaşması ilə əlaqələndirirdi. İqtisadi münasibətlərin inkişafı sayəsində patriarxal ailənin üzvləri bir-birinə yadlaşır, insan ehtiyac və əməklə tənzim olunan sistemə düşür [13, s. 128]. Hegel nəzəriyyəsində vətəndaş cəmiyyətinin fəaliyyət göstərməsinin əsas prinsipləri kimi şəxsi azadlıq, xüsusi mülkiyyət, aşkarlıq, azad ictimai rəy və ədalətli qanunlar çıxış edir. Hegelin fikrincə, ailənin dağılması ona gətirib çıxardı ki, insan vətəndaş cəmiyyətinin övladı oldu. O, vətəndaş cəmiyyətinin fəaliyyətinin tənzimlənməsində dövlətin xüsusi rolunu qeyd edirdi. Yalnız ali dövlət hakimiyyəti (Hegelə görə, bu, monarx tərəfindən idarə olunan konstitusiyalı dövlət idi) vətəndaş cəmiyyətində ədalətsizliyin qarşısına sədd çəkə bilər və cəmiyyətdə xüsusi maraqları birləşdirə bilər. Hegel vətəndaş cəmiyyəti və dövləti bir-birindən ayırmırdı: çünki nəhayətdə ali hakimiyyət və vətəndaş cəmiyyəti əhalinin ümumi marağı üçün birgə fəaliyyət göstərirlər [13, s. 129].

Lakin Hegel dövlətin və vətəndaş cəmiyyətinin fəaliyyət sahələrini ayırıb göstərirdi: dövlətin fəaliyyət sahəsi ümumi maraqlar, vətəndaş cəmiyyətini fəaliyyət sahəsi isə xüsusi maraqlar olmalıdır**.** O, həmçinin müasiri olduğu cəmiyyətdə üç elementin – ailə, hüquq və vətəndaş cəmiyyətinin yanaşı mövcud olmasına xüsusi diqqət yetirirdi. Maraqların mübarizəsinin vətəndaş cəmiyyətinin inkişafının dəyişməz şərti olduğu üçün bütün institutların və vətəndaşların fəaliyyətinin qanuni əsasını təşkil edən hüquqi dövlətsiz bu cəmiyyət təsəvvür oluna bilməz [19, s. 145]. Vətəndaş cəmiyyəti və dövlət probleminin müasir şərhinə müstəqim surətdə təsir göstərən ideyalar məhz elə Hegel tərəfindən irəli sürülmüşdür.

* *filologiya üzrə fəlsəfə doktoru, doktorant, ARTİ*
e-mail: arif_alim@mail.ru

edən sosial mühit və texnoloji yeniliklər, dünyanın sanki bir əldə cəmlənməsi fonunda ədəbiyyatın tədrisində nəyi labüd edir? Milli dəyərləri qorumaq, amma modern şəxsiyyətin formalaşdırılması üçün hansı addımlar atılmalıdır?

Elə yuxarıdakı zərurəti başa düşərək, ədəbi əsərlərin öyrədilməsi zamanı şagirdlərin şifahi və yazılı nitqi tədricən cilalanır. Şagirdlər ana dilimizdə yazılmış əsərlərdə dilin gözəlliyini, dərin fikir və ifadə zənginliyini görüb-götürür. Təlim prosesində sənətkarın sözdən istifadə məharəti, nitqin bədiiliyi, ifadəliliyi, obrazlı sözün doğurduğu emosionallıq və fikir tutumu haqqında aydın təsəvvür yaradılır, bu əsasda şagirdlərin özünün nitqinin zənginləşməsi təmin edilir [2, s. 7] fikri ilə yanaşı qeyd edilir ki, şagirdlərin ümumi orta təhsil səviyyəsində qazandıqları bacarıq və vərdişləri təkmilləşdirilməklə, tarixi-xronoloji ardıcıllıqla Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişaf yolu, ədəbi ənənə və əlaqələri, Azərbaycan və dünya ədəbiyyatının görkəmli ədəbi simalarının yaradıcılığından nümunələr öyrədilir, ədəbiyyat nəzəriyyəsinə dair məlumatlar genişləndirilir, şagirdlərin ədəbi-bədii, tənqidi təfəkkürünün formalaşması təmin olunur [2, s. 8].

Bəs, biz bu tədqiqatımızda nəyi təklif edirik? Müəllim nə etməlidir? Dərslik müəllifi nə etməlidir? Cavabımız belədir: milli ədəbi nümunələr və paralel şəkildə dünya ədəbiyyatı nümunələrini tədris edərək, inteqrasiya quraraq ədəbiyyat fənninin tədris yükü daxilində şagirddə planetar təfəkkürü formalaşdırmaq. Milli ədəbiyyatla dünya ədəbiyyatını, ədəbiyyat fənni ilə tarix fənnini sırf inteqrasiya şəklində tədris etmək zəruridir. Yəni xalqların minilliklər ərzində formalaşmış və onların davranışlarına, etnodini fəaliyyət və intellektlərinə hopmuş, onları hərəkətə gətirən mədəni nailiyyətlərini Azərbaycan yeniyetməsi o dərəcədə mənimsəməli və özününküləşdirməlidir ki, dəyişməkdə olan dünyanın mədəni qazanclarını, genezisini şüurlu surətdə tuta bilsin, dünya xalqlarının mədəni, intellektual hərəkət xəritəsini müəyyənləşdirsin.

Azərbaycanın müasir dünyada tutduğu mövqeyi yeni tendensiyalar müəyyənləşdirir, yeni çağırışları reallaşdırmağı qaçılmaz edir. «Azərbaycanın beynəlxalq əmək bölgüsünə inteqrasiyası, dünya ölkələri arasında əməkdaşlıq meyillərinin güclənməsi, iqtisadiyyatın dinamik inkişafı, yeni istehsal sahələrinin meydana gəlməsi cəmiyyətin hər bir sahəsində yüksək təhsil səviyyəsinə malik mütəxəssislərə tələbatı artırır. Bu isə öz növbəsində yüksək tələblərə cavab verən çevik təhsil siyasətinin həyata keçirilməsini zəruri edir» [8, s. 24].

Məktəbdə milli və bəşəri dəyərlərə əsaslanan təhsilin məzmunu xalqın gələcək inkişafını, təhsil-təlim keyfiyyətini, əhalinin rifahını təmin edəcək əsas keyfiyyət amilinin yaradıcısıdır. Şagird şəxsiyyətinin, təfəkkürünün inkişafı ölkənin əmək bazarını, intellektual sferasını təmin edəcək, rəqabətədavamlı kadr hazırlığını müəyyən edəcək kriteriyalardır. «Ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir. Müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. İnsan kapitalının inkişafı, iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir [1, s. 13]. Azərbaycan məktəbinin, pedaqoji fikir tarixinin inkişaf dinamikasına diqqətlə nəzər saldıqda dünyanın əsas yaradıcı şəxslərinin bədii əsərlərinin tədris materialı olaraq hər zaman əsas resurslardan biri kimi istifadə olunduğunu müşahidə edirik. Dünya ədəbiyyatı nümunələrinin sistemli və müqayisəli tədrisi ədəbiyyat fənninin tədrisi səviyyəsini yüksəltməyə, standartları daha effektli reallaşdır-

mağa, şagird marağını təmin etməyə xidmət edir. Təsəvvür edək ki, qədim Şumer, qədim Misir, qədim yəhudi, qədim Çin, qədim yunan və Roma ədəbiyyatı haqqında bəzi seçmə nümunələrin qədim dövr Azərbaycan ədəbiyyatının tədrisi zamanı müqayisəli şəkildə tədris olunması şagirdin idraki və ünsiyyət bacarıqlarının inkişaf etdirilməsində böyük rol oynaya bilər. Paralel olaraq «Ədəbiyyat» fənni ilə «Ümumi tarix» fənni arasında inteqrasiya yaratmaq, hər iki fənn üzrə səriştələr formalaşdırmaq baxımından bu məsələ xüsusi rol oynayar.

**2. Milli və dünya ədəbiyyatı nümunələrinin inteqrativ tədrisi məsələləri**

Şagird eyni məzmunlu, müxtəlif predmetli fənlərdə məlumatları alaraq daha nizamlı və daha sistemli bilgilərə malik olur. Məsələn, VI sinif «Ümumi tarix» dərsliyində «Qədim Misirdə mədəniyyət», «Babil mədəniyyəti», «Assur mədəniyyəti», «Midiya mədəniyyəti», «Parfiya mədəniyyəti», «Qədim türk, Çin və Hindistan mədəniyyəti», «İskit mədəniyyəti», «Hun mədəniyyəti», «Yunan mədəniyyəti», «Roma mədəniyyəti» bölmələrində ədəbiyyat haqqında məlumat verilir, hər bir xalqın ədəbiyyatının inkişafı və ümumi xüsusiyyətləri haqqında bu və ya digər məlumatlar qeyd edilir. Eyni hal yuxarı sinif «Ümumi tarix» dərsliklərinə də aiddir. Ədəbiyyatların paralel olaraq təhlil edilməsi, müqayisələr aparılması həm tarix fənni, həm də ədəbiyyat fənninin tədrisinin keyfiyyətinin artırılması, şagirdin idraki bacarıqlarının daha mütəşəkkil formalaşdırılması istiqamətində ciddi müsbət nəticələr verə bilər. «Qədim misirlilərin şifahi xalq yaradıcılığında əfsanələr mühüm yer tutur. Əfsanələr qədim misirlilərin həyatı və məişətindən bəhs edir, tanrı və fironların qüdrətinin sarsılmaz olduğunu təbliğ edirdi. Dünyanın yaranması haqqında Misir əfsanəsində Günəş tanrısı Ra dünyanın yaradıcısı hesab edilirdi. Əfsanəyə görə, səmanı, yeri, bitki və heyvanları Ra yaratmışdır» [7, s. 22]. X sinif «Ədəbiyyat» dərsliyinə nəzər salaq: «Yaradılış» dastanında qədim türklərin əvvəllər kainatın mənzərəsinin necə olması barədəki təsəvvürləri əksini tapıb. Əsərdə Tanrı Qara xan obrazı yaradılıb. Dünya Tanrının iradəsinə tabedir. Dünyada xeyirxahlıqla yanaşı, bədxahlıq da mövcuddur. Tanrı bədxahlığın xeyirxahlığı üstələməsinə, dünyanı idarə etməsinə imkan vermir. Göyün yeddinci qatında oturub kainatı idarə edən Tanrı türklərin yaşadığı torpağın da, cəmiyyətin də taleyini müəyyənləşdirir” [6, s. 20]. Eyni tipli məlumatlar X sinif “Ümumi tarix” dərsliyində də əks olunmuşdur. Qeyd olunanlardan belə nəticə çıxır ki, şagird dünya xalqlarının mədəniyyəti və ədəbiyyatı haqqında məlumat alır, bu məlumatlar həmin dövrə aid tarixi mövzuları mənimsəməyə kömək olur. Yuxarı siniflərdə də bu məlumatlar ardıcıl olaraq davam etdirilir. Şagird dünya ədəbiyyatının tanınmış simalarının adını eşidir, müxtəlif xalqların ədəbiyyatları barədə qısa da olsa, məlumatlanırlar. Həmin məlumatlar şagirdin dünyagörüşünün formalaşması üçün ciddi materiallar hesab edilə bilər. Odur ki, “Ədəbiyyat” fənnində də müxtəlif xarici ölkə xalqlarının ədəbiyyatı ilə bağlı nümunələri tədrisə daxil etmək, müqayisələr aparmaq zərurəti meydana gəlir. “Ədəbiyyatdan müxtəlif məşğələlərdə Azərbaycan ədəbiyyatının, eləcə də dünya xalqlarının ədəbiyyatından seçilmiş nümunələrin müzakirəsi şagirdlərin müasir dövrdə xüsusi aktuallıq kəsb edən mənəvi-estetik problemləri, həyatda, cəmiyyətdə baş verən dəyişiklikləri dərk edib qiymətləndirmələrinə, milli və ümumbəşəri mənəvi dəyərlərə imkan yaradır” [2, s. 10]. Maraqlı tərəf odur ki, əslində orta məktəb “Ədəbiyyat” dərsliklərini yazarkən müəlliflər ara-sıra dünya ədəbiyyatı ilə müqayisələr etmək istəyiblər. Fikir verin, X sinif “Ədəbiyyat» dərsliyində qeyd edilir ki, “Qədim yunan əsatirlərinin birində istedadlı müğənni Orfeyin oxuduğu gözəl nəğmələr Yer üzündə nə varsa, hamısını heyran edir; külək yatır, dəniz sakitləşir, vəhşi heyvanlar musiqinin təsiri altına düşür, donub qalırlar... Ən qədim zamanlardan bu günədək musiqinin insana möcüzəli, ecazkar təsiri etiraf edilir” [6, s. 160]. Bundan əlavə, həmin dərsliyin qədim dövr ədəbiyyatından bəhs edən icmal hissəsində Azərbaycan ədəbiyyatının formalaşması ümumtürk kontekstində izah edilir:

"Qədim dövrlərdə geniş coğrafi ərazidə yayılmış türk xalqlarının ədəbiyyatı ortaq səciyyə daşımış, Azərbaycan ədəbiyyatı ümumtürk ədəbiyyatının tərkib hissəsi kimi yaranmışdır. Qədim dövrlərə getdikcə türk ədəbiyyatları arasında dil, üslub, obraz baxımından ümumiliyin, əlaqənin daha güclü olduğunu görmək olur. Qədim türk bədii düşüncə nümunələrini bizə ilk tanıdan Çin qaynaqlarıdır. Çin dilinə tərcümə olunmuş, eradan əvvəl II əsrə aid nümunələr – şeir parçaları ideya məzmununa görə bugünkü türkü düşündürür, onda həzin, hüznlü ovqatın yaranmasına səbəb olur. Bu parçalarda ifadə olunmuş hiss və düşüncə min il sonra Orxon-Yenisey abidələrində təkrar olunur, türkün öz dilindən eşidilir, türkün öz əlifbasında, yazısında oxunur" [6, s. 19]. Müəlliflər şagirdlərdə haqlı olaraq Azərbaycan ədəbiyyatının genezisi haqqında dolğun informasiya, məlumat yaratmaq məqsədi ilə fikirlərini ardıcıl olaraq davam etdirirlər: "Qədim türklərin ortaq ədəbiyyatının əsasında duran epos yaradıcılığı "Dünyanın yaranması", "Türklərin törəyişi", "Oğuz xaqan", "Alp Ər Tonqa", "Ərgənəkon", "Köç" onların tarixini, qəhrəmanlığını əks etdirən qiymətli bədii nümunələrdir. Ortaq məkanda, coğrafiyada, mənəvi mühitdə yaradılmış bu əsərlərdə ulu babalarımızın təfəkkürü, dünyaya, həyata baxışı, mədəni ənənələri bədii ifadəsini tapmışdır. Bizə çatan nümunələrdən məlum olur ki, onlar məzmunca fərqli, rəngarəng olmuşdur. Eyni məntiq və təhlil sistemini müqayisəli şəkildə müxtəlif ədəbi dövrlərin təhlilində də müşahidə edirik. Məsələn, "Azərbaycan türklərinin qədim qəhrəmanlıq salnaməsi, bədii söz sənətimizin ilk mükəmməl ədəbi- bədii hadisəsi olan "Kitabi-Dədə Qorqud» islamiyyətdən çox-çox öncəki "Oğuznamə"lər silsiləsinə daxil olsa da, ana dilimizin abidəsidir. Onun yazıya alınması yazılı ədəbiyyatımızın yalnız ərəb, yaxud fars dilində deyil, həm də doğma dilimizdə inkişaf etdiyini göstərirdi" [6, s. 20]. Azərbaycan təhsili hazırda yeni məzmun keyfiyyətləri qazanaraq inkişaf etmiş ölkələrin mütərəqqi təhsil nailiyyətlərinin təsdiq olunmuş təcrübəsindən bəhrələnərək yeni quruculuq və inkişaf dövrünü yaşayır. Həyata keçirilən islahatların məntiqində və amalında məhz milli və bəşəri dəyərlərə əsaslanan təhsil siyasəti dayanır. Şagirdin vətənə, millətə, torpağa bağlılığı, intellektual səviyyəsinin inkişaf etməsi, koqnitiv-idraki və kommunikativ-ünsiyyət bacarıqlarının daha nizamlı və sistemli formalaşması ədəbiyyat nümunələrindən hansı forma və məzmunda bəhrələnməsindən asılıdır. Bəşəri dəyərlərin və nümunələrin əsas qaynağı olan xarici ölkə xalqlarının ədəbiyyat nümunələrinin, tədrisdə istifadə edilməsi tədrisin keyfiyyətinin artırılmasına ciddi təsir edir. Şagird həm milli ədəbi nümunələrlə tanış olur, onları qavrayır, həmin yazıçının, folklor nümunəsinin təqdim etdiyi məntiqi yükü, paralel olaraq dünya ədəbiyyatı nümunəsinin həmin məzmununu mənimsəyir, daha əhatəli və dərin bilik, bacarıq əldə edir. "Kitabi-Dədə Qorqud" dastanları ilə Homerin "Odisseya"sı, "İlliada"sı, "Koroğlu" dastanı ilə qədim Hind dastanları, Nizami Gəncəvi ilə U.Şekspir, yunan mifologiyası – Azərbaycan əsatir sistemi, Yunan Allahlar panteonu ilə "Avesta", XII əsr Azərbaycan intibahı ilə Avropa intibahı, XIX əsr M.F.Axundzadə yaradıcılığı ilə fransız ədəbiyyatında Molyer, C.Məmmədquluzadə, Ə.Haqverdiyev yaradıcılığı ilə O.Henri, Mark Tven yaradıcılığı, Anar, Elçin yaradıcılığı ilə U.Folkner, E.Heminquey, Q.Q.Markes yaradıcılığı ilə müasir Azərbaycan ədəbiyyatının əsas nümunələrinin qarşılıqlı müqayisə şəklində məktəb ədəbiyyat kursunun verdiyi imkanlar çərçivəsində təhlil və tədris edilməsi Azərbaycan məktəbinə ancaq qazandıra bilər. Lakin bir məqamı qeyd etməliyik ki, ədəbi nümunələrə müəyyən qədər həssaslıqla yanaşılmalıdır. Şagirdin və yerli psixologiyanın xüsusiyyətləri nəzərə alınmalıdır. "Ədəbiyyat kursu şagird şəxsiyyətinin, onun mənəvi aləminin, estetik zövqünün formalaşdırılmasında böyük imkanlara malikdir. Məktəblilər bədii əsərdə əks olunmuş mürəkkəb hadisələri, həyati reallıqları dərk edib qiymətləndirməklə fəal həyat mövqeyinə yiyələnir. Bu mənada ədəbiyyat dərslərinə həyat və mənəviyyat dərsləri, idrak fəaliyyətinin bir növü kimi yanaşılmalıdır. Bədii ədəbiyyat mənəvi ünsiyyətin xüsusi formasıdır. Kamil sənət nümunəsini oxuyan, orada qaldırılan mənəvi-estetik problemlər

barədə düşünən, qəhrəmanların taleyinə, sənətkar mövqeyinə münasibət bildirən şagird-oxucu qüdrətli sənətkarın müsahibinə çevrilir, onun fikir və düşüncələrini öyrənməklə mənən zənginləşir. Bu prosesdə məktəblilərin öz fəaliyyətini, hərəkət və davranışını mənəvi, estetik normalar baxımından qiymətləndirilməsi də mümkün olur" [5, s. 44]. Bu mənada şagirdlərə milli bədii nümunələrlə yanaşı, əcnəbi müəlliflərin seçilmiş və dünya əhəmiyyətli əsərlərinin təqdim edilməsinin xüsusi əhəmiyyəti vardır. "Cəmiyyətin, elmin, mədəniyyətin inkişafının hər mərhələsində dəyişən şəraitə uyğun olaraq gənc nəslin təlimi, tərbiyəsi qarşısında yeni vəzifələr qoyulur. Həmin vəzifələr təlim-tərbiyə prosesinin əsas təşkili forması olan dərsin nəzəri mərhələlərində, təşkilində, metodikasına verilən tələblərdə də öz əksini tapır. Bu, təbii, qarşısıalınmaz prosesdir. Cəmiyyətin dəyişən, artan tələbatına uyğun olaraq təhsil sistemi də daim müasirləşməli, yeniləşməlidir" [4, s. 50]. İngilis filosofu, riyaziyyatçısı, ictimai xadimi, 1950-ci ildə ədəbiyyat üzrə Nobel mükafatı qazanmış Russel Bertrand "Təhsilin iki məqsədi olmalıdır: bir tərəfdən zəkanı yetişdirmək, digər tərəfdən vətəndaş yetişdirmək" sözlərini yazır [9, s. 123] və bu özündə bir çox zəruri mətləbləri əks etdirir. Azərbaycan filoloji və humanitar elmlərinin tarixinə nəzər salsaq görərik ki, ziyalılar həmişə xalqın, şagirdlərin inkişafı, tərəqqisi, maariflənməsi məqsədilə milli ədəbi nümunələrlə yanaşı, xarici ölkə xalqlarının ədəbiyyatından nümunələrin dilimizə tərcüməsinə böyük əhəmiyyət vermişlər. Təsadüfi deyil ki, Azərbaycan elmində xüsusi yeri olan "Füyuzat" məcmuəsinin ilk nömrəsində Hötenin "Faust" əsərindən bir hissənin doktor Əli Hüseyn tərəfindən tərcüməsi verilib. Bu onun göstəricisidir ki, xarici ölkə xalqlarının ədəbiyyat nümunələrinin dərsliklərdə yer alması vacibdir, əhəmiyyətlidir.

**Nəticə**

Azərbaycan ədəbiyyatının əsas ideya və mövzularının dünyanın bir çox ölkələrində də yayıldığı, bunun həm tipoloji, həm də qarşılıqlı bəhrələnmə olması barədə bir çox elmi araşdırmalar aparılmışdır. "Müasir dövrdə ümumdünya tarixi prosesini səciyyələndirən başlıca cəhət qloballaşmadır. Dünya ölkələri və xalqları arasında yaxınlaşma cəhdi istər ictimai-siyasi, istərsə də iqtisadi və mədəni sahələrdə inteqrasiyanı sürətləndirərək elə bir həddə çatdırılıb ki, bu da planetin taleyi üçün məsuliyyətlə bərabər, həm də planetar təfəkkürün formalaşmasına gətirib çıxarıb" [3, s. 7]. Bir məqalə ilə dünya ədəbiyyatının orta məktəblərdə tədrisinin əhəmiyyətini əhatəli şəkildə göstərmək mümkün olmasa da, düşünürük ki, növbəti illərdə ədəbiyyat fənn kurikulumları hazırlanarkən və dərsliklər yazılarkən bu məqamlara xüsusi fikir veriləcək.

İnanırıq ki, ədəbi əsərlərin paralel tədrisi, inteqrasiyalar şagirdləri ədəbiyyat fənninə marağını artıraraq onlarda elmə, təhsil və tədrisə marağı gücləndirəcək, məzmun standartlarının daha səmərəli reallaşdırmasına stimul verəcək, şərait yaradacaq.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1. Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası// Azərbaycan məktəbi, 2013, №5, s.10-24.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Ədəbiyyat fənni üzrə təhsil proqramı [kurikulumu] [V-XI siniflər], Bakı: Təhsil İnstitutu, 2013, 93 s.
3. Babayev M. Con Steynbek yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisəli kontekstdə. Bakı: ADU, 2009, 214 s.
4. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016, 452 s.
5. Qarabağlı Ə. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Maarif, 1968, 350 s.
6. Ədəbiyyat-10. Ümumtəhsil məktəblərinin 10-cu sinifləri üçün dərslik. Bakı: Bakı nəşr,

2018, 208 s.
7. Ümumi tarix- 6. Ümumtəhsil məktəblərinin 6-cı sinifləri üçün dərslik. Bakı: «Aspoliqraf LTD MMC, 2017, 128 s.
8. Valehov C. Milli təhsil müasir transformasiyalar prosesində (sosialfəlsəfi təhlil). Bakı: Təhsil, 2015, 232 s.

**Türk dilində**

9. Bertrand R. Bilimdən beklediklerimiz. İstanbul: Varlık Yayınevi, 1962, 189 s.

**Rus dilində**

10. Найн А.Я. Инновации в образования. Челябинск: ГУ ПТО,1995, 288 с.

### *Summary*

***Arif Asadov***

### *New Social Challenges and İssues of Teaching Literature in Secondary Schools*

The article reflects the modern requirements for the teaching of literature in secondary schools. The author writes that in the modern world, new social challenges and technological developments set new requirements for schools. Social networks and the Internet, where the database is updated every day, seem more attractive and flexible for students. It is important that this process is for the benefit of the students. Specialists need to look for new ways and means for students to develop and acquire the necessary skills. For this, the subject of literature has more responsibilities. The author is looking for new ways in this regard. In the article, he emphasizes the need for parallel teaching of national and world literature, integration with different disciplines as one of these ways. The course analyzes the role and importance of teaching selected examples from world literature in the formation of logical, critical and creative thinking of students, the role and importance of teaching these examples in the formation of cognitive and communication skills. The author notes that the essence of subject curricula is the formation of national and human ideas in students, the development of personalities. It is important to keep that source in mind. Laws allow textbook authors to turn to more modern sources. Students should be read works that interest them. It is very important to find useful works for teaching. At the same time, the study states that the correct and accurate implementation of the requirements, content lines and standards of the state is possible through the teaching of national literature, as well as examples of world literature. Students should make comparisons. They should know that national literature is a part of world literature. They should know that humanism, patriotism, internationalism, diligence, friendship and cooperation are promoted in the literature of all peoples of the world. The world is a single home. The problems of the whole world are the same for everyone. That is why we must think planetary. There must be serious literary texts to teach them to students.

**Keywords:** *World literature, foreign literature, comparative teaching, methodology of teaching literature*

### *Резюме*

***Ариф Асадов***

### *Новые социальные вызовы и проблемы преподавания литературы в общеобразовательных школах*

В статье отражены современные требования к преподаванию литературы в общеобразовательных школах. Автор пишет, что в современном мире новые социальные вызовы и технологические разработки предъявляют новые требования к школам. Социальные сети и Интернет, где база данных обновляется каждый день, кажутся студентам более привлекательными и гибкими. Важно, чтобы этот процесс пошел на пользу учащимся. Специалистам необходимо искать новые пути и средства для развития и приобретения студентами необходимых навыков. Для этого у предмета литературы больше ответственности. Автор ищет новые пути в этом отношении. В статье он подчеркивает необходимость параллельного преподавания отечественной и мировой литературы, интеграции с разными дисциплинами как одного из этих способов. Курс анализирует роль и важность преподавания избранных примеров из мировой литературы в формировании логического, крити-

ческого и творческого мышления студентов, роль и важность преподавания этих примеров в формировании когнитивных и коммуникативных навыков. Автор отмечает, что суть предметных учебных программ заключается в формировании у учащихся национальных и общечеловеческих представлений, развитии личности. Важно помнить об этом источнике. Законы позволяют авторам учебников обращаться к более современным источникам. Студентам следует читать те произведения, которые им интересны. Очень важно найти полезные произведения для обучения. В то же время в исследовании констатируется, что правильная и точная реализация требований государства, содержания линий и стандартов возможна посредством преподавания национальной литературы, а также образцов мировой литературы. Студенты должны проводить сравнения. Они должны знать, что национальная литература – это часть мировой литературы. Они должны знать, что гуманизм, патриотизм, интернационализм, трудолюбие, дружба и сотрудничество пропагандируются в литературе всех народов мира. Мир – это единый дом. Проблемы всего мира у всех одинаковые. Вот почему мы должны мыслить планетарно. Должны быть серьезные литературные тексты, чтобы преподавать их студентам.

**Ключевые слова:** *мировая литература, зарубежная литература, сравнительное обучение, методика преподавания литературы*

Redaksiya heyətinin üzvü file.d.,prof. Qasımov İkram Ziyad oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT: 82**

# SOVET DÖVRÜ POEZİYASINDA ŞAİR AZADLIĞI POETİK YARADICILIQ MÜSTƏVİSİNDƏ

**Günəş XUDAYAROVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 11 may 2021; çapa qəbul edilmişdir: 5 iyun 2021; online-da çap edilmişdir:30 sentyabr 2021.*

*Received: 11 th May, 2021; accepted: 5 th Jule, 2021; published online: 30 th September, 2021.*

**Açar sözlər:** *qadağalar dövrü, şair, azadlıq, vətən, poeziya*

## Giriş

Sovet rejimi illərində ədəbi mühitə müntəzəm olaraq ideoloji orqanlar tərəfindən nəzarət olunur, şairlərin həm ədəbi fəaliyyəti, həm də vətəndaş olaraq mövqeyində sovet ideologiyası ilə ziddiyyət təşkil edən xüsusiyyətlər aşkar olunduqda onların azadlıqları məhdudlaşdırılır, repressiya, sürgün və təqiblərə məruz qalır, yaxud müəyyən qəliblər çərçivəsində yazmağa məcbur edilirdi. Sovet dövrünün belə amansız qadağalarına baxmayaraq, öz ideyalarını ifadə etməkdən çəkinməyən çoxlu sayda şairlərimiz düşüncələrini poetik yaradıcılıq müstəvisində həm dövrə etirazını, həm də gələcək nəsillər üçün bir şairin azadlıq uğrunda mübarizəsini ifadə etmiş oldular. O mübarizə ki, həmin şairlərin azadlıq idealları uğrunda dönməzliyini, qətiyyətini ifadə edən yaradıcılığına təsir edərək mübariz poeziyanın əsasını qoydu. Sovet rejiminin zülm və işgəncələri şairlərimizin azadlıq istəklərini əməli olmaqla yanaşı, həm də ədəbi müstəvidə ifadə etməyə sövq etmişdir. Azadlıq idealları poetik yaradıcılıq səviyyəsinə yüksəlmiş azad ruhlu şairlərin təhlil edilən şeirləri bu idealların parlaq nümunələri olduğunu bizə deməyə əsas verir və aparılan tədqiqat da məhz bu istiqamətdədir.

Sovet hakimiyyəti Azərbaycan xalqının ziyalılarını güllələmək, yaxud məhbəs və sürgünlərdə çürütməklə, bir xalqın, bir millətin özünüdərkinə mane olmaq, xalqı öz mənəvi köklərindən ayırmaq və kommunist ideologiyasının kor-koranə təbliğatçısına çevirmək istəyirdi. Ədəbiyyatı hakimiyyətdən asılı vəziyyətdə saxlamaq, söz azadlığı, şair azadlığını məhdudlaşdırmaq və ya sıradan çıxarmaq başlıca məqsədə çevrilmişdi. Belə qadağalarla əhatələnmiş bir dövrdə sənətkarların başlıca qayəsi məhdudiyyət və qadağalara boyun əyməmək və əsərlərində ifadə etdiyi azadlıq ideyalarını bədii cəhətdən təcəssüm etdirməkdən ibarət idi. Azərbaycan xalqının tarixini, dilini, əlifbasını, mədəniyyətini və ədəbiyyatını dəyişmək istəklərinə qarşı bu milli-mənəvi dəyərləri qoruyan və onları təbliğ edən yaradıcı ziyalılar 30-cu illər repressiyasına məruz qaldılar.

*...Rus-sovet ideoloji basqıları nə qədər güclü olsa da, Azərbaycan dünyadan nə qədər təcrid olunsa da, milli intellektualların, ziyalıların, mütəfəkkirlərin sayəsində Azərbaycan xalqı öz mənəvi bütövlüyünü qoruyub saxladı... Azərbaycan ziyalıları Sovet hökuməti üçün o qədər arzuedilməz olmuşlar ki, XX əsrin 20-ci illərindən, yəni Sovet dövlətinin yarandığı ilk illərdən başlayaraq ta 60-cı illərə qədər vaxtaşırı təqiblərə məruz qalmış, sürgünlərə göndərilmiş və məhv edilmişlər. Lakin mənsub olduqları xalqın ruhunu daşıyan, ideallarını nümayiş etdirən bu insanlar heç zaman susmamışlar* (4, s. 26). Xalq, millət azadlığının, milli-mənəvi dəyərlərin açıq-aşkar təbliğ edilməsini öz

* *doktorant, Bakı Avrasiya Universiteti; Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı*
e-mail: gunes.xudayarova92@mail.ru

azadlığından da ali duyğu hesab edən ziyalılar sözün həqiqi mənasında sovet rejiminə ədəbiyyatın, sözün gücü ilə meydan oxumağa müvəffəq oldular.

Sovet rejimi şair və yazıçılarımıza millətçilik, vətənçilik mövzularında yazmağı yasaq edir, tarixi mövzulara müraciəti və kədər motivini, xüsusən də ictimai kədəri ədəbiyyata yaxın buraxmırdı. Məqsəd ədəbiyyatı sovet rejimini mədh edən bir vasitəyə çevirməkdən ibarət idi. Yeni quruluşa etiraz, xalq, millət, azadlıq ideologiyası ilə yazıb-yaradan böyük ədiblər isə sovet dövrünün 30-cu illər repressiyası yolundan keçməli oldular. *İstər sənət, istərsə də ədəbiyyat tarixinin hansı bir səhifəsini açmış olsanız, onların cəmiyyət tarixi ilə addım-addım dəyişdiyini görəcəksiniz. Sənət və ədəbiyyat cəmiyyətin həvəs və arzularına tərcüman olduqları üçün heç bir zaman bunlar cəmiyyətin yaşayış xaricində təsəvvür edilə bilməzlər* (12, s. 194). Azərbaycanın sovet poeziyası da məhz tarixin Azərbaycan xalqına, sənətkarlarına yaşatdığı ictimai-tarixi bir dövrün məhsuludur.

Bu illərdə vətən azadlığı, milli birlik yolunda bir əsgər kimi döyüşən, poeziyaya yeni ruh gətirən böyük ədiblərimiz oldu. Həmin sənətkarlar xalq azadlığını öz azadlığı kimi dəyərləndirir, o ruhda bədii nümunələr yaradırdılar. Sovet hakimiyyətinin ağır qadağalarına meydan oxuyan, poetik dillə dövrə etiraz səsini ucaldan çoxlu sayda sənətkarlarımız oldu. Həmin sənətkarlarımızdan – Əhməd Cavad, Ümmügülsüm Sadıqzadə, Mikayıl Müşfiq, Almas İldırımın poetik nümunələri əsasında fikrimizi əsaslandıracağıq. Yaradıcılıqlarının təməlini vətən, xalq, söz, milli dəyərlərin azadlığını təşkil edən ədəbiyyat mücahidlərimiz poeziyada sanki yeni bir era yaratdılar. Kəskin qadağaların olduğu illərdə mübariz poeziyaları ilə ədəbi və tarixi müstəvidə dövrə meydan oxuyan sənətkarlarımız mənəvi olaraq əyilməzlik, dövrə etirazın açıq-aşkar nümunələrini yaratmışdılar.

### Əhməd Cavad poeziyasında azad vətən sevgisi

XX əsr poeziyasında xüsusi bir cəhət ondan ibarətdir ki, onun yaradıcısı olan şairlər azadlığa fərdi deyil, xalq və onun azadlığı istiqamətində yanaşır, bədii düşüncələrini bu yolda inkişaf etdirdilər. Sovet hakimiyyəti özünə lazım olan ideologiya yetişdirmək və bu yolda haqq səsini ucaldan ziyalıları repressiya qurbanına çevirir, sürgün və təqib edirdi. Əhməd Cavad belə şəxsiyyətlərdən biri olaraq inandığı amal uğrunda mübarizə aparmış, bu yolda susmamışdı. Əhməd Cavad ideologiyası üçün ən ali duyğu azad vətən sevgisi idi. Azad vətən, azad xalq, milli azadlıq ideyaları bütün yaradıcılığı boyu tərənnüm olunur. Şair azadlığını şəxsi azadlıqda deyil, vətən, xalq azadlığında görür və belə ruhda şeirlər yazırdı. Yaradıcılığında iki fərqli ovqat: 1920-ci ildən əvvəl yazılmış şeirlər və həmin şeirlərdə coşqu, sevinc, milliyyətçi ruhu, 1920-ci ildən sonrakı şeirlərində isə dövrlə barışmazlıq, çarəsizlik, şair, vətəndaş mövqeyindən dönməzlik ruhunu görmək olar. Əhməd Cavad 1925-ci ildə qələmə aldığı Göy göl şeirindən başlayaraq yeni quruluşun antihumanist mahiyyətini anlaması və bu qorxunc rejim qarşısında xilas yolları axtarmaq istəyi getdikcə güclənirdi. Bu şeirə görə Əhmədl Cavadın həbs edilməsi onun bütün şübhələrinin doğru çıxdığının bir təsdiqi idi. Şair azadlıqda yazdığı Göy göl şeirinə görə məhbəsə düşür və burada hələ işgəncə və dəhşətlər məkanına, şəxsiyyəti sındıran bir mühitin alətinə çevrilməmiş zindanda da yeni bir Göy göl şeiri yazır. Bu şeir Əhməd Cavadın ideyalarına sadiq qalacağına bir müqəddəs andı və bu yolda işgəncə və əzablara hazır olduğunun ifadəsi idi:

*Ey Göy gölüm,*
*Ey göl gülüm!*
*Qoy göyərib,*
*Qoy mən ölüm!*

*Assınlar məni,*

*Kəssinlər məni!*
*Qoy türmələrə,*
*Bassınlar məni!*

*Neynirəm könlü?*
*Neynirəm dili?*
*Səndən yazmasam,*
*Neynirəm əli?*

Şair poetik dillə duyğu və düşüncələrini ifadə etməkdən əsla dönməyəcəyini bir daha ifadə etməkdən çəkinmir. Bu nümunə yetərlidir ki, Vətən aşiqi olan bir şairin sovet dövrünün qadağalarına məhəl qoymadan içindəki azadlıq ruhunu ifadə etməyə. Bəs, Əhməd Cavad üçün azadlığı şərtləndirən amillər nədən ibarətdir? Əhməd Cavadın şəxsiyyət olaraq mövqeyi, bir şair kimi vətən, xalq, millət azadlığını öz azadlığından daha ali hesab etməsi, xalq üçün azadlıq istəyib özünün məhbəsə düşməsi və belə olduğu halda öz əqidəsindən dönməzliyidir azadlıq. Və bunları sovet dövrünün qadağalarını heçə sayaraq poetik yaradıcılıq müstəvisinə daşıması isə əsl vətəndaşlıq nümunəsi hesab edilir.

Əhməd Cavad sovet dövrü yaradıcılığını 1920-1929-cu illər və 1930-1937-ci illər olmaqla iki dövrə bölmək olar və bu illərdə şair öz ideologiyasına, yazı üslubuna sadiq qalmışdır.

Unudulmuş sevda, Sən ağlama, Kür, Göy göl, Kölgəm ilə sən, Səsli qız və s. kimi şeirlərində dövrün yaratdığı vahiməni böyük ustalıqla əks etdirmişdir. Əhməd Cavad 1920-ci ildə qələmə aldığı şeirlərdən biri olan Nə yazım? adlı şeirində yaşadığı dövrü belə ifadə etmişdir:

*Sənsiz nədir Günəş, nədir qaranlıq?*
*Nədir günahımız biz ayrı qaldıq?*
*İşıqsız bir dünya yaşarmı artıq?*
*Gözünə qaranlıq çökənlər bilər!* (5, s. 47)

Əhməd Cavad şeirdə nikbin ruhunu, sevincini itirdiyini, ilhamının daim qanad çaldığı göylərdən uzaq olduğunu, nə yazım?! – deyə fəryad edir. Şeirdə kədər motivləri görürük və bu kədər ictimai kədərdir. Şair sovet rejiminin ağır ideoloji basqıları dövründə fərdi deyil, ictimai kədəri yaradıcılığının aparıcı motivlərindən birinə çevirərək öz azadlığı bahasına əməli mübarizəsi ilə yanaşı, həm də poeziyada bir şairin azadlığı onun mənsub olduğu xalqın, millətin azadlığından ibarət olduğunun poetik zirvəsini yaratmışdır. *Onun şeirlərinin konkret prototipləri vardır, tarixi hadisələr bu və ya başqa şəkildə, formada şairin poeziyasında öz poetik əksini tapmışdır. Cavadın şeirləri zamanla, dövrlə hörülü idi* (11, s. 204). Əhməd Cavad şeirləri zamanla, dövrlə elə hörülü idi ki, hər misrası söz və xalq azadlığını məhdudlaşdırmış bir quruluşa poetik etiraz, barışmazlıq nümunəsi idi. 1922-ci ildə yazdığı Əfəndiyə şeirində olduğu kimi: *Baxsın bəsirətsiz gəlib-keçənlər, doğrunun yerinə əyri seçənlər. Bilsin bu haqq sözə kəfən biçənlər ki, mənim eşqimin Quranı aydın*. Şair inanırdı ki, doğru yolu tapdayıb keçənlər bir gün öz seçdikləri əyri yolda boğulub qalacaqlar və buna tarixin özü şahid olacaq. Əhməd Cavad poetik fəlsəfəsində həm də gələcəyə inam hissi duyulurdu.

Əhməd Cavadın 1924-cü ildə Maarif və mədəniyyət jurnalının 5-ci sayında nəşr olunan Unudulmuş sevda adlı şeirində bütün varlığı ilə mövcud rejimə qarşı qoyulmuş, insanı duyğusuz bir hala gətirən rejimə nifrətini açıq ifadə etməkdən çəkinmirdi:

*Anlaşılmaz düşünüb söylədiyim,*

*Nə durur qəlbim, o gündən, nə duyar!*
*Bən ki, hala yenə sərsəm kibi,*
*Yenə qəlbimdə o dərdin izi var!*
*Lənət ömrün bu ağır illərinə!*
*Qıydı bir şuxun ipək tellərinə*! (5, s. 58)

Şair: "Lənət ömrün bu ağır illərinə", - deyərək, yalnız öz ömrü ilə məhdudlaşdırmır, eyni zamanda xalqının da ağır keçən həyatına üsyankarlıq ruhu ilə yanaşır və bununla da poetik yaradıcılıq müstəvisinə fəlsəfi məzmun, fəlsəfi düşüncə tərzi gətirmişdir.

Şair bütün çılpaqlığı ilə humanizm, sülhsevərlik, bəşəri və milli dəyərləri üstün tutduğunu və bunu azadlığı bahasına olsa belə ifadə etməkdən çəkinmir:

*Mən, doğrusu, daim gülmək istəyirəm,*
*Nə öldürmək, nə də ölmək istəyirəm!*
*Artıq yetər yer üzündən axan qan,*
*Yetər artıq bu göz yaşı, bu hicran.* (10, s. 65)

Öz daxili dünyasının, şair ilhamının belə mövzularda şeir yazdığına görə həbs edildiyini başa düşürdü Əhməd Cavad. Bu yoldan dönməzliyini bütün həyatı və yaradıcılığı boyu ifadə etməkdən də çəkinmirdi. Azadlıq ideyalarını təbliğ və tərənnüm etməkdən zərrə qədər də olsa, peşmançılıq hissi keçirmədiyini yaşadığı ömür yolundan da görürük. O yalnız öz azadlığı uğrunda vuruşmurdu, həm də xalqın azadlıq ideallarının carçısı idi.

**Ümmügülsüm Sadıqzadənin azadlıq idealı**

Vətən, xalq, millət üçün duyğu, düşüncə və öz amalından əsla geri çəkilməyən, poetik yaradıcılığı ilə dövrə meydan oxuyan söz mücahidlərimizdən biri, ruhu Əhməd Cavad ruhu kimi xalqa bağlı olan Ümmügülsüm də sovet dövrünün iztirablı illərindən keçməli oldu. Ümmügülsüm 1914-1920-ci illər, 1920-1937-ci illər və 1937-1940-cı illər olmaqla yaradıcılığının hər üç dövrünü də vətən sevgisi, müharibə, xalqın keçdiyi ağır həyat yolu, azadlıq uğrunda mübariz ruhu ilə xarakterizə etmək olar. Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan milli bayrağının bolşeviklər tərəfindən endirilməsinə ilk cavabı Ümmügülsüm Sadıqzadə vermişdir. Ümmügülsüm bilirdi ki, sovet ideologiyasına qarşı yazmış olduğu hər bir misraya görə azadlıqdan məhrum ola bilər, işgəncələrə məruz qalacaq, amma azadlıq idealları ilə yoğurulmuş poetik yaradıcılıq yolunda mövqeyini dəyişmir və 1920-ci ildə yazdığı Bayrağım enərkən şeirində həmin dövrü aydın ifadə edir, rejimi zəhərli ruzigar, haqsız və tanrısız adlandıraraq, açıq şəkildə dövrə meydan oxuyur. Bu şeiri azadlıq idealından dönməzliyinin əməli və bədii nümunəsi hesab etmək olar:

*Yazıq səni bayrağım! Endirdilər, eyləmi?*
*Səni yıxıb devirən o zəhərli ruzigar*
*O haqq yeyən haqsızlar, vəhşilər, tanrısızlar,*
*Yanar ocağını da söndürdülər, eyləmi?* (8, s. 28)

Ümmügülsüm Sadıqzadənin şeirdə sovet rejimini açıq şəkildə zəhərli ruzigar, haqq yeyən haqsızlar, vəhşilər, tanrısızlar adlandıması və Əhməd Cavadın da doğrunun yerinə əyri seçənlər, haqq sözə kəfən biçənlər və s. ifadələrini poeziyaya gətirməsi xalqın, onun haqq səsi olan şairlərin əzmini heç bir rejimin məhv etməyəcəyinin nümunəsi hesab etmək olar. Poetik dillə sovet rejiminə meydan oxuyan şair ruhu və söz azadlığının heç bir qüvvənin təsirinə düşməyəcəyini böyük ustalıqla ifadə edirdilər. Ümmügülsüm, eyni zamanda 1937-ci ildə azadlığı əlindən alınmış şair olaraq bolşevik rejimini ittiham edən poetik nümunələr də yazmışdır. Xəzərə xitab şeirini dənizə müraciətlə yazmış və sanki

dənizdən imdad diləyir, mövcud rejimi əsarət, işgəncə, zülm qalası adlandıraraq dənizdən bu tilsimi darmadağın etməsini istəmək və bu istəyi poeziyaya gətirmək, rejimə qarşı poetik dillə etiraz etmək bir şair ruhunun azadlığını heç bir qüvvənin məhdudlaşdıra bilməyəcəyinin ən parlaq nümunəsi hesab etmək olar:

*Darmadağın eylə dalğalarınla*
*Bizi dar divara alan qalanı.*
*Heçliklərə sovur nalələrinlə*
*Çıxılmaz tilsimə salan qalanı.* (8, s. 206)

**Mikayıl Müşfiqin vətəndaşlıq mövqeyi**

Sovet rejimi ədəbiyyatın mahiyyətini dəyişməyə köklənsə də, vətən, xalq üçün tərəddüd etmədən milli-mənəvi dəyərlərimizə, milli ideallarımıza sadiqliyini bədii dillə təbliğ və ifadə edən sənətkarlarımızın əzmi nəticəsində istəyinə nail ola bilmədi. Belə sənətkarlarımızdan biri də mövcud rejimin buxovlarına qarşı qətiyyətlə mübarizə aparan, Ə.Cavad kimi dövrə boyun əyməyən, əməli və bədii yaradıcılığı ilə ədəbiyyat tariximizin şair və vətəndaş mövqeyindən əsla geri çəkilməyən şəxsiyyət Mikayıl Müşfiqdir. *Müşfiq öz yaradıcılığı üzərində inadla çalışırdı. Onun hərəkətlərində, davranışında şair çılğınlığı, şair narahatlığı var idi. Yazacağı mövzuya günlərlə, aylarla hazırlaşar, fikri-zikri həmin mövzu yanında qalardı* (1, s. 126). Mikayıl Müşfiq qadağaların tüğyan etdiyi bir zamanda dövrə etirazını xüsusi seçilmiş fikir və düşüncələrini böyük ustalıqla ifadə edirdi. Belə ki, Daş qartal şeiri ilk baxışda tamam başqa bir mövzuya həsr olunmuş kimi görünsə də, əslində burada da insanların azadlıq uğrunda apardıqları mübarizədən danışılır. Şair çar hökumətinin rəmzi olan iki başlı qartala Daş qartala müraciət edib çarın zülmünü, onun yeritdiyi siyasətin xalqlar üçün bir zəncir olduğunu, azadlıq istəyən ağızlara qıfıl vurulduğunu bir-bir sayır və belə bir etiraz nümunəsini, ancaq vətənini sevən, ruhu azad olan bir şair edə bilərdi:

*Əvət, qaynağında aman bulmayan,*
*Zavallı insanlar üzünə durdu.*
*Dərələr, təpələr eylədi üsyan,*
*Bağırana zəhərli bir güllə vurdu.* (7, s. 43)

1936-cı ilə Müşfiq yazdığı şeirlərindən birində sanki həyatında baş verən hadisələrdən xəbərdar olmuş kimi Bu gülünc oyun bəllidir, yarın bizi də bəklər! deməklə duyğularını poeziya üzərinə köçürür:

*Hər kəs bilir həyatın sonu ölümdür,*
*Ah bu qəmli dəyişmə yaman zülümdür.*
*Şeirim! Bu gülünc oyun bəllidir yarın*
*bizi də bəklər!*
*Sən də öl mənim kimi, fəqət məzarın*
*olsun ürəklər!* (9, s. 142-143)

Tarixi və ədəbi mövqedən böyük əhəmiyyət kəsb edən bu şeir parçası ilə Müşfiq sovet rejimini bədii dillə gülünc oyun adlandırır, vətən və millətini sevən bir şairin əzablı illərdən keçməsinə baxmayaraq, dövrə boyun əyməyəcəyini bədii, emosional bir dillə ifadə etmiş olur. Müşfiq bilir ki, qələmə aldığı bu şeirlər son şeirlərindən olacaq, çünki bir şairin azadlıq istəyinin nəticəsi olaraq, sovet rejiminin cavabı məhbəs və ya ölüm olacaq. Müşfiq sonunu bildiyi təqdirdə öz əqidəsini dəyişmir və yaşadığı qısa ömrü ilə neçə-neçə

yüzilliklərə əyilməzlik, əsl şair, vətəndaşlıq nümunəsi sərgiləyir. Azərbaycan xalqı məhz belə oğulları, ziyalıları ilə tarixin bütün çətin sınaqlarından üzüağ çıxmışdır.

**Almas İldırım poeziyasında azadlıq və qürbət motivləri**

30-cu illər ictimai-siyasi prosesinin ən böyük hadisəsi, heç şübhəsiz, Azərbaycan ədəbi mühitindən də yan keçməyən repressiyadır. Özlüyündə siyasi hadisə olan repressiya ədəbi prosesi də ağuşuna almış və tarixdə ilk dəfə Azərbaycan yazıçı, şair, tənqidçi, elm və maarif adamlarının kütləvi həbsi və məhvi ilə nəticələnmişdir (6, s. 115). Azərbaycanın yaradıcı ziyalıları 30-cu illər repressiyalarına və mühacirətə məruz qalmışdılar. Mühacirətdə ədəbi fəaliyyətə davam edən, Azərbaycan xalqının milli ədəbi dəyərlərini, azərbaycançılıq ideyalarını qoruyub təbliğ etmiş, imperiya məngənəsində sıxılan Azərbaycanın dərdini, azadlıq istəyini poeziyanın dili ilə ifadə edərək haqq səsini ucaldanlardan bir də məhz Almas İldırım idi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Almas İldırım totalitar rejimin hədəflərindən birinə çevrilir. Azərbaycan Dövlət Universitetinin Şərq ədəbiyyatı fakültəsindən xaric edilir, 1926-cı ildə nəşr etdirdiyi Dün-bugün məcmuəsində və sonra yazdığı şeirlərindəki millətçi görüşlərinə görə sürgünə, təqib və təzyiqlərə məruz qalır. Almas İldırım 1927-ci ildə Bakıda qələmə aldığı Neçin? adlı şeirində yaşadığı dövrə etirazını, yurdunu sevən şairin təqibə məruz qalması və harayını bədii suallar vasitəsilə daha da emosional dillə ifadə edərək yazır:

*Mən artıq nə yazım yurduma dair,*
*Düşmən zəhər saçır, dostlar gizlənir.*
*Bilməm öz yurdunu sevən bir şair*
*Neçin də bir cani kimi izlənir?* (2, s. 172)

Almas İldırım sürgün və təqiblərə məruz qaldığı bir dövrdə bütün çılpaqlığı ilə sovet rejiminə etiraz etməsi Azərbaycan xalqının, onun yetişdirdiyi şair qüdrətinin ədəbi bir abidəsidir desək, yanılmarıq. Şair dövrü ədəbi dillə mükəmməl ifadə şəkli ilə seçilir: *"Bəs neçin qəribəm bu doğma eldə, məhbəsmi dörd yanım, mən ki, boğuldum... Məlum bir zamanda, məhkum bir ildə, Allahım, mən neçin şair doğuldum?"* Yaşadığı dövrü məhbəs adlandıraraq azadlığı məhdudlaşdırılmış Almas İldırımın şeirlərində şair üsyankarlığı var. Ağrılı-acılı illərdə şair doğulduğuna üsyanını görürük bütün şeirlərində, çünki şair olaraq tək öz azadlığı uğrunda mübarizə aparmırdı Almas İldırım, həm də Əhməd Cavad kimi, Ümmügülsüm kimi, Mikayıl Müşfiq və digər şairlərimiz kimi vətən, xalq azadlığı uğrunda mübarizə aparmış və bunu poetik yaradıcılığının əsas motivinə çevirmişdi.

1929-cu ildə yazdığı Yarın adlı şeirində şair sabaha böyük ümidlə baxır, bir gün Şərqin azad olacağına inanır:

*Xəzan pəncərəsində saralan güllər,*
*Şübhəsiz, şənlənib güləcək yarın.*
*Həsrətlə çırpınan xəstə könüllər,*
*Pək dadlı nəşələr sürəcək yarın.* (3, s. 43)

Almas İldırım: *"Bir şənlik görməyən o issiz ellər // Səadət nə imiş biləcək yarın"*, - deyərək yaşadığı qadağalar, ziddiyyətlərlə əhatələnmiş dövrü şeirdə kirli, dəmir qəfəs adlandırmış, bir gün bu qəfəsdən xilas olacağı günə inandığını poetik dillə təsvir etmişdir.

Almas İldırımın əsərlərində vətən, torpaq, millət həsrəti, qəriblik hüznü aparıcı istiqamət təşkil edir. Onun poeziyası milli azadlıq, müstəqillik uğrunda mübarizəyə həsr olunmuş, şeirlərinin ahəngində qürbət, ayrılıq nəğməsi duyulur, lirik məni narahat və üzgündür. Xalq şairi Nəbi Xəzri Almas İldırım haqqında yazır: *"Vətən dərdi bütün dərdlə-*

*rin ən dəhşətlisidir və müqəddəsdir. Bu dərdə dözməyi bacaranlar mətin və ulu insanlardır. Almas İldırım da belə şəxsiyyətdir".* Vətən, millət dərdi şairin yaradıcılığının ana xəttini təşkil edir. Belə demək mümkünsə, şeirləri yaşadığı dövrün güzgüsüdür. Yazdığı hər misrasında azadlığa can atan, dərdli bir vətənin, bir millətin ruhu duyulur: *"Azərbaycan dərd içində boğulmuş, sevənləri diyar-diyar qovulmuş, ağla, şair, ağla, yurdun dağılmış",* - deməklə Almas İldırım yurdunun çəkdiyi iztirabları ifadə edən mübariz poeziyanın mükəmməl nümunəsini yaratmış oldu.

O, yaradıcılığı ilə milliyyətçi və istiqlalçı bir şair olaraq əbədi yaddaşlara həkk olundu, eyni zamanda mühacirət poeziyasının qüdrətli simalarından biri hesab olunur. Şair *"Arazla dərdləşmə", "Boğulmayan bir səs", "A dağlar", "Əlvida, Bakı!", "Türküm", "Qürbətdə", "Bir səsə gəlir uzaqdan", "Əsir Azərbaycanım", "Ölməkmi, yaşamaqmı", "Bir gün gələcək", "Batan Günəş"* və s. kimi şeirlərində milli-ictimai dərd, vətənini, xalqını azad görmək arzusunu, harayını ifadə etmişdir.

1936-ci ilə Elazığda yazdığı *"Qürbətə"* adlı şeirində Almas İldırım doğma yurd həsrətini, doğma yurdunu görmədən ölmək istəmədiyini, ağladığı yurdunda da gülmək istəyini, bir şairin azadlığını məhdudlaşdıran rejimə üsyanını belə ifadə etmişdir:

*Yox, mən ölmək istəməm, görmədən doğma yurdu,*
*Mən orda ağlamışam, mən orda güləcəyəm.*
*Söylə, qoy sevinməsin Kremlin vəhşi qurdu,*
*Mən tufanla doğuldum, tufanla öləcəyəm!..* (3, s. 110)

Almas İldırımın həyatı ağrı-acılı, məşəqqətli, təqib və sürgünlərlə dolu olmasına baxmayaraq doğma yurdu Azərbaycana məhəbbəti sönməmiş, Vətəninin istiqbalına, müstəqilliyinə ümid bəsləmiş və bu ümidlə də yazıb-yaratmışdır. Şair vətən, yurd azadlığını öz azadlığından uca tutmuş, bu yolda da bədii sözün və vətəndaşlıq nümunəsinin zirvəsinə yüksəlmişdir.

Sovet rejiminin yaratdığı məhdudiyyət, təqib və sürgünlərə baxmayaraq, Əhməd Cavad, Ümmügülsüm Sadıqzadə, Mikayıl Müşfiq, Almas İldırım və s. kimi şairlərimiz söz, xalq, millət azadlığını öz azadlığından ali hesab etmiş və bu yolda həm bədii sözlə, həm də əməli işlə mübarizəyə qoşulmuş və sovet dövrünə meydan oxumuş ziyalılarımızdan oldular.

**Nəticə**

Sovet hakimiyyəti dövründə dövlət səviyyəsində həyata keçirilən repressiya, qadağa və təqiblər ədəbi mühitdə xüsusi rolu olan sənətkarların ədəbi və ictimai arenada axırına çıxmaq məqsədi daşıyırdı. Bu proses sovet xalqlarının ədəbiyyatında, o cümlədən də Azərbaycan ədəbiyyatında mövcud idi. Hakimiyyət sovet ədəbiyyatı formalaşdırmaq istiqamətində işlər görürdü. Ədəbiyyat sovet ideologiyasının təbliğat işini həyata keçirməyə istiqamətlənmişdi. Lakin Azərbaycan ədəbiyyatının nümayəndələri vətən, xalq azadlığı ideologiyası əsasında bədii dillə mübarizə ruhunda bir ədəbiyyat formalaşdırdılar. Onlar milli ideologiya uğrunda təqib və təzyiqlərə məruz qalmasına baxmayaraq, vətən, xalq azadlığı, onun bütövlüyü yolunda öz qətiyyətini dəyişmədən mübariz ədəbiyyatın, poeziyanın əsasını qoydular.

**ƏDƏBİYYAT**

1. Axundzadə D. Müşfiqli günlərim (xatirələr). Bakı: Gənclik, 2005, 274 s.
2. Almas İ. Boğulmayan bir səs. Bakı: Avrasiya press, 2007, 392 s.
3. Almas İ. Seçilmiş əsərləri. Bakı: Öndər nəşriyyatı, 2004, 248 s.

4. Cəfərov N, Sərdarov V, Cəfərov A. Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları. Bakı: Elm və təhsil, 2016, 216 s.
5. Əhməd C. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 296 s.
6. Əhmədov B. Azərbaycan ədəbiyyat tarixi. 3 cilddə. II c., Bakı, 2010, 436 s.
7. Gülhüseyn H. Müşfiq. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1968, 108 s.
8. Hüseynzadə A. İstiqlal şairi Ümmügülsüm. Bakı: Çaşıoğlu, 2005, 272 s.
9. Mikayıl M. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, 352 s.
10. Salamoğlu T. Müasir Azərbaycan ədəbiyyatı. Bakı, 2012, 314 s.
11. Saləddin Ə. Əhməd Cavad. Bakı: Gənclik, 1992, 328 s.
12. Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1983, 320 s.

***Summary***

***Gunesh Khudayarova***

***Freedom of the Poet ın the Poetry of the Soviet Period***
***on the Level of Poetic Creativity***

The period of Soviet rule can be called a period of restrictions on the lives of the people, intellectuals, poets and writers. The revolutionary changes that took place in the country with the establishment of the Soviet government also became the subject of fiction. Our literature could not remain indifferent to the harsh laws of the time. During this period, artists raised their voices in protest, which resulted in repression. Despite all this, irreversible artists have dedicated their lives to becoming the true voice of the twentieth century and have left their mark on our literary history. The main goal of the Soviet period was to keep literature dependent on the government, to restrict or abolish freedom of speech, freedom of the poet. At a time surrounded by such prohibitions, the main goal of the artists was to disobey the restrictions and prohibitions and to artistically embody the ideas of freedom expressed in their works. At that time, poets saw freedom not only in their own freedom, but also in the freedom of the people and the nation. Their work is based on the ideology of freedom. Despite repression, persecution and pressure, we have had many artists who have not abandoned their ideals. Our poets such as Ahmad Javad, Ummugulsum Sadigzade, Mikayil Mushfig, Almas Yildirim laid the foundation of poetry that struggled with creativity. Despite the prohibitions and restrictions of the Soviet regime, they never retreated from the ideals of homeland, people and freedom of speech.

A special feature of twentieth-century poetry is that its creators approached freedom not as an individual, but as the people and their freedom, and developed their artistic thinking in this way. The Soviet government persecuted, exiled, and persecuted intellectuals who nurtured the ideology they needed and raised their voices in the process. Despite such prohibitions of the Soviet era, our poets managed to create a militant poetry that challenged the era.

**Keywords:** *period of prohibitions, poet, freedom, homeland, poetry*

***Резюме***

***Гюнеш Худаярова***

***Свобода поэта в поэзии советского периода***
***на уровне поэтического творчества***

Период советской власти можно назвать периодом ограниченной жизни людей, интеллигенции, поэтов и писателей. Революционные изменения, произошедшие в стране с установлением Советской власти, также стали предметом фантастики. Наша литература не могла остаться равнодушной к суровым законам того времени. В этот период артисты подняли голос протеста, что привело к репрессиям. Несмотря на все это, необратимые художники посвятили свою жизнь тому, чтобы стать истинным голосом двадцатого века и оставили свой след в нашей литературной истории. Главной целью советского периода было удержать литературу в зависимости от власти, ограничить или отменить свободу слова, свободу поэта. В то время, когда были наложены такие ограничения, главной целью художников было не подчиняться ограничениям и запретам и художественно воплотить идеи свободы, выраженные в их произведениях. В то время поэты видели свободу не только в своей свободе, но и в свободе народа и нации. Их работа основана на идеологии свободы.

Несмотря на репрессии, преследования и давление, у нас было много художников, которые не отказались от своих идеалов. Наши поэты, такие как Ахмад Джавад, Уммугулсум Садыгзаде, Микаил Мушфиг, Алмас Йилдирим, заложили фундамент поэзии, которая боролась с творчеством. Несмотря на запреты и ограничения советской власти, они никогда не отступали от идеалов Родины, народа и свободы слова.

Особенностью поэзии XX века является то, что ее создатели подходили к свободе не как к личности, а как к людям и их свободе, и таким образом развивали свое художественное мышление. Советское правительство преследовало, высылало и преследовало интеллектуалов, которые лелеяли нужную им идеологию и повышали голос в процессе. Несмотря на такие запреты советской эпохи, нашим поэтам удалось создать воинственную поэзию, бросившую вызов эпохе.

**Ключевые слова:** *период запретов, поэт, свобода, родина, поэзия*

Məsul katib fil.ü.f.d., dos. Şıxıyeva Səadət Məmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT: 81**

# DİL VƏ ÜNSİYYƏT

**Pərvin KƏRİMOVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 2avqust 2020; çapa qəbul edilmişdir: 30 avqust 2020; online-da çap edilmişdir: 30 sentyabr 2021.*
*Received: 2 August, 2020; accepted: 30 th of August r, 2020; published online: 30 th of September 2021*

**Açar sözlər:** *dil, cəmiyyət, ünsiyyət, mədəniyyət, tarix*

## Giriş

Dil bütöv bir dünyadır. Söz insanlar arasında ünsiyyət vasitəsi olduğundan yaşamağa kömək edir, onların bir-birini dərk etməsinə yardımçı olur. Hələ qədim dövrlərdən insan cəmiyyətdə yaşayır. Birlikdə yaşamaq nəticəsində bir insanın öz fikirlərini, istəklərini, hisslərini digərinə bildirə bilmək zərurəti yarandı. Məhz ünsiyyət tələbatı da dilin meydana çıxmasına səbəb oldu. Bizlərdən hər birimiz dünyanı dərk edirik: bəzilərimiz üçün dərk etmək çətin olur, bəzilərimiz üçün asan olur, biri tez böyüyür, biri daha yavaş sürətlə. Lakin istənilən halda, bizlərdən heç birimiz doğma dil, ən sadə söz və ifadələr olmadan keçinə bilmirik.

## Dil və onun xüsusiyyətləri

F.Sössürün mülahizələri içərisində dilin işarəviliyi probleminə xüsusi əhəmiyyət verilmişdir. O, dilin işarələrdən ibarət olması haqqında bəhs edərkən deyirdi: Dil işarələrdən ibarətdir [3, s. 67]. Sössürə görə, dil sistemlə xarakterizə edilən hadisədir. O, dilin mürəkkəb sistemə malik olduğunu göstərmiş və onun sistem kimi öyrənilməsini zəruri hesab etmişdir.

Biz erkən uşaqlıq dövründən dünyanı dərk etməyə çalışırıq. Əvvəlcə yalnız maraqdan, sonra isə həm də onda yaşadığımız kainatda öz yerimizi missiyamızı tapmaq zərurətindən.Bununla birlikdə, biz dilə sahib oluruq. O, dərketmədə ən mühüm yeri tutur. Hansısa obyekt və ya hadisəni öyrənmək üçün əvvəlcə onu sözlə adlandırmaq, sonra isə xarakterizə etmək lazımdır. Əşyaları adlandırmağı bacarmamaq həm də onları tanımamaqdır. İstənilən problem, hər şeydən öncə, dilin sözləri ilə formalaşdırılmalıdır. Öz fikrini sözlərlə düzgün ifadə etmək bacarığı asan iş deyil, lakin zəruridir. Hətta adi danışıqda danışan fikrini elə ifadə edə bilməlidir ki, dinləyici onu müvafiq qaydada anlasın. Pis ifadə olunmuş fikir yalnız danışa bilməmək deyil, həm də fikirləşə bilməməkdir.

Dil mədəniyyətin bir hissəsidir. O, insan fəaliyyətində ən mühüm yeri tutub, elm və istehsalı, əxlaq və adətləri öyrənməyə, siyasət və incəsənət ilə məşğul olmağa imkan verir.

Ətraf aləmin qanunlarını aydınlaşdıraraq, insan öz ağlı ilə başa düşməyə və öz sözləri ilə ifadə etməyə cəhd göstərərək, onları özünə aid edir.

Hər bir dilin tarixi yalnız xalqın tarixini deyil, həm də onun mədəni inkişafının ən mühüm mərhələlərini əks etdirir. Bundan başqa, xalqın mədəniyyət səviyyəsi daha çox dilin inkişaf səviyyəsi ilə müəyyən edilir: insan fəaliyyətinin istənilən sahəsini təsvir etməyə imkan verən zəngin lüğət ehtiyatına malik yazı formasının olması, həyatın bütün halları üzrə üslubi formaların olması və s.

* *doktorant, Xəzər Universiteti*
e-mail: ms.gulnar_babayeva@mail.ru

Doğma dilimiz bütün bu xüsusiyyətlərə malikdir və xalqımızın ən böyük sərvətidir. Yazıçılar həm öz yaradıcılıqları, həm də birbaşa ifadələri ilə daim bizə bu xəzinə ilə çox ehtiyatla davranmaq lazım olduğunu xatırladırlar. Biz öz dilimizi doğma adlandırırıq, çünki uşaqlıqdan bu dildə danışır, düşünür, arzular qururuq, bu dildə bizim qohumlarımız danışır. Bu dil vətənimizin dilidir, bu dildə həm qərarlı, möhkəm mübarizə sözü, həm yumşaq, incə sevgi sözü, həm də xoş, sakitləşdirici dərdinə şərik olmaq sözü, isti, nəvazişli ana sözü vardır.

Humboldt yazır: Dil düşüncəni təşkil edən orqandır. Tamamilə mənəvi, dərin daxili və iz qoymayan zehni fəaliyyət nitq sayəsində maddi hala gətirilir və hisslərin qavranılması üçün mümkün olur. Buna görə düşüncə və dil fəaliyyəti bölünməz bir bütövdür [5, s. 92].

İnsanların öz doğma dillərinə nə dərəcədə təsir edə bilmələri ilə bağlı neçə yüzilliklər boyunca gedən mübahisələrdə iki əsas nöqteyi-nəzər ayrılır. Onlardan biri ötən əsrin 70-80-ci illərində qrammatiklərin əsərlərində, digəri isə (bunun əksi) süni dillərin işlənib hazırlanması ilə məşğul olan strukturalist linqvistika nümayəndələrinin əsərlərində ən aydın ifadəsini tapmışdır. Birinci konsepsiyaya əsasən (əgər onu bir neçə sözlə ifadə etsək), dil həmin dildə danışan insanlardan asılı olmayaraq inkişaf edir, ikinci konsepsiyaya görə isə, dil, demək olar ki, bütövlükdə məntiqə uyğun tənzimlənməyə məruz qalır, çünki dil özündə insan tərəfindən ixtira edilmiş istənilən digər konstruksiyalar kimi, yaradıla və məhv edilə bilən təmiz formal konstruksiyanı əks etdirir.

Birinci doktrina, ilk növbədə dilin cəmiyyətdə fəaliyyətinin müxtəlif növlərini nəzərə almadığı və ya kifayət qədər nəzərə almadığı üçün, ikinci isə süni dillərin təşkili metodlarını təbii dillərin öyrənilməsinə tətbiq etdiyi və birincilərin ikincilərdən dərin keyfiyyətli fərqi ilə hər zaman hesablaşmadığı üçün zəif oldu.

Son zamanlar, dilin süni tənzimlənməsi prinsipinin tənqidi prosesində yenidən birinci konsepsiyaya qayıtmağa başlayıblar. Hər bir təbii dil, – məsələnin bu cür yeni formada qoyulmasının tərəfdarları söyləyir, – sərt və ziddiyyətsiz məntiqi-riyazi proqramlara əsasən deyil, müxtəlif növ ictimai amillərin təsirinə məruz qalaraq, özündə bütün ziddiyyətlər, qeyri-ardıcıllıqlar, artıqlıqlar, standartlardan kənarlaşmalar və s. ilə birlikdə miras qalmış sistemi əks etdirərək, bir çox yüzilliklər ərzində kor-təbii şəkildə inkişaf edir [1, s. 90].

Qeyd edilən fikrin birinci hissəsi ilə tamamilə razılaşaraq, yekun çıxarışı ədalətli hesab etmək olmaz – dil şüurlu tənzimlənmə və məntiqi nizamlanmaya çox az imkan verir. Əlbəttə, dilə münasibətdə tənzimlənmə və məntiqi nizamlanma kimi anlayışlar mexanika və formal məntiq planında başa düşülə bilməz. Lakin öz təbii inkişaf prosesində dillər özünəməxsus tənzimlənmə və özünəməxsus nizamlanmaya məruz qalır (müəyyən sferalarda və müəyyən növlərdə).

İnsanların ədəbi dilə təsiri hədlərini yalnız elmi üslub ilə məhdudlaşdıran alimlər yanılırlar. Adətən, bu cür düşünürlər: elm insan tərəfindən yaradılır və onun (elmin) dili də həmçinin insan tərəfindən yaradılır. Elmi üslubda, həqiqətən də, insan təsirinin dilin bəzi digər üslubları sahəsində olduğundan daha güclü hiss olunmasına baxmayaraq, elmi üslubu az qala xüsusi süni elm dilinə çevirməyə hazır olanlarla razılaşmaq çətindir. Qeyd etmək lazımdır ki, hər cür həqiqi elmi dil öz spesifikasını saxlayaraq, əsasında formalaşdığı və inkişaf etdiyi ədəbi dil ilə sıx bağlılığa malikdir.

Ardınca gələn sətirlərin vəzifəsi ondan ibarətdir ki, dilin ən mühüm ünsiyyət vasitəsi kimi deyil, həm də fikrin həqiqi gerçəkliyi kimi şərhinə əsaslanaraq, insanın dilə, ilk növbədə, ədəbi dilə təsirinin tiplərini göstərək bu mövzuya yanaşmaq lazımdır. Burada dil dəyişikliklərinin səbəbləri haqqında məsələyə toxunmayacağıq.

İnsanın öz doğma dilinə təsiri, ilk növbədə, hər bir təbii dilin sosial təbiəti ilə determinasiya olunmuşdur. Və bu məsələ ilə bağlı XX əsrdə dilin sosial təbiətinin iki əsas

konsepsiyası aydın şəkildə formalaşdırıldı. Onlardan birinə (üstünlük təşkil edənə) əsasən, dildə mövcud olan sosial təbiətə malik hər bir şey ekstralinqvistik amillərin təsirinin nəticəsidir, digərinə görə isə, dil öz təbiəti, öz funksiyaları, cəmiyyətdə öz vəzifəsi ilə sosial olaraq determinasiya olunmuşdur. Birinci konsepsiya tutarsız, ikinci isə doğru və dərin görünür.

Əlbəttə, dilin qarşılıqlı təsirə malik olduğu müxtəlif institutların sosial təbiəti dilin özü üçün də mühüm əhəmiyyətə malikdir. Bu, şübhəsiz, belədir. Və bu planda ekstralinqvistik amillərin dilə təsirinin öyrənilməsinin davam etdirilməsi lazımdır. Lakin bu, dilin sosial təbiətinin bütün xüsusiyyətlərinin dərk edilməsi üçün kifayət deyildir.

Bu qeyd edilənləri iki elementar nümunə ilə izah edək. Danışıq dilinin yazı dilindən fərqlənməsi dünyanın bir çox dillərində müşahidə olunur. Öz-özlüyündə bu cür fərq ekstralinqvistik amillər ilə stimullaşdırılır: danışıq dilinin işlədildiyi situasiya, adətən, fikirlərin yazılı formada ifadə olunmasına imkan verən situasiya ilə müqayisədə başqa cür olur. Lakin dilin danışıq və yazı üslublarının qeyd edilən diferensiasiyası dilin özünü, onun çoxqatlı strukturunu xarakterizə edir. Buna görə də, dövrümüzdə qrammatikadan ümumiyyətlə fərqlənən, ümumi xarakterli qrammatikadan fərqli xeyli danışıq dilinin qrammatikası kitabları yaranır. Vahid milli dilin danışıq və yazı üslubları arasında linqvistik və ekstralinqvistik amillərin qovşağında formalaşan fərq dilin sahib olduğu özünəməxsus xüsusiyyətinə çevrilir. Dilin bu cür xüsusiyyəti çevik olub, bu və ya digər konkret dilin fəaliyyətinin çox və ya az intensivliyindən asılı olaraq, zəifləyə və ya güclənə bilər [2, s. 87].

İkinci nümunə. İstənilən müasir dildə peşəkar leksika, adətən, cəmiyyətin peşəkar səviyyədə üzvlərə ayrılmasının təsiri altında meydana çıxır. Lakin formalaşdıqdan sonra, peşəkar leksika dilin özünün komponenti, onun daxili xüsusiyyəti olur. Əlbəttə ki, ictimai peşələr yeni xüsusi adlar meydana gətirərək, yenidən özlərini xatırlada bilərlər. Yenə də, dil tərəfindən qəbul edilərsə, yeni sözlər artıq leksik sistemin elementləri kimi çıxış edir və bununla da, daha ekstralinqvistik amil olmağı dayandırırlar.

Hegel zahirin daxilin yalnız əksi olmadığını, həm də daim onunla qarşılıqlı əlaqədə olduğunu vurğulayarkən çox haqlı idi. Əslində, bundan da artıqdır. İnkişafın bir mərhələsində xarici olan, digər mərhələdə daxili kimi çıxış edə bilər, daxili isə hərəkət prosesində xarici kimi çıxış edə bilər [3, s. 89]. Ona görə də, xüsusilə, dilin sosial təbiətinin yalnız ekstralinqvistik amillərə təsiri kimi dar çərçivədə nəzərdən keçirilməsi yanlışdır. Dilin sosial təbiəti olduqca zəngin və çoxcəhətlidir. Onun ekstralinqvistik amillərlə məhdudlaşdırılması ümumi linqvistika üçün dilin sosial təbiəti probleminin özünün əhəmiyyətini azalda bilməz.

Ekstralinqvistik amillərin təsirini diferensiasiya olunmamış və ya kifayət qədər diferensiasiya olunmamış formada təhlil edən tədqiqatçılar ilə də razılaşmaq olmaz.

F.Veysəlli qeyd edir ki, Dilin mövcudluğu formaları dedikdə eyni dilin funksional altsistemləri başa düşülür ki, onların da cərgəsinə dialektlər, ədəbi dil (və ya yazı standartı), həmçinin yarımdialekt və ya danışıq dilinin müxtəlif tipləri daxildir [4, s. 77].

Elə görünür ki, burada keyfiyyət cəhətdən müxtəlif formalar bir cərgəyə düzülüb. Məişət-danışıq dili (belə hallarda, bir dil haqqında müxtəlif dillərin birləşməsi kimi təsəvvür yaratmaqdan qaçmaq üçün, dilin mövcudluğunun forma və üslubları haqqında danışmaq daha yaxşı olardı) ədəbi dil (dil standartı) çərçivəsinə sığa bilər və istənilən dialekt adətən, bu çərçivəni parçalayır. Daha vacib olan digər bir məqam. Ədəbi dildə müəyyən tarixi dövrdən etibarən norma anlayışı ədəbi dilin özü üçün ən mühüm əlamətə çevrilir. Bununla yanaşı, dialektlər norma ilə bu cür əlaqəyə malik deyildir: dövrümüzdə onların fəaliyyət norması, adətən, ədəbi dil norması ilə uyğundur və sonuncudan kənarlaşma dərəcəsinə görə qiymətləndirilir. Digər bir məsələ də az əhəmiyyətli deyildir: günümüzdə ədəbi dilə şüurlu münasibət dərəcəsi, adətən, danışanların gündəlik məişət

həyatlarında qəbul edilmiş dialektə şüurlu münasibət dərəcəsindən tamam fərqlidir. Bu ikinci halda şüurluluq daha çox sıfıra bərabər olur.

**Dil əsas kommunikasiya vahidi kimi**

Danışıq və dil o qədər sıx bir-birinə bağlıdır ki, bəzən onları ayırmaq çətin olur. Məsələn, dil təcrübəsi, ana dilində danışan anlayışları bu və ya digər dilə nisbətən başa düşüləndir. İnsanın dilini bilmək onun bilik və bacarıqlarına əsaslanır və konkret bir şəxsə aid olduğu zaman dil təcrübəsi və ana dilində danışan nitq düşüncəsidir. Bu, dilin və nitqin müstəsna hallarda ayrıca mövcud ola bilməyəcəyini göstərir. Yüksək nitq mədəniyyətinə yiyələnmək üçün, ilk növbədə nitqin ayrılmaz hissəsi olan şüurlu və məqsədyönlü fəaliyyəti müəyyən etmək lazımdır; mədəniyyət hər zaman şüurlu olaraq nədən istifadə edəcəyindən və nədən qaçılacağını təyin edir.

Hər kəs tarixə əsaslanan bir mədəniyyətə daxildir və eyni zamanda hər kəs ayrı-ayrılıqda mədəniyyətin ona məxsus olduğunu dərk edir, lakin mədəniyyətin əsas səviyyəsi dildən ibarətdir. Ana dilində danışan şəxsdir və dili dialektik qanunlarla zənginləşdirir və təkmilləşdirir, mənəvi yaradıcılıqla, şüurlu və məqsədyönlü fəaliyyətlə sərbəst mətnlər yaradır və düşüncələrini ifadə edir. Dil və nitqlə bağlı bilik və bacarıqlar nitq mədəniyyətinin mahiyyətini anlamağa, yüksək mədəniyyət səviyyəsinə gedən yolu başa düşməyə öyrədir. Dildəki bütün münasibətlərin cəmi onun sosial funksiyasını təyin edən bir əlaqə vasitəsidir. Ancaq dildən başqa ictimai hadisələr də var. Dil və digər ictimai hadisələr arasındakı fərq nədir?

1. Dil işarələr sistemidir, müəyyən bir konsepsiyanı ifadə edən bir söz, müəyyən bir məzmunun, bir səsin ifadəsidir. Sonra dil elə olur ki, bu və ya digər səs, söz, cümlənin mənası, işarələri müəyyən bir fikri ifadə edir. Məsələn, Azərbaycan dilindəki bəli və yox səsləri müəyyən bir məna daşıyır və düzgün intonasiya ilə razılığın və narazılığın işarəsini ifadə edir.

2. Dil tam işləyən bir işarə sistemidir; İşarələr yalnız ayrı səslərdir, lakin müəyyən bir məqsədlə birləşdikdə özünəməxsus bir forma alırlar. Hər bir işarə bütöv bir hissədir.

3. Dil işarə sistemidir; Əhəmiyyətli bir funksiyanı yerinə yetirir, müəyyən bir mövzu və ya fakt haqqında fikir mübadiləsi aparmağa xidmət edir.

Hər bir işarə bir şeyi təmsil edir. Yalnız insanlar üçün nəzərdə tutulmuşdur, idrak və ünsiyyət fəaliyyətləri üçün vacib bir vasitədir. Dilçilikdəki işarələr simvollar deyil, linqvistik adlandırma deməkdir. Hər bir dil işarəsi bir forma və məzmuna malikdir.

**Nəticə**

Dövrümüzdə ədəbi dil daha çox loru danışıq, jarqonlar və s. ilə qarşı-qarşıya dayanmışdır, nəinki dialektlər ilə. Bu da aydındır. Loru danışıq ədəbi dildən nə qədər fərqli olsa da, bu hər iki anlayış eyni müstəvidə yerləşir. Lakin dialektlər haqqında bunu demək olmaz, baxmayaraq ki, tarixən onlar da ədəbi dili qidalandıra bilirdilər. Fərq ədəbi dilin tamamilə mövcud olmadığı və dialektin yalnız digər dialektlər ilə rəqabət apararaq özü özünün ağası olduğu dövrdə diaxronik olaraq daha aydın şəkildə aşkar olunur.

Toxunulan məsələ dilin sosial təbiətinin müxtəlif formalarda şərh edilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

**ƏDƏBİYYAT**

1. Axundov A. Ümumi dilçilik. Bakı: Maarif, 1988, 340 s.
2. Babayev A. Dilçiliyə giriş. Bakı: Nurlan, 2004, 280 s.
3. Ferdinant de Sössür. Ümumi dilçilik. Bakı: BDU nəşr, 2003, 380 s.
4. Veysəlli F.Y. Dilçiliyə giriş. Bakı: Mütərcim, 2017, 270 s.
5. Vilhelm Fon Humboldt. Bəşər dilləri quruluşunun müxtəlifliyi və bunun bəşəriyyətin mənəvi inkişafına təsiri haqqında. Bakı: Nurlan, 2008, 467 s.

*Резюме*

***Парвин Каримова***

***Язык и общение***

В статье речь идет о языке и о том, что он является средством общения. Показано, что все входят в культуру, основанную на истории, и в то же время каждый по отдельности осознает, что культура принадлежит ему, но основным уровнем культуры является язык. Носителем языка является человек, и он обогащает и совершенствует язык диалектическими законами, духовным творчеством, сознательной и целенаправленной деятельностью свободно создает тексты и выражает свои мысли. Знания и умения, связанные с языком и речью, учат понимать сущность культуры речи, понимать путь к высшему культурному уровню. Совокупность всех отношений в языке является средством общения, определяющим его социальную функцию.

Кроме того, в статье рассматриваются отличительные черты разговорного языка от письменного языка. Делается вывод, что это наблюдается во многих языках мира.Само по себе такое различие стимулируется экстралингвистическими факторами: ситуация, в которой используется разговорный язык, обычно отличается от ситуации, в которой идеи могут быть выражены в письменной форме. Но отмеченная дифференциация стилей речи и письма языка характеризует сам язык, его многослойную структуру. Поэтому в наше время появляются книги Грамматика разговорного языка, которые отличаются от грамматики в целом, от грамматики общего характера. Различие между стилями речи и письма Единого национального языка, сформировавшееся на стыке языковых и экстралингвистических факторов, становится своеобразной чертой, которой обладает язык. Такая особенность языка является гибкой и в зависимости от большей или меньшей интенсивности деятельности того или иного конкретного языка может ослабевать или усиливаться. Профессиональная лексика в современном языке обычно возникает под влиянием разделения общества на членов на профессиональном уровне.

Но после формирования профессиональная лексика становится компонентом самого языка, его внутренним свойством. Конечно, общественные профессии могут вновь напомнить о себе, образовав новые специальные названия. Опять же, если они воспринимаются языком, то новые слова уже выступают как элементы лексической системы, тем самым они перестают быть более экстралингвистическим фактором.


**Ключевые слова:** *язык, общество, общение, культура, история*


***Summary***

***Parvin Karimova***

***Language and Communication***

The article talks about the language and its means of communication. It is shown that everyone is part of a culture based on history, and at the same time everyone individually understands that culture belongs to him, but the main level of culture is language. He is a native speaker and enriches and improves the language with dialectical laws, he creates free texts and expresses his thoughts with spiritual wisdom, conscious and purposeful activity. Knowledge and skills related to language and speech teach to understand the essence of the culture of speech, to understand the way to a high level of culture. The sum of all relations in the language is a means of communication that determines its social function.

In addition, the article explores the distinctive features of the writing language with spoken language. It is concluded that it is observed in many languages around the world.In itself, such a difference is stimulated by extralinguistic factors: the situation in which the spoken language is worked, as a rule, is different in comparison with the situation in which ideas are expressed in writing. However, the mentioned differentiation of the spoken and written styles characterizes the language itself, its multifaceted structure. Therefore, in our time, books of good grammar of spoken language arise, which differ from grammar in general, from grammar in general. The difference between the spoken and written styles of a single national language at the junction ofvvistik and extralingvistik amillarin becomes a distinctive feature of the language. This type of language is flexible and can be weakened or strengthened, depending on the intensity of the activity of one or another specific language.

Professional lexicon in modern language is usually formed under the influence of the separation of society into members at a professional level. But after formation, professional lexicon becomes a component of the language itself, its inner meaning. Of course, public professions can remember themselves again,

katirarak new special names arise. Again, if it is perceived by the language, the new words already act as elements of the lexical system, and thus cease to be a more extralinguistic factor.

**Keywords:** *language, society, communication, culture, history*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Veysəlli Fəxrəddin Yadigar oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 81**

# CƏMLİYİN FORMAL İDENTİFİKASİYASI VƏ ONUN SEMANTİK ŞƏRHİ

**Sevinc NAMƏTOVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 1avqust 2020; çapa qəbul edilmişdir: 29 avqust 2020; online-da çap edilmişdir: 30 sentyabr 2021.*

*Received: 1 August, 2020; accepted: 29th of August r, 2020; published online: 30th of September 2021*

**Açar sözlər:** *cəmlik kateqoriyası, cəmliyin formal göstəriciləri, cəmliyin semantik şərhi, semantik fərdiləşdirmə, cəmliyin demarkasiya hüdudları, referens semantika*

## Giriş

Mübtəda və xəbər arasında olan say və ya cəmlik balansı əsasən sintaktik və ya morfoloji funksiya hesab edilsə də, onların müxtəlif dillərdə işarələnməsi fərqli strategiyalara malikdir. Bu mövzu həm də bu sahədə tədqiqatların müxtəlifliyi və polemikanın çoxsahəliliyi ilə seçilir. Lakin bu tədqiqatlar problemin həllini daha da zənginləşdirsə də, bu yanaşmalarda bəzən ziddiyyətli və hətta əks mülahizələr də meydana gəlməkdədir. Məhz bu səbəbdən cəmliyin konseptual sistemi bütün dillər üçün hələ də sonadək işlənib hazırlanmamışdır.

Problemin digər tərəfi isə Belə bir sistemə ehtiyac vardırmı? sualının cavabı ilə əlaqədardır. Cəmliyin təsvirinə dair bir sıra elmi və nəzəri mənbələrdə (2, 3, 4, 5, 6, 7, 9, 10) bu məsələ müxtəlif aspektlərdən müzakirə olunsa da, problem hələ də öz köklü həllini tapmamışdır. ABŞ alimi Esther Jane Woodun bu sahədəki elmi araşdırması xüsusilə diqqəti çəkir. O öz tədqiqatında [8] dilçi alimlərin dillərarası nümunələrini induktiv və deduktiv yolla ümumiləşdirməklə, analitik və ya nəzəri məlumat bazası yaratmağa nail olmuşdur. Belə ki, bu vaxt o dillərarası qrammatik strategiyaları işə salmış, onlar yaramadığı halda isə, semantikanın göründüyündən daha çox təsir imkanlarına malik olmasını ya ayrıca göstərmiş, ya da onun cəmlik kateqoriyası yarada biləcək xüsusiyyətlərini fərdi hallarla izah etməyə çalışmışdır. Bu zaman o hesab edir ki, bu həm də isimlərin semantik xüsusiyyətlərini və onların cümlələrdə özünəməxsus davranışlarını hesablamaq üçün faydalıdır.

Sonradan ABŞ-a köçən ingilis dilçi xanım alim, Londonun Queen Mary Universitetinin professoru Hagit Borer özünün ikicildlik In Name Only Structuring Sense, tədqiqat əsərində digər bir yanaşmada (2005) qeyd etmişdir ki, ümumiyyətlə dillərdə bütün isimlər leksik səviyyədə kütlədir və *say/kütlə* fərqi yalnız sintaktik səviyyədə mövcuddur; yəni, bir isim yalnız görünəndə sayılır. Sintaktik konfiqurasiyada isə o, tamamlayıcı kimi - *təsnifatçı C (Classifier)/Cəmlik Markeri PM (Plurality/Marker)* nisbətində proqnozlaşdırıla bilər. Yəni o öz fikirlərini ingilis dilində sayıla bilən və kütlə bildirən isimlər üzərində cəmləşdirmişdir. Məsələn, a wine/wines, a love/loves, a salt/salts (say mənasında) – şərab / şərablar, sevgi / sevgilər, duz / duzlar və ya: There is a dog/stone/chicken on the floor (kütlə mənasında) Döşəmədə it / daş / toyuq (kütlə mənasında) vardır. (15, p.43). Göründüyü kimi, bu yanaşmalarda sosiolinqvistik faktorlar cəmlik paradiqmasının izah olunmasında baza rolunu oynayır.

*Skalyarlıq* – həcm, sıxlıq, sürət, enerji, kütlə və zamanı böyüklük tamamilə təsvir

* *doktorant, Xəzər Universiteti*
e-mail: mahmudovasevinc828@gmail.com

olunan fiziki bir kəmiyyət, *vektorallıq* isə güc və sürət kimi istiqamətə malik olan kəmiyyətlər adlanır. Yeom Jae-Il (Hongik University-Taiwan) qeyd edir ki, Skalyar İmplikasiyalar yerli təsirləri də ehtiva edən qlobal kontekstə malikdir (15, p.27).

Biz hesab edirik ki, cəmliyin formal göstəriciləri və onun semantik şərhi dillərin qrammatik xüsusiyyətlərindən asılı olaraq, fərqli şəkildə verilə bilər. Nominal olaraq cəmlik qrammatik fərqlərin bir hissəsini müxtəlif yollarla işarələyir: isimlər və ya feillər üçün çoxluq (və ya təklik) morfemləri, determinantları fərqli şəkildə istifadə edildikdə, bu müxtəlif təsnifatların meydana gəlməsinə yol açır, yəni say və ya çoxluq öz əksini əsasən sintaksis və morfologiyada tapmışdır; odur ki, məhz bu baxımdan isimlərin semantik xüsusiyyətlərinin sanki cəmliklə o qədər də əlaqəsi olmaması görüntüsü yaranmışdır. Lakin faktik olaraq cəmliyin formal göstəricilərinin şərh olunmasında semantika heç də cəmliyin digər qrammatik xüsusiyyətlərindən geri qalmır. Odur ki, professor Fəxrəddin Veysəlli doğru olaraq, müasir dilçiliyin inkişafından danışarkən onu koqnitiv psixologiyanın bir hissəsi hesab edir (3, s. 186).

### 1. Cəmliyin semantik xüsusiyyətləri

İrəli sürdüyümüz nəzəri müddəalardan biri də ondan ibarətdir ki, əgər semantik xüsusiyyətlər cəmliyin yaranmasında mühümdürsə və ya onu daha dolğun ifadə edə bilirsə, deməli, o fərdiləşdirməyə əsaslanmalıdır. Bu mənada ingilis və Azərbaycan dillərində cəmliyi daha ümumi şəkildə iki qrupda təfsir etmək olar. 1. Ayrı-ayrılıqda baş verən fərdi hadislərə əsaslanan cəmlik; 2. Ayrı-ayrılıqda baş verən fərdi hadislərə əsaslanmayan cəmlik fenomenləri. Başqa sözlə desək, sözlərin cəmliyi ehtiva etməsi üçün onlar məkan baxımından digər varlıqlardan ayrılmalı, məkan və zaman oxlarında müəyyən edilmiş müstəqil xüsusiyyətlərə malik olmamalıdır. Angelika Kratzer (University of Massachusetts Amherst – ABŞ) qeyd edir: Bütün bunlarda hadisələrin (events) rolu nədir? Barry Schein və Peter Lasersohn-un bünövrəsini qoyduqları cəmliyə yanaşmanın bu metodu (event method) çoxluğun semantikasında fərdi hadisələrin böyük rol oynadığını (12, p. 1) göstərmişdir. Bu yanaşma hadisələr arasında mətndə verilməsə belə, gizlin surətdə mövcud olan dəyişənlərin müəyyən miqdar istifadə edilməsinə dair semantik nəzəriyyələri nəzərdə tutur. Bunlar adverbal yardımçı ifadələri, semantik bağlayıcıları, perseptiv qavrayışları, tematik münasibətləri, nominalizasiya olunan sözləri (xüsusilə, sifət və feillər, yaranan isimləri, məsələn, interfere-interference, study-studied, determined və sair) və Aktionsart (fəaliyyət növü) da daxil olmaqla müxtəlif dil problemlərinə tətbiq edilən ifadələri əhatə edir. Lakin təəssüf ki, belə dil hadisələrinə əsaslanan cəmliyin və ya çoxluğun yaranmasına dair dilçi alimlər arasında hələ də fikir ayrılıqları mövcuddur. Məsələni daha da mürəkkəbləşdirən cəhət həm də onunla bağlıdır ki, bu nəzəriyyələrdə ifadə olunan çoxluq fenomenləri, hadisələrə əsaslanmayan (non-event based) təhlilləri də getdikcə çoxalmaqdadır. Bəhs etdiyimiz hadisələrin hamısı hadisəsiz (non-eventual) analizlər üçün kiçik və ya o qədər də kiçik olmayan konseptual problemlər təqdim edir. Buna görə də, çoxluqlar üçün semantik hadisə ən azı reallıq üçün yaxşı bir səbəb ola bilər. Deməli, burada sözlərin qrammatik xüsusiyyəti o qədər də mühüm hesab edilmir, onların məkanı və ya spontan yertutarlığı əlavə fərdiləşdirmə, çalar, fərqlilik, insanlarla qarşılıqlı əlaqədə yeni və fərdi semantik xüsusiyyətlər yaradır.

### Semantik fərdiləşdirmə

Digər tərəfdən, fərdiləşdirmə cəmliyə təsir edən mühüm xüsusiyyət hesab edilsə də, nəzərə almaq lazımdır ki, bu zaman semantik xüsusiyyətləri əks etdirən morfo-sintaktik nümunələr eyni olmaya da bilər. Bu tədqiqatda biz müxtəlif aspektlərdə cəmliyin semantik xüsusiyyətlərdən necə təsirləndiyini – cəmliyin göstəricisini, işarəsini, işarəsiz rəqəmlə ehtiva edilməsini, fərdi hallarda təkliyin necə dəyişdiyini göstərməyə çalışacağıq.

Bildiyimiz kimi, qrammatika dillərdən asılı olaraq fərqli nümunələr yaratmağa qabil olsa da, cəmlik əsas etibarilə sintaksis və morfologiyada öz əksini tapmışdır. Bununla birgə, son zamanlar ədəbiyyatda cəmliyin isimlərin semantik xüsusiyyətlərindən asılılığı məsələləri daha geniş müzakirə olunmaqdadır. Quineyə (1960) görə, cəmliyin sintaktik ifadəsi fərdiləşdirmə ilə sıx əlaqədardır, yəni bu xüsusiyyət obyektləri digər varlıqlardan ayırmaq və onların zaman-məkan mənsubiyyətini yəqinləşdirmək üçün mühümdür. Fərdiləşdirilmiş halları nəzərə almasaq, cəmliyin semantik ifadəsini müəyyənləşdirmək çətin olardı. Yəni dil istifadəçilərinin ünsiyyət qurmaq üçün nitq mənalarını hansı yolla və necə qavramalarına dair yol xəritəsi mövcud olmasa belə (bu, dilçilikdə indiyədək ən çətin problemlərdən biri sayılır), təklik və cəmlik arasındakı fərqin semantik təbiəti və çoxluğun təfsiri yenə də müəyyən çətinliklər yarada bilər (9, s. 57). Deməli, ünsiyyətin koqnitiv mexanizmini bir kənara qoysaq, cəmliyin bir sıra semantik növlərinin olduğunun şahidi oluruq; yəni cəmliyin özü hər bir fərdi hallara görə bir-birindən fərqlənən üsul və vasitələrdən ibarətdir. Məhz elə bu səbəbdən çoxluq anlayışı semantik baxımdan çox işlənməmiş sahələr sırasındadır (14, s. 267).

Cəmliyin ingilis və Azərbaycan dillərində semantik ifadəsinin bir yolu, landscapes-mənzərələr, vehicles-maşınlar kimi misallarda onların konkret bir əşyanı göstərməyərək, həmin sinfə aid olan çoxluğu ifadə etməsidir. Bu misallarda onlar öz sinfinə dair cəmlik ifadə edən isimlərdir. Söhbət yalnız s cəmlik şəkilçisindən getmir. Digər bir halda isə, bu semantik vahidlik fikrin intensivlik bildirən vasitələri ilə, məsələn, again and again - təkrar-təkrar, from time to time - zaman-zaman, now and then - vaxtdan-vaxta, ölçü bildirən vasitələrlə - hundred years - yüz illərlə, cazibədar gözəllikləri göstərən sözlərin sıralanması ilə - lakes, valleys, forests - göllər, dərələr, meşələr və sair kimi və eləcə də, sair semantik vasitələrdə öz əksini tapa bilər. Lakin qeyd olunmalıdır ki, bütün bu semantik imkanlar (indiki halda adverbal ifadələrin) cəmliyin ingilis və Azərbaycan dillərində leksikləşdirilməsi hesab edilir. Belə olan halda, hesab edirik ki, leksika və semantika arasında dayanan zaman və məkan kateqoriyası önə çəkilməli, yəni bu hallarda semantik miqyasın həddindən artıq olan zaman və məkan imkanları cəmlik paradiqmasının leksikləşdirilməsinə xidmət etməsi nəzərə alınmalıdır. Bu vəziyyət leksik və semantik demarkasiya xətlərinin nə qədər zərif olduğunu göstərir. Belə nəticəyə gəlmək olar ki, cəmliyin formal göstəriciləri və onların semantik şərhi, qarşılaşdırılan dillərdə spesifik cəmlik göstəriciləri, qəribə olsa da, eyniyyət təşkil edir.

**Cəmliyin demarkasiya hədləri**

Biz hesab edirik ki, cəmlik paradiqmasına formal, leksik, cümlə, diskurs və dialoq semantikaları arasında olan demarkasiya hədləri baxımından yanaşsaq, daha düzgün olardı, çünki, artıq qeyd etdiyimiz kimi, fərdiləşdirmə olmadan, hər bir üsulun zaman və məkan çərçivələri müəyyən edilmədən onların üzərinə ucdantutma ümumilik etiketlərinin asılması yanlışlığa gətirib çıxarardı.

Məlumdur ki, biz təbii dildən tez-tez dünya həqiqətlərinin necə olduğunu söyləmək üçün istifadə edirik və bu zaman biz yalnız bir həqiqəti deyil, bununla bağlı kifayət qədər seçilən və aktual hesab etdiyimiz dünyadakı digər şeylərə də formal olaraq müraciət etmiş oluruq. Bəzi hallarda bu formal dilçilikdə azərbaycanlı professor Əfqan Abdullayevin də qeyd etdiyi kimi, aktual üzvlənmə (1, s. 27) və ya həmin zaman və məkan üçün etibarlı olan məna kontekstində şərh olunur. Formal və ya referens semantikada təbii dildə cəmlik ifadələrinin mənası həmin sözün məhz elə həmin istinad zamanı oynadığı rol üzərindədir. Məsələn, Such beauty of nature fascinated everone there (ing.), Bu gözəllik orada (olanların) hamını heyran etdi cümləsini təhlil edərkən:

1. Gözəlliyin ümumi anlayış kimi individual mənalarının həmin belə gözəllikdə olmayan xüsusiyyətlərə də şamil olunması qaçılmazdır;

2. Belə gözəllik = həmin yerin gözəlliyi + ümumiyyətlə gözəlliyin ehtiva etdiyi digər mənalar + gözəlliyə xidmət edən həmin yerdə digər referens şeylər və hadisələr nəzərdə tutulur;

3. Hamını sözü formal olaraq cəmlik şəkilçisi olmadan belə leksik və semantik baxımdan topluluq bildirir; odur ki, bu söz kontekstual olaraq, işarələnməmiş cəmlik bildirir;

4. Orada olanların qiymətləndirdiyi fərdi gözəllikdən başqa, gözəlliyin bütün semantik referent qrupu kimi dərk edilir.

Göründüyü kimi, təkcə bir cümlədə cəmliyin formal semantika baxımından onun fərdiləşdirilmədən leksikalizasiya kimi elan edilməsi düzgün hesab edilmir. İtalyan dilçisi, Harvard Universitetinin (ABŞ) professoru Chierchia Gennaro (1953) semantik dinamizmi cəmliyin təyin olunmasında mühüm amil hesab etmişdir. Belə ki, o nominal olaraq cəmliyin ifadəsinin qrammatik prinsiplərlə təyin olunmasına baxmayaraq, kanonik kütlə isimlərinin kütlə kimi istifadə olunma meyilinin güclü olduğunu da iddia edirdi. Bunlara maddələr üçün isimlər, yəni təbiətini dəyişdirmədən birləşdirilə və ya parçalana bilən maddi aqreqatlar daxildir. Daha spesifik olaraq, bunlara maye (məsələn, su, pivə), pasta (xəmir, gil), mineral (məsələn, qızıl) və müxtəlif materialları (məsələn, taxta, bürünc, qum) bildirən isimlər daxildir (5, p. 57). Bu misallarda diqqəti çəkən mühüm məsələ, onlarda məkan-zaman xüsusiyyətinin olmaması və bu xüsusiyyətin saymağı çətinləşdirməsi səbəbindən bu qrupa daxil edilən isimlərin daha çox kütləvi sayma fərqinə imkan verməsi həm ingilis, həm də azərbaycan dillərində kütlə bildirən isimlər kimi təsnif edilməsidir.

İngilis mənşəli avstraliyalı dilçi professor Keith Allan 1977-ci ildə öz doktorluq dissertasiyasında ingilis dilində ismi birləşmələrin təklik və cəmlik paradiqmalarını belə təsvir etmişdir: Beləliklə, təklik və çoxluğun öyrənilməsi qrammatika və praqmatikanın bir hissəsini təşkil etməlidir (11, s. II). O belə hesab edir ki, cəmlik və təklik insanlar və ya qruplar arasında formal harmoniyanı təşkil etmək və birgəlik bildirən isimləri təsvir etmək üçün insanlar tək və ya təkliklərdən isifadə etməli olur. Bu bir tərəfdən ünsiyyətə xidmət etdiyindən praqmatik ünsiyyətdən irəli gəlir (səthi yanaşma), digər halda isə təkliklərin çoxlu növlərini yaratdığı üçün isə struktur qrammatikasının predmetinə çevrilir.

**Nəticə**

Beləliklə, cəmliyin istər sintaktik və morfoloji, istərsə də formal semantik referans yolları ilə ifadə edilməsi öz spesifik xüsusiyyətləri ilə seçilir. Müasir dilçilik üçün qarşılaşdırılan dillərin cəmliyinin formal identifikasiyası və onun şərhi artıq linqvistik problem çərçivəsindən çıxaraq fənlərarası bir mövzuya çevrilməkdədir. Odur ki, bu problemlə indi dilçilərlə birgə, sosiolinqvistlər, biheivoristlər antropoloq və filosoflar, riyaziyyatçılar və digər elm sahəsində çalışanlar da intensiv surətdə məşğul olurlar. Biz hesab edirik ki, yaxın onilliklərdə bu problem daha çox ümumdisiplinar bir obyektə çevriləcəkdir.

Gələcəkdə bu mövzu ilə bağlı olaraq, cəmliyin həm ayrıca, həm də qarşılaşdırılan dillərdə konseptual mənzərəsini işləmək üçün morfoloji, sintaktik və semantik seqmentlərin səfərbər olunması və ayrılıqda sistemli təhlillərin fərdiləşdirilmiş hadisələr üzərində aparılan təhlillərə yönəldilməsi daha böyük aktual hesab ediləcəkdir.

## ƏDƏBİYYAT

**Azərbaycanlı dilində:**

1. Abdullayev Ə. Aktual üzvlənmə və mətn. Bakı: Xəzər Universitetinin nəşriyyatı, 1998, c. 190.
2. Vəliyeva N. Comparative Typology of the Modern English, Russian and Azerbaijani Language. Belgrade, Serbia, June, 2019, p.471.
3. Veysəlli F.Y. Dilçiliyin əsasları, 2 cilddə. Bakı: Mütərcim, 2013, c.417.

**Rus dilində:**

4. Блох М.Я. Теоретическая грамматика английского языка. Учебник. Для студентов филол. фак. ун-тов и фак. англ. яз. педвузов. М.: Высшая школа, 1983, с 383.
5. Владимир Д.А. Типология языков и проблема методического прогнозирования, Москва: Высшая школа, 1989, с. 158.
6. Выхрыстюк М.С. Сравнительно-историческое, типологическое и сопоставительное языкознание, Ханты-Мансийск, 2016, с 162.

**İngilis dilində:**

7. Chicherchia G. Plurality of mass nouns and the notion of semantic parameter, in Susan Rothstein, (ed.) Bar-Ilan University, Ramat Gan, Israel. Book Events and Grammar, Springer Science+Business Media Dordrecht, Studies in Linguistics and Philosophy, Volume 70, 1998, pp. 53-103.
8. Esther J.W. The Semantic Typology of Pluractionality, Dissertations, Department of Linguistics. University of California, Digital Library, USA, 2007, p.290 .
9. Hofherr P.C. Verbal plurality and event plurality, Sommerschule Typologie, Leipzig 15 Aug - 5 Sept 2010, p. 121.
10. Kwak Eun-Joo: Cross-Linguistic Evidence for Semantic Countability. Journal of Universal Language vol. 15, no. 2, September 2014, pp. 55-76. See: (https://www.researchgate.net/publication/314023886_Cross-Linguistic_Evidence_for_Semantic_Countability)
11. Keith A. Singularity and plurality in English noun phrases: A study in Gramma and Pragmatics, doktorluq dissertasiyası, Böyük Britaniya, Edinburq Universiteti, 1977, p. 404.
12. Kratzer A. On the Plurality of Verbs, University of Massachusetts Amherst, Research Gate, April 2012, pp. 1-41. (https://www.researchgate.net/publication/265047874_On the_Plurality_of_Verbs)
13. Ning Z.N. The morphological expression of plurality and pluractionality in Mandarin, Lingua, Elsevier, Volume 165, Part A, October 2015, pp. 1-27.
14. Nouwen R. Plurality, in Book Formal Semantics Cambridge Handbook of Semantics, Cambridge University Press, 2016. pp. 267-284.
15. One-Soon Her, Yun-Ru Chen. Unification of Numeral Classifiers and Plural Markers: Empirical Facts and Implications, 27th Pacific Asia Conference on Language, Information, and Computation. Proceedings of a meeting held 21-24 November 2013, Taipei, Taiwan, vol.1. pp. 37-46.

***Summary***

***Sevinj Nametova***

***Formal identification of plurality and its semantic interpretation***

This article discusses the questions related to plurality in English and Azerbaijani languages and the characteristics of various approaches and interpretations to their formal identification as semantic.

According to researchers there exist a number of diffrenet approaches, (evolutionary, lexical, stuctural, morphological, semantic, etc.) methods to the formal interpretation of plurality in English and Azerbaijani languages. When we compare the ways of formation plurality we may face with some similarities and differences. However, the methods of plurality formation and their identification can somehow be interpretd by the situational analyses. Such kind of multifacetedness very often leads to confusion among the linguistists when they emphasize its one aspect, for example, grammatical, while forgetting the semantic surfaces. Besides, although the typological classification of plurality in comparative lingusitics has taken much wider discussions among the scholars, it has not come to the end yet in terms of identification this paradigm's demarcation limits, especially, the time-spatial effects which are related to the context. The article tries to comapare various stands of linguists on these stands and pretends that although singularity and plurality mainly belong to morphological function, various semantic references may also serve as contextual or textual plurality.

The article states that, one way to express the plurality in English and Azerbaijani is connected with semantic context. In another case, this semantic unity is expressed by means of expressing the intensity of thought, for example, again and again, from time to time, now and then, from time to time, by means of measurement - hundred years - hundreds of years, then the expressions of charming beauties as lakes, valleys, forests where apart from these amainitie we can also assume more than which are inherent for their semantic menaing. However, it should be noted that all these semantic possibilities (in this case adverbal expressions) are considered to be lexicalized to express plurality in English and Azerbaijani languages. In this case, we believe that the category of time and space, which stands between lexical and semantic surfaces, should be highlighted. It means that, in these cases, the excessive time and space capabilities of the semantic scale serve to lexicalize the paradigm of plurality.

**Key words:** *plural category, formal indicators of plural, semantic interpretation of plural, semantic individualization, demarcation limits of plural, reference semantics*

***Резюме***

***Севиндж Наметова***

***Формальная идентификация монжественности и ее семантическая интерпретация***

В данной статье обсуждаются вопросы, связанные с множественностью в английском и азербайджанском языках, а также характеристики различных подходов и интерпретаций к их формальной семантической идентификации.

По мнению исследователей, существуют ряд различных подходов (эволюционных, лексических, структурных, морфологических, семантических и др.) к формальной интерпретации множественности в английском и азербайджанском языках. Когда мы сопоставляем способы образования множественности, мы можем столкнуться с некоторыми сходствами и различиями. Однако путем ситуационного анализа можно как-то интерпретировать способы формирования и идентификации множественности. Такая многогранность очень часто приводит лингвистов в путаницу когда они подчеркивают один ее аспект, например, грамматический, при этом забывая семантические поверхности. Кроме того, хотя типологическая классификация множественности в сравнительной лингвистике вызвала гораздо более широкие дискуссии среди ученых. Кроме этого, вопросы вокруг проблематики еще не исчерпаны и нам предстоит отвечать на вопросы связанных с демаркационной линии этой парадигмы, особенно, с их пространственно-временными эффектами, связанными с их контекстом. В статье делается попытка сопоставить различные позиции лингвистов и, хотя считается неоспоримым что единственность и множественность в основном относятся к морфологической функции, а различные семантические референции могут также служить контекстуальной множественностью.

